RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 273 (9440) 14 DEKABR 2023-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Seçkilərin nəticəsi 20 ilin uğurlarına söykənəcək

### Xalq Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, torpaqlarımızı işğaldan azad edən və erməni separatizminə son qoyan siyasətin davamına səs verəcək

**Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü il fevralın 7-də respublikamızda növbədənkənar prezident seçkiləri keçiriləcək.**

Artıq Mərkəzi Seçki Komissiyası seçkilərin keçirilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş əsas hərəkət və tədbirlərin müəyyən edilmiş qaydada və müddətdə reallaşdırılması üçün Təqvim Planını təsdiq edib. Bu, 1993-cü ildən ötən 30 ildə Azərbaycanda demokratik şəkildə baş tutacaq 7-ci prezident seçkisi olacaq.

#### Yüksəliş, intibah və qüdrətli dövlətçilik kursu

Prezident seçkilərində cəmiyyətin seçimi ilk növbədə ötən 20 ilin yekunlarına əsaslanacaq. İlk dəfə 2003-cü ilin prezident seçkilərində İlham Əliyevi dəstəkləyən xalqımız bununla Ulu Öndər Heydər Əliyevin ideyalarının davamına, təhlükəsizliyə və inkişafa səs verdi. Ötən 20 ildən artıq dövrün reallıqları xalqımızın həm bu seçiminin, həm də sonrakı seçkilərdə İlham Əliyevə etimadının nə qədər düzgün və müdrik qərar olduğunu təsdiq edir.

→ 3

## Könüllülük hərəkatı Azərbaycan gənclərini vahid platformada birləşdirib

### Azərbaycan Könüllülərinin VI Həmrəylik Forumunun iştirakçılarına

Əziz gənclər!

Sizi - Azərbaycan Könüllülərinin VI Həmrəylik Forumunun iştirakçılarını salamlayır, Beynəlxalq Könüllülər Günü münasibətilə təbrik edir və hamınıza cansağlığı, gələcək işlərinizdə nailiyyətlər arzulayıram.

Forumun Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar ölkəmizdə elan olunmuş "Heydər Əliyev İli" çərçivəsində təşkili xüsusi əhəmiyyət daşıyır. Könüllülük hərəkatı məhz Ulu Öndərin xeyir-duası ilə geniş vüsət alaraq Azərbaycan gənclərini vahid platformada birləşdirmiş və ötən müddət ərzində ictimai həyatımızın ən müxtəlif sahələrini əhatə etmişdir. Zəngin mədəni-mənəvi dəyərlərimizi rəhbər tutan hərəkat əməli fəaliyyətində xeyirxahlıq, fədakarlıq və təmənnasız yardım kimi ali bəşəri keyfiyyətləri təcəssüm etdirmiş, cəmiyyətin etimadını layiqincə doğrultmuşdur.

Sevindirici haldır ki, könüllülərimiz bu gün yurdun hər bir guşəsində dövlət gənclər siyasətinin məqsəd və prinsiplərinə uyğun şəkildə Azərbaycanın davamlı tərəqqisinə yönəlmiş sosial təşəbbüslərə və innovativ layihələrə hamılıqla qoşulurlar. Onlar ekofəallarımızla birgə Qarabağda təbii sərvətlərimizin qanunsuz istismarına qarşı etiraz ifadə edən və uğurla nəticələnən dinc aksiyanın əsas iştirakçıları olmuşlar. Artıq onların həmçinin ölkə hüdudlarından kənarda humanitar yardım istiqamətində koordinasiyalı fəaliyyət təcrübəsi vardır.

İndi müstəqillik tariximizin inkişaf dövrünün qürurverici yeni mərhələsindəyik. İşğaldan azad edilmiş ərazilərimizdə ən qısa zamanda həyatın əvvəlki ahənginə qaytarılması üçün genişmiqyaslı işlər aparılır. İnanıram ki, Ulu Öndərin tövsiyələrini özünüzə şüar seçən siz könüllülər Vətənə və dövlətə bundan sonra da dərin bağlılıq nümayiş etdirəcək, yüksək fəallıq göstərərək Böyük qayıdışa töhfələr verəcəksiniz.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2023-cü il*

## Xalqla Prezident arasında sarsılmaz birlik mövcuddur

Xalqımız əmindir ki, Prezident İlham Əliyevin 2020-ci il sentyabrın 27-də əks-hücuma keçmək, 10 noyabrda müharibəni qələbə ilə başa çatdırmaq, 23 aprel 2023-cü ildə Laçında dövlət sərhəd keçid məntəqəsini yaratmaq və bu ilin 19-20 sentyabrında Qarabağda separatçılığa son qoymaq və suverenliyimizi bərpa etmək haqqında verdiyi taleyüklü qərarlar və onların tarixi nəticələri kimi 7 fevral 2024-cü ildə növbədənkənar prezident seçkilərinin keçirilməsi haqqındakı qərarı da eyni xarakterlidir. Bütün qərarlar əldə etdiyimiz qələbələri daha da möhkəmləndirməyə xidmət edir.

→ 3

## Prezident İlham ƏLİYEV: "Bizim çox sabit siyasi sistemimiz var, xalqımızın çox güclü birliyi var"

Prezident İlham Əliyevin hər bir müsahibəsi, çıxışı həm də ölkəmizin gələcəyi ilə bağlı inkişafın aydın təsəvvürünü yaradır, uğurlara yönəlmiş iqtisadi və sosial istiqamətləri müəyyənləşdirir. Bu baxımdan Prezidentin "Euronews" televiziyasına müsahibəsi də istisna olmamışdır. Müsahibəsi zamanı dövlət başçısı çox aydın və qəti şəkildə bildirmişdir ki, Azərbaycanın daxilində risklər yoxdur: "Bizim çox sabit siyasi sistemimiz var, xalqımızın çox güclü birliyi var, xüsusilə işğal olunmuş ərazilərimizin azad edildiyi tarixi qələbədən sonra".

Dövlət başçısının müsahibəsindən də aydın göründüyü kimi, Azərbaycan müstəqil xarici və daxili siyasət yürütməyə qadir olan bir ölkədir. O da xüsusilə qeyd olunmalıdır ki, bu siyasət milli maraqlara əsaslanaraq yürüdülür. Bu siyasətin əsasında ölkəni qarşıdurma, yaxud rəqabət arenasına çevirməmək, dövləti mənfi xarici təsirlərdən və daxili işlərə müdaxilədən qorumaq dayanır. Azərbaycanı istənilən rəqabətdən, geosiyasi mübarizədən və ya böyük dövlətlərin toqquşmasından qorumaq üçün Prezident İlham Əliyev tərəfindən vaxtında zəruri və lazımi addımlar atılır. İllərdən bəri formalaşmış dövlət və dövlətçilik ənənələri göz bəbəyi kimi qorunur.

→ 5

## Yalnız Azərbaycanın qanunları ilə…

### Ermənistana üz tutmaqdan peşman olan ermənilərin ölkəmizə dönüşü üçün bundan başqa yolları yoxdur

Azərbaycan hökumətinin onlara vəd etdiyi və həyata keçirdiyi təhlükəsiz, layiqli həyat şəraitindən imtina edərək Ermənistana üz tutan Qarabağ erməniləri böyük peşmançılıq içərisindədirlər. Onların şirnikləndirilərək ölkəmizi tərk etməyə sövq edilməsi sadəcə Ermənistana xarici ölkələrdən, donor təşkilatlardan pul almaq üçün, riyakar Qərb ölkələrinə isə Cənubi Qafqaza yerləşmələri üçün bir təzyiq vasitəsi kimi lazım idi. Və bu məkrli oyunda Qarabağ erməniləri qurban kimi seçildilər.

"Euronews"a müsahibəsində dövlət başçısı İlham Əliyev söylədi ki, ölkəmizi tərk etmək qərarı onların öz qərarı idi və indi əldə etdiyimiz məlumata əsasən, bu dırnaqarası "dağlıq qarabağ respublikası"nın dırnaqarası "sabiq rəhbərləri"nin qəsdən etdiyi hərəkət idi: "Onlara oranı tərk etməyə ehtiyac yox idi, lakin onlar tərk etmək qərarını verdikdə biz onları dayandıra bilməzdik. Biz onlar oranı sülh şəraitində tərk etsinlər deyə, onlara maksimum dərəcədə rahat şərait yaratdıq".

→ 6

## Füzulililərin yurda dönüşü davam edir

Böyük qayıdış sürətlə davam edir, keçmiş məcburi köçkünlər yüksək sevinclə mərhələli şəkildə doğma yurdlarına qayıdırlar. Vətəndaşlarımızın xoşbəxtliyinin, qürurunun və güvəninin əsas səbəbkarı isə Müzəffər Ali Baş Komandanın iradəsi və rəşadətli Azərbaycan Ordusunun şücaətidir. Bu gün dövlətimizin başçısı bölgəmizdə düşmənçiliyə son qoyulması, qarşılıqlı etimada əsaslanan davamlı sülhə, dincliyə və əmin-amanlığa nail olunması uğrunda çalışır.

→ 6

## Azərbaycan tarixində yeni mərhələnin başlanğıcı

Cənab İlham Əliyev 2003-cü ildə xalqımızın yekdil səsi ilə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra dövlətimizi addım-addım bu hədəfə yaxınlaşdırdı. Bir tərəfdən münaqişənin qan tökülmədən, hər iki tərəfdən insan itkilərinə yol vermədən beynəlxalq hüquq normalarına uyğun ədalətli qaydada həlli üçün ölkəmiz sülh danışıqlarına uzun illər sadiqlik nümayiş etdirdi. Hətta danışıqların ən ümidsiz vaxtlarında da yenə görüşlərdə iştirakdan, müzakirələrdən imtina etmədi. Amma buna paralel olaraq torpaqlarımızın hərb yolu ilə düşməndən təmizlənməsi, ərazi bütövlüyümüzün ordumuzun gücü ilə bərpasını da daim gündəmdə saxlayaraq buna lazımi hazırlıqlar apardı. Beləliklə, Prezident İlham Əliyev Ulu Öndərin ötən əsrin 90-cı illərinin ortalarından müəyyən etdiyi xəttin davamı kimi böyük bir tarixi proses formalaşdırdı. Xalqın dəstəyi, yekdil rəyi ilə hər seçkidə Azərbaycan Respublikasının Prezidenti seçilərək ölkəyə rəhbərliyini davam etdirdiyi müddətlərdə bu prosesi daha da genişləndirdi, əldə edilmiş nailiyyətləri qoruyaraq möhkəmləndirdi. Hər mərhələnin xarakterik vəzifələrini səbirlə, mahir strateq kimi dəqiq şəkildə yerinə yetirdi, hər addımı öz vaxtında, məqamında atdı.

→ 3

## Qlobal nüfuz, yüksələn etimad

### Azərbaycanın COP-29-a evsahibliyi BMT TŞ-yə üzvlükdən və Qoşulmama Hərəkatına sədrlikdən sonra xarici siyasətimizin ən böyük uğurudur

→ 4

## Azərbaycan qazının ixrac marşrutları şaxələnir

### Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun fəaliyyətə başlaması bu istiqamətdə atılan mühüm addımdır



→ 13

## Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin əməkdaşlarının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illiyi münasibətilə **qərara alıram:**

1. Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə**

Eyubova Mələkxanım Yadigar qızı
Əhmədov İlham Namiq Kamal oğlu
Əli-zadə Məryam Əli qızı
Əzizov Arif Möhübəli oğlu
Xələfova Fəxriyə Rafiq qızı
İsmayılova Səkinə Qulu qızı
Ömərova Həmidə Məmməd qızı

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Abdullayeva Yaqut Babakişi qızı
Əsədullayev Mirnazim Müştəba oğlu
Şükürov Azad Hətəm oğlu

**"Tərəqqi" medalı ilə**

Abdullayev Həmzə Yusif oğlu
Abdullayeva Tamilla Paşayevna
Babayeva Məryəm Şaqi qızı
Eyvazova Yeganə Məhəmməd qızı
İsmayılov Ramiz Məmməd oğlu
İsrafilov Fərhad Ramazan oğlu
Qəhrəmanlı Fəxrəddin Rəhim oğlu
Mahmudova Göyçək Fuad qızı
Manafov Fikrət Bala Kərim oğlu
Mehdiyeva Səbinə Mətləb qızı
Rüstəmova Nigar Rafiq qızı
Rzaquliyeva Aytən Elbəy qızı
Salayev Ayaz Ramiz oğlu
Süleymanlı Mübariz Aslan oğlu
Talıbova Böyükxanım Böyükağa qızı.

2. Azərbaycanda təhsilin inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar incəsənət xadimi"**

Mahmudova Ceyran Emin qızı

**"Əməkdar müəllim"**

Əliyeva Nəzirə Məmmədqulu qızı
Hüseynov Nadir Qəribağa oğlu
Kazımov Rəşad Oqtay oğlu
Mansurova Humay Saleh qızı
Mehdiyeva Kəmalə Teyyub qızı
Mikayılova Sonaxanım Məmmədağa qızı
Orucov Fəzail Cəfər oğlu
Teymurova Sevda Namaz qızı
Yaqubova Mahirə Mehdi qızı.

3. Azərbaycanda təhsilin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Baxşıyeva Gülşad Eynulla qızı
Əmirov Əli Məmməd oğlu
Məmmədəliyev Vamiq Məmmədəli oğlu
Məmmədova Validə İmran qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2023-cü il*

## Abşeron rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Abşeron rayonunun Saray qəsəbəsi ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,2 milyon (bir milyon iki yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin "Şəhid və şəhid ailəsi statusu almış şəxslərə, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə və müharibə veteranlarına dair məlumatların mübadiləsi mexanizminin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" 2021-ci il 27 oktyabr tarixli 1470 nömrəli və "Dövlət icbari şəxsi sığorta sisteminin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"nin və "e-sosial" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2019-cu il 15 aprel tarixli 634 nömrəli və "Dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2021-ci il 18 may tarixli 1340 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2021-ci il 29 dekabr tarixli 1541 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Şəhid və şəhid ailəsi statusu almış şəxslərə, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə və müharibə veteranlarına dair məlumatların mübadiləsi mexanizminin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 27 oktyabr tarixli 1470 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1114) 4-cü hissəsindən "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti," sözləri çıxarılsın.

2. "Dövlət icbari şəxsi sığorta sisteminin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"nin və "e-sosial" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2019-cu il 15 aprel tarixli 634 nömrəli və "Dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2021-ci il 18 may tarixli 1340 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 dekabr tarixli 1541 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1406) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4-cü hissədən "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti," sözləri çıxarılsın;

2.2. 6-cı hissədə birinci halda "və" sözü vergül işarəsi ilə əvəz olunsun və həmin hissəyə "Təhlükəsizliyi Xidməti" sözlərindən sonra "və Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2023-cü il*

## Türkiyə Prezidenti Milli Məclisin deputatlarını qəbul edib



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan bu ölkədə səfərdə olan Milli Məclisin Səhiyyə komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov, deputatlar Məlahət İbrahimqızı, Ramin Məmmədov, Fəzail Ağamalı, Nizami Cəfərov, Cavanşir Feyziyev, Naqif Həmzəyev və Anar İsgəndərovu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Ədalət və İnkişaf Partiyasının (AK Parti) qərargahında keçirilən görüşdə Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov və Türkiyə Böyük Millət Məclisinin Azərbaycanla parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Şamil Ayrım da iştirak ediblər.

## Milli Məclisdə vətəndaş qəbulu keçirilib



Dekabrın 13-də Milli Məclisin Sədr müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev parlamentdə şəhid ailələri üzvlərinin, qazilərin və seçicilərinin qəbulunu keçirib.

Qəbul zamanı vətəndaşlar tərəfindən qaldırılmış müxtəlif sosial, məişət, humanitar, təhsil kimi müraciətlərin bir qismi vitse-spiker tərəfindən yerindəcə həll olunub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, vətəndaşlar tərəfindən qaldırılan digər müraciətlərin həll edilməsi məqsədilə aidiyyəti üzrə mərkəzi və yerli icra hakimiyyəti orqanlarına sorğular göndərilib. Müraciət edən vətəndaşlara mövcud qanunvericiliyin tələblərinə dair hüquqi izahlar verilib və müraciətlərinə yüksək həssaslıq göstərilib.

Vətəndaşların qəbulu, onların müraciətlərinin həlli istiqamətində ölkə rəhbərliyinin verdiyi tapşırıq və tövsiyələrə uyğun olaraq, Milli Məclisin Sədr müavininin ünvanına daxil olan müraciətlər tam, hərtərəfli araşdırılır və onların həllinə nail olmaq məqsədilə qanunvericiliyə uyğun şəkildə lazımi addımlar atılır.

*"Azərbaycan"*

## Qadınların əmək hüquqlarının müdafiəsi gücləndirilir

Dekabrın 13-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin videokonfrans formatında iclası keçirilib. İclası açan komitə sədri Musa Quliyev bildirib ki, gündəliyə ikinci oxunuşda "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri daxil edilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, plenar iclasın ikinci oxunuşunda baxılmaq üçün komitənin müzakirəsinə çıxarılan qanun layihələri barədə ətraflı məlumat verən Musa Quliyev qeyd edib ki, Məcəllənin 5 maddəsinə ümumilikdə 10 dəyişiklik nəzərdə tutulub. Bildirilib ki, dəyişikliklər həm mahiyyət, həm də dəqiqləşdirici xarakter daşıyır, dəyişikliklərin hər biri qadınların əmək şəraitinin yaxşılaşdırılmasını, həmçinin onların iş imkanlarının genişləndirilməsini nəzərdə tutur. "İşsizlikdən sığorta haqqında" qanuna təklif olunan dəyişikliklərlə bağlı komitə sədri deyib ki, işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, o cümlədən sığortaolunanların itirilmiş əməkhaqlarının kompensasiya olunması və işsizliyin yaranması hallarının qarşısının alınması Azərbaycan hökumətinin daim diqqət mərkəzindədir. Qanun layihəsinin mühüm tərəflərinə toxunan komitə sədri işsizlikdən sığorta hadisəsinin baş verməsinə görə sığorta ödənişi təyin olunmasının müddətinin 30 aydan 24 ayadək azaldılmasını mütərəqqi hal kimi dəyərləndirib.




Onlayn iclasda çıxış edən deputatlar Vüqar Bayramov, Jalə Əliyeva və Aqil Məmmədov Əmək Məcəlləsinə və "İşsizlikdən sığorta haqqında" qanuna təklif olunan dəyişiklikləri müsbət dəyərləndirərək, düzəlişlərin əmək qanunvericiliyinin təkmilləşdirilməsi işinə töhfə verəcəyini bildiriblər. Millət vəkilləri hamilə, 14 yaşınadək uşağı olan, həmçinin 18 yaşınadək əlilliyi müəyyən edilmiş qadınların əmək hüquqlarının müdafiəsinin gücləndirilməsini, onlara münasibətdə qayğının artırılmasını nəzərdə tutan dəyişiklikləri təqdir ediblər. Məsələlərin əhəmiyyətini qeyd edən çıxışçılar əmək bazarında riskin ötürülməsinə əsaslanan münasibətlərin və yeni maliyyələşmə mexanizmlərinin yaradılması barədə də fikirlərini səsləndiriblər.

Müzakirələrin sonunda komitə üzvləri "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihələrini ikinci oxunuşda müzakirə üçün Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

*"Azərbaycan"*

## Yeni norma yeni qanunda da əksini tapacaq

Dekabrın 13-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin onlayn iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitənin sədri Sadiq Qurbanov bildirib ki, gündəliyə bir məsələ - "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin birinci oxunuşda müzakirəsi daxil edilib.

İclasda bildirilib ki, "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə 30 may 2023-cü il tarixli qanuna əsasən, 2023-cü il oktyabrın 1-dən etibarən qanuni əsaslar olmadan inşa edilmiş və ya tikilməkdə olan tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulması qadağan edilib. Buraya həm tikintisinə icazə tələb olunan, lakin belə icazə alınmadan inşa edilən, həm də barəsində məlumatlandırma icraatı tətbiq olunan, lakin tikinti işlərinin başlanmasına həmin Məcəllənin 80.4-cü maddəsində nəzərdə tutulmuş əsas olmadan inşa edilən tikinti obyektləri daxildir.

2023-cü il aprelin 11-də isə yeni "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib və 2024-cü ildən qüvvəyə minəcəkdir. Həmin qanunun qüvvəyə minməsi ilə əlaqədar "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 1998-ci il 3 aprel tarixli 459-IQ nömrəli Qanunu ləğv edilir. Bu səbəbdən müvafiq tənzimləyici normanın olduğu kimi 2023-cü il 11 aprel tarixli "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununa əlavə edilməsi (keçirilməsi) zərurəti yaranıb. Bununla da həmin tənzimləyici normanın 2024-cü il yanvarın 1-dən sonra da qüvvədə olması təmin ediləcəkdir.




Qeyd edilib ki, analoji norma qaz və su təchizatı sistemlərinə qoşulmaya münasibətdə də mövcuddur.

Çıxış edən komitə üzvləri Fatma Yıldırım, Afət Həsənova, Məşhur Məmmədov və İltizam Yusifov qanun layihəsinin əhəmiyyətindən danışıblar.

"Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirə üçün tövsiyə edilib.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

## 7 FEVRAL AZƏRBAYCANDA NÖVBƏDƏNKƏNAR PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR



# Azərbaycan tarixində yeni mərhələnin başlanğıcı

Bu gün müstəqil siyasət Azərbaycan üçün sadəcə inkişaf yolu deyil, eyni zamanda milli ideologiyamızın mühüm prioritetidir və ölkəmiz bütün istiqamətlərdə bu prioriteti yüksək tutur.

Son illərdə ölkəmizdə cəmiyyət həyatının bütün önəmli sahələri üzrə reallaşdırılan dinamik islahatlar da bunun bir təzahürüdür. Aparılan köklü dəyişikliklərlə Azərbaycan tərəqqi və təkamül yolu keçərək yeni şəraitə uyğunlaşır. Xalqın böyük dəstəyi ilə müşayiət olunan bu islahatlar ölkəmizin daxili siyasi uğurlarına yol açır, cəmiyyətimizi daha da səfərbər edir, vətəndaş həmrəyliyini, xalq-hakimiyyət birliyini möhkəmləndirir, siyasi sabitlik və təhlükəsizlik mühitini möhkəmləndirir. Nəticədə daxili siyasətin davamı kimi xarici siyasət istiqamətində də Azərbaycanın addımları daha dayanıqlı və ardıcıl xarakter daşıyır.

Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 2023-cü il tarixli sərəncamı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi və seçkinin 2024-cü ilin 7 fevralına təyin olunması ölkə həyatında məhz yeni bir tarixin başlanğıcıdır. Bu sərəncamın imzalanmasından sonra müxtəlif dairələrdə müzakirə edilən əsas sual ölkəmizdə növbədənkənar seçkilərin keçirilməsini aktual edən səbəblərdir.

### Davamlı inkişaf xətti

Əgər Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyət rəhbərliyinə qayıdaraq ölkənin gələcək taleyinə görə məsuliyyəti öz üzərinə götürdüyü tarixi günlərdən bəri Azərbaycanda keçirilən prezident seçkiləri arasındakı məntiqi ardıcıllığı, davamlı inkişaf xəttini nəzərə alsaq, hər seçki arasındakı dövrün dövlətimizin milli hədəflərinə doğru böyük bir tarixi mərhələyə çevrildiyini görərik.

Bu mərhələlərin hər birində konkret strateji vəzifələr müəyyənləşdirilmiş, onların uğurlu icrası niyyətilə çoxşaxəli layihələr həyata keçirilmiş, mühüm nəticələr əldə olunmuşdur. Məhz bu mərhələlərdə görülən işlər sayəsində Azərbaycanda ictimai-siyasi sabitlik təmin edilmiş, demokratik, hüquqi dövlət quruculuğu prosesləri öz məqsədinə çatmış, keçid dövrünün aktuallaşdırdığı islahatlar əzmlə həyata keçirilmiş, yeni neft və iqtisadi strategiyanın nailiyyətləri sayəsində Azərbaycanın iqtisadi həyatı yenidən qurularaq, yüksək dinamizmlə dirçəlmiş, inkişaf etdirilmişdir.

2003-cü ilə qədər qurulmuş möhkəm təməllər üzərində Azərbaycan Prezidenti İlham Əliyev yeni strateji dövrlərdə dövlətimizi tarixinin ən böyük uğurlarına yetirmiş, ölkəmiz bütün meyarlar üzrə ən qüdrətli çağlarına gəlib çatmışdır.

Respublikada bir çox sosial problemlər, demək olar ki, aradan qalxmış, regionların tarazlı inkişafı təmin edilmiş, ölkə boyu sosial infrastruktur yeniləndirilmişdir. Bu dövrlərdə Azərbaycan həyata keçirilən qlobal layihələrlə, beynəlxalq proseslərə getdikcə artan təsir imkanları ilə regionun lider dövlətinə çevrilmiş, xarici əlaqələri daha da genişlənmişdir. Ölkəmizdə iqtisadi inkişaf və demokratikləşmə prosesləri paralel aparılmış, cəmiyyətdə yeni siyasi mədəniyyət formalaşmış, dövlətçilik ənənələri daha da inkişaf etdirilmiş, vətəndaş məsuliyyəti güclənmiş, milli vəhdət sarsılmaz xarakter almışdır.

### Milli hədəflərə doğru addım-addım

Azərbaycanın iqtisadi nailiyyətləri, maddi imkanları dövlətimizin müdafiə potensialını da gücləndirmişdir. Ölkəmiz getdikcə öz müdafiə qabiliyyətini artırmış, hərbi cəhətdən güclənmiş, qabaqcıl təcrübə və texnologiyalara yiyələnmiş, gənclərimizin hərbi sahəyə marağı artmış, Azərbaycan Ordusu bir neçə mərhələdə həyata keçirilən ardıcıl islahatlarla dünyanın ən qabaqcıl silahlı qüvvələri sırasında qərarlaşmışdır.

Azərbaycan Prezidentinin uğurla həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət kursu, dövlətimizin təşəbbüskarı və əsas iştirakçılarından olduğu qlobal layihələrin heç kimin maraqlarına toxunmadan bütün tərəflərlə qarşılıqlı faydalar yaratması, ölkəmizin dünya üçün artan əhəmiyyəti, respublikamızın hər zaman gərginliklərin, ixtilafların, müharibələrin deyil, sülhün, inkişafın, insanın firavan yaşayışının, xoşbəxtliyinin tərəfini tutması diplomatiyamızın da uğurlarına xidmət etmişdir. Ayrı-ayrı mərhələlər üzrə ölkə həqiqətlərinin dünyaya çatdırılması istiqamətində ardıcıl iş aparılmış, dövlətimiz Ermənistanın vətənimizə qarşı hərbi təcavüzünü hüquqi cəhətdən faktlaşdıran sənədlərin, qərar və qətnamələrin beynəlxalq platformalarda qəbuluna nail olmuşdur. Beləliklə, düşmən ölkənin təxminən 30 il ərzində işğal altında saxladığı torpaqlarımızın beynəlxalq hüququn yaratdığı imkanlar çərçivəsində - istər sülh yolu ilə, istərsə də hərbi yolla azad edilməsi üçün qanuni əsaslar sənədlərlə təsbit edilmişdir.

### Birnömrəli vəzifə

Bütün bunlar təbii ki, asanlıqla başa gəlməmişdir. Bu xəttin, ardıcıllığın qorunması üçün zaman-zaman həm daxildən, həm də xaricdən qaynaqlanan nə qədər təhlükəli irticanın, təxribatın və digər anti-Azərbaycan aksiyalarının qarşısı alınmış, çətinliklər, təhdidlər dəf edilmişdir.

Bir faktı da qeyd edək ki, torpaqlarımızın azadlığı məsələsi hər prezident seçkisindən növbətisinə qədər olan müddətdə qarşıya qoyulmuş vəzifələrin ən mühümü olmuşdur. Qarabağ problemi müstəqillik illərində Azərbaycan rəhbərliyi qarşısında mühüm problem idi və bu, digər sahələrdəki inkişaf proseslərinə də müəyyən təsirini göstərirdi. Eyni zamanda müxtəlif sahələrdə həyata keçirilən inkişaf layihələrinin birbaşa hədəfləri ilə yanaşı, bir mühüm hədəfi də məhz Qarabağ probleminin həllini hansısa şəkildə yaxınlaşdırmaq idi.

Bu problem bizə keçmişin ən ağır mirası kimi qalmışdı. 1988-ci ildən ermənilərin Dağlıq Qarabağda başladıqları avantürist millətçi separatizmin qarşısı Azərbaycan rəhbərliyinin qətiyyətsizliyi üzündən vaxtında alınmadığından, 1990-1993-cü illərdə isə respublikamızda yaranmış siyasi və hakimiyyət böhranı, idarəçilikdə səriştəsizlik və qarmaqarışıqlıq üzündən bu problem belə çıxılmaz duruma gəlib çatmışdır. Ermənilərin işğalçılıq siyasəti nəticəsində torpağını itirmiş qaçqın və köçkünlərin öz yerlərinə qaytarılması, işğal altındakı yurdlarımızın bərpası, o ərazilərin də potensialından, resurslarından ölkəmizin ümumi inkişafı üçün istifadə, ən önəmlisi isə müstəqilliyini əldə etmiş ölkəmizin suverenliyinin tam bərpası birnömrəli hədəf kimi qarşıda dururdu.

### Tamamlayıcı mərhələ

Cənab İlham Əliyev 2003-cü ildə xalqımızın yekdil səsi ilə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra dövlətimizi addım-addım bu hədəfə yaxınlaşdırdı. Bir tərəfdən münaqişənin qan tökülmədən, hər iki tərəfdən insan itkilərinə yol vermədən beynəlxalq hüquq normalarına uyğun ədalətli qaydada həlli üçün ölkəmiz sülh danışıqlarına uzun illər sadiqlik nümayiş etdirdi. Hətta danışıqların ən ümidsiz vaxtlarında da yenə görüşlərdə iştirakdan, müzakirələrdən imtina etmədi. Amma buna paralel olaraq torpaqlarımızın hərb yolu ilə düşməndən təmizlənməsi, ərazi bütövlüyümüzün ordumuzun gücü ilə bərpasını da daim gündəmdə saxlayaraq buna lazımi hazırlıqlar apardı. Beləliklə, Prezident İlham Əliyev Ulu Öndərin ötən əsrin 90-cı illərinin ortalarından müəyyən etdiyi xəttin davamı kimi böyük bir tarixi proses formalaşdırdı. Xalqın dəstəyi, yekdil rəyi ilə hər seçkidə Azərbaycan Respublikasının Prezidenti seçilərək ölkəyə rəhbərliyini davam etdirdiyi müddətlərdə bu prosesi daha da genişləndirdi, əldə edilmiş nailiyyətləri qoruyaraq möhkəmləndirdi. Hər mərhələnin xarakterik vəzifələrini səbirlə, mahir strateq kimi dəqiq şəkildə yerinə yetirdi, hər addımı öz vaxtında, məqamında atdı.

2018-ci ilin aprel seçkisindən sonra isə dövlətimizin başçısı İlham Əliyev xalqımızın qarşısında duran ən mühüm problem - ərazi bütövlüyümüzün bərpası prosesinin son tamamlayıcı mərhələsinə start verdi. Dünyamızdakı, regionumuzdakı yeni reallıqlar, çağırışlar fonunda qısa zamanda ölkəmizin, xalqımızın bütün potensialını vahid məqsəd uğrunda səfərbər etdi və nəhayət, 2020-ci ilin 27 sentyabrında başlamış Vətən müharibəsini Azərbaycanın tarixi qələbəsi ilə başa çatdırdı. 2023-cü il sentyabrın 20-də həyata keçirilən 23 saatlıq lokal antiterror tədbirləri isə ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası prosesini tamamladı.

### Müstəqillik tariximizdə bir ilk

Artıq Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi. Bu möhtəşəm qələbə, uğur həm regionda, həm də ölkəmizdə yeni reallıqlar yaradıb. Müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq seçkilər bütün ölkə ərazisində keçiriləcəkdir. Bu seçkilər ərazi bütövlüyümüzün və suverenliyimizin təsbitidir. Ən mühümü isə seçkilərdən sonra Azərbaycan tarixində məzmunca yeni bir mərhələ başlanacaq. Həmin mərhələdə artıq Qarabağ problemi, Azərbaycanın ərazi bütövlüyü dərdi, qaçqın və məcburi köçkünlər qayğısı olmayacaq. Bu mərhələ Qarabağın, Şərqi Zəngəzurun dirçəlişi, inkişaf axarına qovuşması, ümumilikdə isə Azərbaycanın daha da qüdrətlənməsi, regionun lider dövləti kimi Cənubi Qafqazın əbədi sülh və inkişaf məkanına çevrilməsinə verdiyi tarixi töhfələrlə yadda qalacaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Seçkilərin nəticəsi 20 ilin uğurlarına söykənəcək

## Xalq Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, torpaqlarımızı işğaldan azad edən və erməni separatizminə son qoyan siyasətin davamına səs verəcək

*Əvvəli 1-ci səh.*

Bu illərdə Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında yüksəliş dövrünü yaşayıb, güclənib, qüdrətlənib, nüfuzunu artırıb. Heydər Əliyev siyasətini uğurla, yaradıcılıqla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın müstəqilliyini möhkəmləndirib, milli mənafelərimizi cəsarətlə və uğurla təmin edib, dövlətimizin yüksəlişi yolunda meydana çıxan bütün əngəlləri və maneələri qətiyyətlə aradan qaldırıb. İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı sürətli inkişaf yoluna çıxarmaqla bərabər, beynəlxalq mövqelərini əhəmiyyətli dərəcədə gücləndirib. Artıq uzun müddətdir ki, regionun lideri olan Azərbaycan qlobal məsələlərdə söz və nüfuz sahibidir.

2003-cü ilin oktyabrından ötən hər il Prezident İlham Əliyevin xalqa uğur hesabatıdır. Bu hesabatın hər bir səhifəsi məhz xalqımızın görmək istədiyi hadisələrlə əlamətdardır. Ona görə də ötən 20 ildə hər bir prezident seçkisinin nəticələri ilk növbədə onu təsdiq edib ki, İlham Əliyev Azərbaycan xalqının, seçicilərin güvəndiyi və inandığı, taleyini ona etibar etdiyi siyasətçi və liderdir. Ötən hər bir seçki təsdiq edib ki, cəmiyyətimiz Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən olunmuş strateji kursa, İlham Əliyev siyasətinə heç bir alternativ görmür. Çünki İlham Əliyev siyasəti Azərbaycanın yüksəlişi, intibahı, qüdrətli dövlətçilik və xalqımızın yüksək rifahı deməkdir.

### Zəfər seçkisi

Qeyd etdiyimiz kimi, növbəti prezident seçkiləri növbədənkənar seçkilər olacaq. Növbədənkənar seçkilərin keçirilməsi dünyada qəbul olunmuş siyasi təcrübədir. Növbəti seçkilər bəzi hallarda müəyyən səbəblərdən təxirə salınır, bəzi hallarda isə vaxtından əvvəl keçirilir. Seçkilər növbədənkənar keçiriləndə sadəcə seçicilər öz siyasi iradələrini vaxtından əvvəl ifadə edirlər. Azərbaycanın Seçki Məcəlləsi növbəti Prezident seçkilərinin keçirilməsi ilə növbədənkənar Prezident seçkilərinin keçirilməsi arasında hər hansı prosedur, yaxud müddət fərqi müəyyən etmir.

2018-ci ilin də prezident seçkiləri növbədənkənar keçirilmişdi. Həmin seçkilərdən sonra Azərbaycan növbəti uğurlara imza atdı. Ən böyük uğurumuz isə əlbəttə ki, torpaqlarımızın işğaldan azad edilməsi, bütün ərazilərimiz üzərində milli suverenliyimizin təmin olunmasıdır. Hələ 2003-cü ildə andiçmə mərasimində Prezident İlham Əliyev bununla bağlı demişdi: "Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

2020-ci ilin Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi, 2023-cü ilin sentyabrında isə Qarabağda erməni separatizminə son qoyulması cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin ən mühüm hadisələridir. Bu qələbələr son bir neçə əsrlik tariximizin ən böyük uğurları, dövlətçiliyimizin şərəf salnamələridir.

Torpaqlarımızın azadlığı və erməni separatizminə son qoyulması yeni reallıqlar yaradıb. Qarşıdan gələn prezident seçkiləri də bu reallıqlar şəraitində keçiriləcək. Belə ki, müstəqilliyimizin bərpasından sonra ilk dəfədir ki, seçkilər torpaqlarımızın tam azadlığı şəraitində baş tutacaq. Ona görə bu seçki də Zəfər seçkisi və ərazi bütövlüyümüzün və suverenliyimizin təsbiti kimi tarixə düşəcək.

Azərbaycan xalqı ötən 20 ildə əldə etdiyimiz bütün uğurlara özünün layiqli siyasi qiymətini verib. Bu mənada qarşıdan gələn növbədənkənar prezident seçkilərində də xalqımız öz müzəffər liderinin, bu gün Qarabağa və Şərqi Zəngəzura yeni həyat bəxş edən rəhbərinin yanında olacaq. Bu seçkilər bir daha Prezident İlham Əliyevin xalqın siyasi dəstəyinə əminliyinin ən bariz göstəricisi kimi tarixə düşəcək.

Bütövlükdə, seçkilərin nəticəsi ötən 20 ilin uğurlarına əsaslanacaq. Xalq Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, torpaqlarımızı işğaldan azad edən, erməni soyqırımına son qoyan siyasətin davamına səs verəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Xalqla Prezident arasında sarsılmaz birlik mövcuddur

"Prezident İlham Əliyevin 2024-cü il fevralın 7-də növbədənkənar prezident seçkilərinin keçirilməsi haqqında sərəncamı Azərbaycanın milli maraqlarından, mövcud tarixi və siyasi zərurətdən qaynaqlanır. Bu gün nəinki Azərbaycanda, o cümlədən dünyada hər kəs çox yaxşı bilir ki, Qarabağı işğaldan azad edən və Vətəni bütövləşdirən Prezident İlham Əliyevin siyasi çəkisi və nüfuzu, ona olan xalq məhəbbəti və dəstəyi bütün dünya liderlərinin qibtə edəcəyi qədər yüksəkdədir".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Azay Quliyev deyib. Deputat bildirib ki, mövcud siyasi və mənəvi mühit Azərbaycan Liderinin heç kimdən və heç nədən asılı olmadan qarşısına qoyduğu strateji hədəflərə daha qətiyyətlə çatmaq və bu yolda ona mane olmaq istəyənlərin, milli maraqlarımıza təhlükə törədənlərin qarşısını əzmlə almaq üçün lazımi qərarları vaxtında və gecikmədən verməsinə imkan yaradır. Növbədənkənar prezident seçkilərinin təyin olunmasına məhz bu kontekstdən yanaşmaq lazımdır.

Azay Quliyev qeyd edib ki, bu qərarın verilməsində məqsəd regionda və dünyada baş verən geosiyasi dalğalanmalardan və real təhlükələrdən Azərbaycanı etibarlı şəkildə qorumaq, ölkənin siyasi, iqtisadi və idarəetmə sistemində nəzərdə tutulan köklü dəyişiklikləri dövrün tələblərinə uyğun həyata keçirmək, ölkəmizin gələcək inkişafını və rəqabət imkanlarını gücləndirmək, o cümlədən dövlətimizə qarşı açıq şəkildə hazırlanan məkrli planların qarşısını vaxtında almaqdır.

Deputatın sözlərinə görə, xalqımız əmindir ki, Prezident İlham Əliyevin 2020-ci il sentyabrın 27-də əks-hücuma keçmək, 10 noyabrda müharibəni qələbə ilə başa çatdırmaq, 23 aprel 2023-cü ildə Laçında dövlət sərhəd keçid məntəqəsini yaratmaq və bu ilin 19-20 sentyabrında Qarabağda separatçılığa son qoymaq və suverenliyimizi bərpa etmək haqqında verdiyi taleyüklü qərarlar və onların tarixi nəticələri kimi 7 fevral 2024-cü ildə növbədənkənar prezident seçkilərinin keçirilməsi haqqındakı qərarı da eyni xarakterlidir. Bütün qərarlar əldə etdiyimiz qələbələri daha da möhkəmləndirməyə xidmət edir.

Azay Quliyev deyib ki, bəzi siyasilərin prezident seçkilərinin erkən keçirilməsi haqqında söylədikləri tənqidi fikirlərə gəlincə, əminliklə deyə bilərik ki, bunu heç kim ciddi və əsaslı qəbul etmir: "Xalqla Prezident arasında mövcud olan sarsılmaz birliyə müdaxilə etmək və İlham Əliyevlə rəqabət aparmaq mümkün deyil. Bu baxımdan seçkilərin nə vaxt elan olunması və nə vaxt keçirilməsi bu reallığı dəyişmir. Həmçinin siyasi partiyalar üçün seçkilərlə bağlı vaxt anlayışı olmur və olmamlıdır".

Azay Quliyev vurğulayıb ki, Prezident İlham Əliyevin uğurlarını və qələbələrini heç zaman həzm edə bilməyən marginalların və onların xaricdəki təlimatçılarının nöbvədənkənar seçkilərə indidən kölgə salmaq cəhdlərinə isə ümumiyyətlə, əhəmiyyət vermək lazım deyil, çünki milli nankorlar heç zaman millətin yanında olmayıblar və bundan sonra da olmayacaqlar: "Əminəm ki, Vətən müharibəsində olduğu kimi, hər bir vətəndaşımız bu seçkilərdə də fəal iştirak edəcək, qalib və bütöv Azərbaycanın gələcəyi naminə üzərinə düşən vəzifəni layiqincə yerinə yetirəcək".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Qlobal nüfuz, yüksələn etimad

## Azərbaycanın COP-29-a evsahibliyi BMT TŞ-yə üzvlükdən və Qoşulmama Hərəkatına sədrlikdən sonra xarici siyasətimizin ən böyük uğurudur

**Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP-29) ev sahibi seçilməsi, əlbəttə ki, ilk növbədə ölkəmizin beynəlxalq nüfuzunun göstəricisidir.**



Bu, Qoşulmama Hərəkatına sədrliyimizdən və BMT Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı - COP Konvensiyasının ali qərar qəbul edən orqanıdır. Katibliyi Bonnda yerləşir. Hər il dünyanın hər yerindən hökumət nümayəndələri COP-da toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək üçün çağırışlar edirlər. COP-un ilk toplantısı 1995-ci ildə Berlin şəhərində keçirilib. 1990-cı illərin ortalarından başlayaraq sözügedən konfrans çərçivəsində inkişaf etmiş ölkələrdə istixana qazlarının atmosferə tullantılarının məhdudlaşdırılması ilə bağlı icbari hüquqi öhdəlikləri ehtiva edən Kioto Protokolu müzakirə olunmuşdu. 2011-2015-ci illərdə keçirilən sessiyalarda iqlim dəyişikliyi ilə mübarizədə ən əhəmiyyətli beynəlxalq sənəd hesab olunan Paris Sazişi müzakirə edilib və 2015-ci ildə qəbul olunub. Bu günədək 198 ölkə, o cümlədən Azərbaycan bu razılaşmaya qoşulub.

Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir.

Prezident İlham Əliyev ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "Yaşıl enerji" zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

Beləliklə, gələn ilin noyabrında keçiriləcək məhz bu platforma vasitəsilə konvensiyaya qoşulan 198 ölkə ilə iqlim danışıqları aparılacaq.

İlham Əliyev bu diplomatik uğuru rəsmi sosial şəbəkə hesablarında etdiyi paylaşımda çox yüksək dəyərləndirib. Dövlət başçısı qeyd edib ki, Azərbaycan iqlim dəyişikliklərinə qarşı qlobal mübarizəni sistemli olaraq dəstəkləyir və enerji səmərəliliyi ilə bağlı tədbirlər görür. Təmiz ətraf mühit və yaşıl inkişaf milli prioritetlərimizdəndir. Bərpaolunan enerji Azərbaycanda geniş vüsət almağa başlayır: "BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP-29) 2024-cü ildə evsahibliyi etməyimiz iqlim dəyişikliklərinə qarşı mübarizə üzrə qlobal səylərə öz töhfəmizi vermək qətiyyətimizdən irəli gəlir. Azərbaycanın namizədliyinə verilən dəyərli dəstəyə görə bütün ölkələrə səmimi təşəkkürümü bildirirəm". Prezident COP-29 sessiyasının uğurlu hadisəyə çevrilməsi üçün Azərbaycanın əlindən gələni edəcəyini də vurğulayıb.

İndidən proqnozlaşdırmaq olar ki, Azərbaycan COP-29-a uğurla evsahibliyi edəcək. Çünki Azərbaycanda olan infrastruktur, habelə rəsmi Bakının beynəlxalq tədbirlərin keçirilməsi ilə bağlı təcrübəsi COP-29-a da uğurla evsahibliyi edəcəyinə şübhə yeri qoymur.

Son illərdə Azərbaycan dünyanı narahat edən qlobal məsələlərin müzakirə edildiyi bir məkana çevrilib. BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərindən olan iqlim dəyişikliyi ilə mübarizə də bu məsələlərdən biridir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın nəinki regionda, bütünlüklə dünyada nüfuzu durmadan artır. Azərbaycan öz imkanlarını və potensialını çoxdan sübut edib. Bunu təkcə biz yox, beynəlxalq ekspertlər, siyasətçilər də etiraf edirlər. Son günlərdə ölkəmizin COP29-a evsahibliyi ilə bağlı müxtəlif ekspertlərin səsləndirdiyi fikirlər də bunu deməyə əsas verir. Məsələn, ukraynalı ekspert, siyasi elmlər namizədi, politoloq Oleksiy Buryaçenko deyir ki, bu, Azərbaycan diplomatiyasının növbəti qələbəsidir. Həm Bolqarıstanla, həm də Ermənistanla razılığa gəlinməsinə müvəffəq olunması böyük siyasi uğurdur: "Bolqarıstan Azərbaycanın xeyrinə ərizəsini geri götürdü. Bundan sonra, doğrudan da, diplomatik sıçrayış baş verdi. Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması nəticəsində Ermənistan da öz ərizəsini Azərbaycanın xeyrinə geri götürdü. Bu, geosiyasi əhəmiyyət kəsb edən hadisədir". Onun sözlərinə görə, Azərbaycanın işi asan olmayacaq, çünki adətən bu cür nüfuzlu beynəlxalq tədbirlərə bir il ərzində elə hazırlaşmaq lazımdır ki, çoxlu sayda nümayəndələr iştirak edə bilsin. Amma ekspert Azərbaycanın bu işin öhdəsindən gələcəyinə əmindir. Çünki Azərbaycanın belə bir mötəbər tədbirin ən yüksək səviyyədə keçirilməsi üçün bütün resursları, imkanları var. Ölkəmiz qlobal xarakterli mötəbər tədbirləri yüksək səviyyədə təşkil etmək bacarığını dəfələrlə nümayiş etdirib. Yüksək inkişaf göstəricilərinə nail olan Azərbaycanın belə nəhəng tədbirləri təşkil etmək üçün müasir infrastruktura malik və təhlükəsizlik baxımından sabit ölkə olması dünya ictimaiyyətinə məlumdur.

Əminliklə deyə bilərik ki, Azərbaycan COP-29-a da uğurla evsahibliyi edəcək və ölkəmizdə keçiriləcək tədbir qlobal iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verəcək xüsusi hadisələr və təşəbbüslərlə yadda qalacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Elm və təhsil naziri BMU-nun yeni tədris korpusu və laboratoriyaları ilə tanış olub

Elm və təhsil naziri Emin Əmrullayev Bakı Mühəndislik Universitetinin (BMU) yeni istifadəyə verilmiş tədris korpusu, burada yerləşən laboratoriyalar və universitetin Texnoparkı ilə tanış olub.





BMU-nun rektoru Yaqub Piriyev təhsil müəssisəsinin maddi-texniki bazası, elmi-tədqiqat fəaliyyəti barədə zəruri informasiyaları diqqətə çatdırıb. Rektor tədqiqatların səmərəli təşkili, texnoloji yeniliklərin mənimsənilməsi və tətbiqi məqsədilə araşdırmaların həyata keçirilməsi üçün mövcud ekosistem, universitet Texnoparkının fəaliyyətinin gücləndirilməsi, eləcə də nəzərdə tutulan hədəflər barədə naziri məlumatlandırıb.

Sonra nazir geniş maddi-texniki bazaya, müasir tələblərə cavab verən elmi-tədqiqat və tədris laboratoriyalarına, eyni zamanda tələbələrin əl işlərindən ibarət sərgiyə baxış keçirib. Universitet tələbələrinin müxtəlif yarışmalarda qazandığı nailiyyətlərlə tanış olan nazirə həyata keçiriləcək yeniliklər, gələcəkdə icrası nəzərdə tutulan layihələr haqqında məlumatlar təqdim olunub.

BMU-nun Texnoparkına da baş çəkən Emin Əmrullayev ümumilikdə tələbələrə geniş araşdırma imkanları yaradan laboratoriyaların fəaliyyətindən məmnunluğunu bildirib. Ali təhsil ocağının rektor və professor-müəllim heyəti ilə söhbət aparan nazir ali təhsilin bütün səviyyələri üzrə mühəndis kadrlarının hazırlığını, fundamental və tətbiqi elmi-tədqiqatlar aparan qabaqcıl ali təhsil müəssisəsinin qarşısında duran vəzifələri qeyd edib. Ali təhsilin inkişaf prioritetlərinə uyğun olaraq universitetdə tədris və təhsilin keyfiyyətinin daha da yüksəldilməsi, yeni ixtisasların açılması, infrastrukturun gücləndirilməsi məsələləri nəzərdən keçirilib.

BMU-nun daha da inkişaf edəcəyinə inamını vurğulayan nazir kollektivə uğurlar arzulayıb.

***"Azərbaycan"***

# Bakı beynəlxalq tədbirlərin təcrübəli ev sahibinə çevrilib



Bakı gələn il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP-29) evsahibliyi edəcək. 1995-ci ildən hər il keçirilən bu konfransın məqsədi dünyada iqlim dəyişikliyi ilə mübarizədə irəliləyişləri qiymətləndirməkdir.

Bu mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Azər Badamov deyib ki, Azərbaycan BMT-nin qlobal iqlim dəyişiklikləri ilə bağlı təşəbbüsünə qoşularaq könüllü şəkildə öhdəlik götürüb: "Ölkəmiz istilik effekti yaradan qazların azaldılması və istehsal olunan elektrik enerjisinin 30 faizinin 2030-cu ilə qədər bərpaolunan enerjiyə çevrilməsi ilə bağlı öhdəliyi icra edir. Ümumiyyətlə, istilik effekti yaradan qazların həcminin 2030-cu ilədək 35 faizə qədər, 2050-ci ilədək isə 40 faizə qədər azaldılması planlaşdırılıb. Həmçinin üç il əvvəl erməni işğalından azad olunmuş ərazilərimizdə bərpaolunan enerji resurslarından səmərəli istifadə olunması istiqamətində də böyük layihələr icra olunur".

Deputat deyib ki, Azərbaycanın bərpaolunan enerji sahəsində təcrübəli beynəlxalq şirkətlərlə sazişlər bağlaması mövcud sahədə inkişafımıza daha da təkan verir: "Bu istiqamətdə görülən işlərin təzahürü kimi Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə əldə olunmuş razılaşmaya əsasən, Qaradağda istifadəyə verilmiş günəş elektrik stansiyasını misal göstərmək olar. Həmçinin Azərbaycan, Gürcüstan, Rumınıya və Macarıstan arasında imzalanmış razılaşmaya əsasən, ölkəmizdə istehsal olunacaq "yaşıl enerji"nin Avropaya nəql edilməsi üçün Qara dənizin dibi vasitəsilə yeni "yaşıl enerji" dəhlizi marşrutunun yaradılması istiqamətində işlər də davam etdirilir. Bu da ölkəmizdə enerji istehsalı sahəsində böyük həcmdə qaza qənaət olunmasına xidmət edəcək və Avropaya daha çox qaz ixrac etməyimizə imkan yaradacaq. Habelə, Azərbaycandan Avropaya daha böyük həcmdə bərpaolunan enerji və qaz daxil olduqca orada da istilik effektli qazlar yaradan kömürdən istifadə azalacaq".

Azər Badamov vurğulayıb ki, ölkəmizin qlobal iqlim dəyişiklikləri ilə mübarizəyə daha çox töhfə vermək potensialı var. Ona görə də COP-29-un Azərbaycanda keçirilməsi doğru qərardır. Bakının belə mötəbər konfransa evsahibliyi etməsi ölkəmizin bərpaolunan enerji potensialının beynəlxalq səviyyədə daha yaxşı təbliğinə imkan verəcək. Bu da yeni investisiyaların ölkəmizə gəlişinə şərait yaradacaq. Həm də dünya ictimaiyyəti Azərbaycanı daha yaxından tanıya biləcək. Bütün bunlar ölkəmizin iqtisadi inkişafını sürətləndirəcək.

Deputatın sözlərinə görə, Azərbaycanın beynəlxalq tədbirlərə evsahibliyi etməklə bağlı zəngin təcrübəsi var: "Azərbaycan Avropa və İslam Həmrəyliyi oyunlarına, həmçinin Qoşulmama Hərəkatına, digər beynəlxalq forum və tədbirlərə evsahibliyi edib. Ölkəmiz COP-29 konfransını da yüksək səviyyədə təşkil etməklə növbəti dəfə qlobal əhəmiyyətli mühüm tədbirin ünvanına çevriləcək. Xüsusi qeyd etmək lazımdır ki, Azərbaycan belə konfransalara evsahibliyi etməklə etibarlı tərəfdaş və beynəlxalq ictimaiyyətin ləyaqətli üzvü olduğunu təsdiqləyir".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Azərbaycan Könüllülərinin VI Həmrəylik Forumu keçirilib

**Dekabrın 13-də Bakı Konqres Mərkəzində Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunan və ölkədə fəaliyyət göstərən 3 minə yaxın Azərbaycan könüllüsünü bir araya toplayan Azərbaycan Könüllülərinin VI Həmrəylik Forumu keçirilib. Forum Azərbaycan Respublikasının Gənclər Fondu, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, "ASAN xidmət"in təşkilati dəstəyi və Azərbaycan Könüllü Təşkilatları İttifaqının (AKTİ) təşkilatçılığı ilə 5-19 dekabr tarixlərində keçirilən "Azərbaycan Könüllülük Həftəsi 2023" çərçivəsində təşkil olunub.**




AZƏRTAC xəbər verir ki, forumda Prezident Administrasiyası Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri, Birinci vitse-prezidentin köməkçisi Yusuf Məmmədəliyev, gənclər və idman naziri Fərid Qayıbov, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, fövqəladə hallar nazirinin müavini Etibar Mirzəyev, Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Qədir Xəlilov, Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması sədrinin müavini Hikmət Babaoğlu, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva və digər rəsmi şəxslər iştirak ediblər.

Könüllülərin il ərzində göstərdikləri nəcib fəaliyyətləri diqqət mərkəzində saxlamaq və onlara təşəkkür etmək məqsədilə təşkil edilən forum Karyera Sərgisi ilə başlayıb. Sərgi zamanı könüllülər 40-a yaxın müxtəlif yerli və xarici şirkətlərin iş imkanları barədə ətraflı məlumat əldə ediblər.

Forumun rəsmi açılışında ilk öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, daha sonra Ulu Öndər Heydər Əliyevin və bütöv Azərbaycan uğrunda canından keçmiş qəhrəmanlarımızın əziz xatirəsi ehtiram və qürur hissi ilə yad edilib.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin forum iştirakçılarına müraciətinin səsləndirilməsi ilə rəsmi açılış hissəsinə start verilib. Müraciəti gənclər və idman naziri Fərid Qayıbov səsləndirib.

Daha sonra Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Qədir Xəlilov, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva, fövqəladə hallar nazirinin müavini Etibar Mirzəyev, Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması sədrinin müavini Hikmət Babaoğlu çıxış ediblər.

Natiqlər nəcib fəaliyyət olan könüllülüyün tarixindən, gənclərə faydasından danışıb, Ulu Öndər Heydər Əliyevin gənclərə ünvanladığı dəyərli tövsiyələrin Azərbaycan gənclərinin və könüllülərinin inkişafında hər zaman müstəsna əhəmiyyətə malik olduğunu diqqətə çatdırıblar. Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi dövründə yetişən gənclər, könüllülər Vətən müharibəsi dövründə böyük şücaət və qəhrəmanlıq göstərərək möhtəşəm Zəfərdə böyük pay sahibi olublar. Çıxışlar zamanı "Könüllülüyün inkişafında dövlət qurumlarının rolu", "Azərbaycanda könüllülük hərəkatının dəstəklənməsi və genişlənməsi", "Qardaş Türkiyədə təbii fəlakət zonasında könüllülərin fəaliyyəti", "Tarixi torpaqlarımıza Böyük qayıdışda könüllülərin rolu" və "Beynəlxalq Könüllülər Günü və qlobal çağırışlar" mövzuları ilə bağlı fikirlər bölüşülüb. Həmçinin rəsmilər bildiriblər ki, dövlət başçımız tərəfindən könüllülük fəaliyyətinin təşviqi üçün yaradılan geniş imkanların nəticəsi olaraq xüsusilə son illərdə ölkəmizdə bu hərəkat geniş vüsət alıb və gənclər xeyirxah əməllərin öncül iştirakçılarına çevrilərək həm dövlətimizin, həm də cəmiyyətimizin inkişafına öz töhfələrini veriblər.

Rəsmi çıxışlardan sonra Azərbaycan Könüllü Təşkilatları İttifaqının sədri Yusif Vəliyev tədbir iştirakçılarına ittifaqın illik fəaliyyəti barədə hesabat xarakterli məlumat verib. Qeyd edib ki, hər zaman olduğu kimi 2023-cü ildə də Prezident İlham Əliyevin könüllülüyün təşviqi və təbliği ilə bağlı müvafiq tapşırıqları və çağırışları əsas götürülərək həyata keçirilən fəaliyyətlər ölkənin 65 şəhər və rayonunu, eyni zamanda Azərbaycan gənclərinin həm müddət, həm də say baxımından mütəşəkkil formada xarici ölkədə humanitar yardım istiqamətində təşkil olunmuş ilk könüllü fəaliyyətini əhatə edib. Bununla yanaşı, ittifaqın sədri "Azərbaycan Könüllüləri 2023-cü ildə" adlı Hesabat Jurnalını və videoçarxını təqdim edərək cari il ərzində baş tutan 300-ə yaxın layihədə on minlərlə gəncin iştirak etdiyini xüsusi olaraq vurğulayıb.

Forum çərçivəsində Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə 100 Azərbaycan könüllüsü il ərzindəki fəal təşəbbüslərinə görə mükafatlandırılıblar. Mükafatlandırılan könüllülərin çıxışları ilə davam edən forumun gedişatında Azərbaycan könüllüləri adından Prezident İlham Əliyevə müraciət ünvanlanıb.

Yekunda Azərbaycan Könüllülərinin Himni səsləndirilib və forum iştirakçılarının xatirə fotosu çəkilib.

Qeyd edək ki, forum zamanı Ulu Öndər Heydər Əliyevə, o cümlədən könüllülərin müxtəlif dövrlərdə fəaliyyətinə həsr olunmuş videoçarxlar nümayiş etdirilib.

# *Prezident İlham ƏLİYEV:* "Bizim çox sabit siyasi sistemimiz var, xalqımızın çox güclü birliyi var"



**Azərbaycan Prezidenti İlham Əliyevin bütün müsahibə və çıxışları bir qayda olaraq həmişə istər yerli, istərsə də dünya KİV-ində böyük rezonans doğurur.**

Dövlət başçısının "Euronews" televiziyasına verdiyi son müsahibə də siyasi şərhçilər tərəfindən həm ölkə, həm də dünya mətbuatında geniş müzakirə olunur.

Müsahibədə Azərbaycanın dayanıqlı sülhə, əmin-amanlığa xidmət edən xarici siyasətindən də geniş söz açılmışdır. Müxbirin "Azərbaycan Şərq və Qərb arasında çox strateji-coğrafi mövqedə yerləşir. Beynəlxalq arenada ölkənin strategiyası nədən ibarətdir" sualına Prezident İlham Əliyevin cavabı belə olmuşdur: "Beynəlxalq arenada biz müstəqil siyasət yürütməyə davam edəcəyik. Biz dördüncü ildir ki, BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına sədrlik edirik. Bir çox üzv ölkənin - 120 üzv ölkənin ümumi rəyinə əsasən, Azərbaycan Qoşulmama Hərəkatına yeni ölçü və dinamika verməkdə önəmli rol oynayıb. Biz Qoşulmama Hərəkatının institusional inkişafı ilə bağlı çoxlu addımlar atdıq, parlament və gənclər platformalarını yaratdıq, qadınlar üçün platformanın yaradılması üzərində işlədik. Biz COVID pandemiyası məsələsi ilə bağlı çox fəal olmaqla 80-dən çox ölkəyə yardım etdik. Beləliklə, bizim Qoşulmama Hərəkatında sədrliyimiz bizə siyasətimizi, imkanlarımızı nümayiş etdirməyə şərait yaratdı və yeri gəlmişkən, bizim sədrliyimiz yekdil qərarla əlavə bir il uzadılıb. 120 ölkə, onların heç də hamısı bir-biri ilə yaxşı münasibətdə deyil, lakin Azərbaycana gəldikdə onların hamısı yekdilliklə bizi dəstəklədi. Beləliklə, bu, beynəlxalq dəstəyi ən yaxşı şəkildə nümayiş etdirir. Bəzən bəzi siyasətçilər beynəlxalq birlik haqqında danışdıqda onlar, ola bilsin ki, onlarla ölkəni nəzərdə tuturlar. Lakin beynəlxalq birlik 200-dən artıq ölkədən ibarətdir və bu ölkələrin əksəriyyəti Azərbaycanı dəstəkləyir. Bu, yalnız bir istiqamətdir".

Prezident İlham Əliyevin hər bir müsahibəsi, çıxışı həm də ölkəmizin gələcəyi ilə bağlı inkişafın aydın təsəvvürünü yaradır, uğurlara yönəlmiş iqtisadi və sosial istiqamətləri müəyyənləşdirir. Bu baxımdan Prezidentin "Euronews" televiziyasına müsahibəsi də istisna olmamışdır. Müsahibəsi zamanı dövlət başçısı çox aydın və qəti şəkildə bildirmişdir ki, Azərbaycanın daxilində risklər yoxdur: "Bizim çox sabit siyasi sistemimiz var, xalqımızın çox güclü birliyi var, xüsusilə işğal olunmuş ərazilərimizin azad edildiyi tarixi qələbədən sonra".

Dövlət başçısının müsahibəsindən də aydın göründüyü kimi, Azərbaycan müstəqil xarici və daxili siyasət yürütməyə qadir olan bir ölkədir. O da xüsusilə qeyd olunmalıdır ki, bu siyasət milli maraqlara əsaslanaraq yürüdülür. Bu siyasətin əsasında ölkəni qarşıdurma, yaxud rəqabət arenasına çevirməmək, dövləti mənfi xarici təsirlərdən və daxili işlərə müdaxilədən qorumaq dayanır. Azərbaycanı istənilən rəqabətdən, geosiyasi mübarizədən və ya böyük dövlətlərin toqquşmasından qorumaq üçün Prezident İlham Əliyev tərəfindən vaxtında zəruri və lazımi addımlar atılır. İllərdən bəri formalaşmış dövlət və dövlətçilik ənənələri göz bəbəyi kimi qorunur. Prezident "Euronews" televizisiyasına müsahibəsində bir daha Azərbaycanın siyasətində müstəqil olduğunu, xarici siyasətinin prinsiplərinin dəyişməz qaldığını təsdiqlədi. Dövlət başçısı bütün məsələlərdə Azərbaycanın ədalətə və beynəlxalq hüquq normalarına əsaslandığını, qarşılıqlı əlaqələrin dinamik inkişafında bu prinsiplərin rolunu və əhəmiyyətini bir daha açıqladı.

Müxbirin Azərbaycanın daxili və xarici siyasətlə bağlı verdiyi sualı Prezident İlham Əliyev belə cavablandırdı: "Siyasi inkişafa gəldikdə, burada da Azərbaycan müstəqil xarici və daxili siyasətə malik ölkədir və bu siyasəti milli maraqlara əsaslanaraq yürüdür. Əsas amillərdən biri ölkəni qarşıdurma, yaxud rəqabət arenasına çevirməməklə dövləti mənfi xarici təsirdən və daxili işlərə müdaxilədən qorumaqdır. Beləliklə, biz bu riskləri azaltmağı uğurla bacardıq. Bu səbəbdən bu gün Azərbaycan böyük beynəlxalq potensiala, müsbət beynəlxalq reputasiyaya malik ölkədir. Elə bir ölkə ki, son 20 ildə 300 milyard dollardan artıq sərmayə cəlb edə bilib".

Aparılmış müşahidələr sübut edir ki, dünyanın aparıcı dövlətlərinin mediası Azərbaycan gerçəkliklərini öyrənməyə, bilməyə və onları ictimailəşdirməyə böyük maraq göstərir. Bu maraq Azərbaycanla münasibətlərin möhkəmlənməsinə, bir çox sahələr üzrə əlaqələrin genişlənməsinə xidmət edir. Bütün bunlar isə Azərbaycanın daim artan gücündən, qüdrətindən və Azərbaycan Prezidentinin uğurla həyata keçirdiyi müstəqil xarici və daxili siyasətin uğurlarından xəbər verir. Dövlət başçısının jurnalistin mahiyyətində həm siyasi, həm də iqtisadi çalarlar olan suallarına verdiyi məntiqli, əsaslandırılmış cavablar Azərbaycan gerçəkliklərini tam reallığı ilə ifadə edir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Moskvada Ulu Öndər Heydər Əliyevin xatirə gecəsi keçirilib

Azərbaycanın Rusiyadakı səfirliyi Heydər Əliyev Fondunun Moskvadakı nümayəndəliyi ilə birlikdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş xatirə gecəsi təşkil edib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Milli Məclisin üzvləri, Rusiya Federasiyası Federasiya Şurasının və Dövlət Dumasının senatorları və deputatları, diplomatik nümayəndəliklərin rəhbərləri, Rusiyanın tanınmış ictimai xadimləri, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin əməkdaşları, Rusiya Azərbaycanlı Gənclər Təşkilatının fəalları və Azərbaycan diasporunun təmsilçiləri iştirak ediblər.



Tədbirin qonaqları Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi tərəfindən təşkil edilmiş fotosərgi ilə tanış olublar. Sərginin ekspozisiyasına Ulu Öndərin həyatının müxtəlif dövrlərinə və çoxşaxəli fəaliyyətinə həsr olunmuş 30-dan çox fotoşəkil daxil edilib.

Tədbiri açan Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu qeyd edib: "Heydər Əliyevin rolu və şəxsiyyətinin miqyası o qədər böyükdür ki, onun həyat yolu, fəlsəfəsi və Azərbaycan dövlətçiliyinin inkişafına misilsiz töhfəsi hələ uzun illər ərzində bir çox nəsillər tərəfindən öyrəniləcək".

Səfir daha sonra deyib: "Elə liderlər var ki, onların fəaliyyəti və şəxsiyyətinin miqyası cəmiyyətin inkişafına, ölkənin siyasi-iqtisadi kursuna və beynəlxalq arenada mövqeyinə böyük təsir edir və təkcə bir dövlətin sərhədləri hüdudlarına sığmır. Onlar öz xalqlarının tarixində mühüm rol oynayır, həmçinin dünya siyasətində də iz buraxırlar. Heydər Əliyev məhz belə bir şəxsiyyət olub. Onun ölkəmizin müstəqilliyinin bərqərar olmasında və möhkəmlənməsində müstəsna rolu var. Məhz onun fəaliyyəti sayəsində Azərbaycanda demokratik, hüquqi dövlət qurulub və hazırda uğurla inkişaf edir".

Diplomat Ümummilli Liderin xalqın tələbi ilə rəhbərliyə qayıtdıqdan sonra həyata keçirdiyi irimiqyaslı siyasi, hüquqi, sosial-iqtisadi islahatlardan, mədəniyyət və təhsil sahələrində dəyişikliklərdən bəhs edib.

Polad Bülbüloğlu vurğulayıb: "Bir mədəniyyət xadimi və uzun müddət Heydər Əliyevin rəhbərliyi altında çalışmış insan kimi deyə bilərəm ki, Ulu Öndər milli mədəniyyəti Azərbaycan xalqının sərvəti kimi qiymətləndirirdi. Mədəniyyətin müasir yüksək inkişaf səviyyəsi onun qiymətli ideyaları və real dəstəyi sayəsində mümkün oldu".

Səfirin sözlərinə görə, Azərbaycan-Rusiya əməkdaşlığı Heydər Əliyevin xarici siyasət strategiyasında xüsusi yer tuturdu. O qeyd edib: "Bu gün Azərbaycan və Rusiya regionda müttəfiqlik qarşılıqlı fəaliyyətini uğurla həyata keçirir, ölkələrimiz arasında münasibətlərin xarakteri isə həm Azərbaycan, həm də Rusiya tərəfindən yüksək qiymətləndirilir. Biz bu əməkdaşlığın əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu daim xatırlayırıq. Ulu Öndər Rusiya ilə dostluq və arzu edilən münasibətlərin formalaşması üzrə mühüm addımlar atıb".

Diplomat xüsusi olaraq vurğulayıb ki, bu il Rusiyada Heydər Əliyevin andan olmasının 100 illiyi geniş şəkildə qeyd olunub, ölkənin bir çox şəhərlərində Ulu Öndərin yubileyinə həsr olunmuş mühüm elmi-təhsil, mədəni, idman tədbirləri keçirilib.

Səfir Rusiya rəhbərliyinə, Dövlət Duması və Federasiya Şurasına, həmçinin TASS İnformasiya Agentliyinə Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbirlərin təşəbbüsçüləri olduğuna və onların təşkilinə görə təşəkkürünü bildirib.

Polad Bülbüloğlu qeyd edib ki, bu gün Heydər Əliyevin ideya və düşüncələri Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. O əlavə edib: "Yaxşı məlumdur ki, Ümummilli Liderin ən ümdə arzularından biri ölkəmizin işğal olunmuş ərazilərinin tam azad edilməsi, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin təmin olunması idi. O, dəfələrlə əminliklə deyirdi ki, işğal olunmuş ərazilərin azad ediləcəyi və xalqımızın öz əcdadlarının torpaqlarına qayıdacağı vaxt gələcək. Bütün dünya azərbaycanlılarının sevinc hissi ilə qarşıladığı hadisə - Prezident, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında rəşadətli Ordumuzun torpaqlarımızın çoxillik işğalına son qoyduğu gün gəlib çatdı. Onun Heydər Əliyevin 100 illiyinin qeyd edildiyi vaxtda baş verməsi xüsusilə əlamətdardır. Öz atasının layiqli davamçısı olan Prezident İlham Əliyev Ümummilli Liderin vəsiyyətini yerinə yetirdi və bu gün Azərbaycanın üçrəngli bayrağı böyük Zəfər nəticəsində azad edilmiş bütün Azərbaycan torpaqlarında qürurla dalğalanır".

Səfirin sözlərinə görə, ölkəmizin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəlişi hazırda Azərbaycan xalqının milli ideyasının mühüm tərkib hissəsidir. Azərbaycan Prezidentinin rəhbərliyi ilə azad edilmiş ərazilərin hamısında genişmiqyaslı tikinti-bərpa işləri aparılır.

Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin çıxışında qeyd edib ki, Rusiyada Heydər Əliyevin xatirəsini böyük səmimiyyət və ehtiramla yad edirlər. O bildirib: "Heydər Əlirza oğlunun şəxsiyyətinin miqyasını onun SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini vəzifəsində yerinə yetirdiyi vəzifələrin geniş tərkibi göstərir. Həmin vaxt onun nəzarəti altında 12 nazirlik var idi, Heydər Əliyev həmçinin maşınqayırma, ticarət, nəqliyyatın bütün növləri və rabitə, o cümlədən ən iri ümumittifaq infrastruktur layihəsi olan Baykal-Amur magistralı, mədəniyyət, təhsil, səhiyyə, yüngül sənaye kimi həyati əhəmiyyət kəsb edən sahələrə kuratorluq edirdi. Bütün bu strateji mühüm sahələrin kuratoru Heydər Əlirza oğlu idi və hamımız bilirik ki, həmin sahələrdə milyonlarla sovet insanları çalışırdı".

Diplomat vurğulayıb ki, Heydər Əliyev daim Rusiyanın böyük və səmimi dostu, Rusiya-Azərbaycan münasibətlərinin ardıcıl inkişafının tərəfdarı olub. O əlavə edib: "Biz Rusiyada Heydər Əliyevin xatirəsini daim qəlbimizdə və Rusiya-Azərbaycan müttəfiqlik və tərəfdaşlıq münasibətlərinin inkişafı üzrə fəaliyyətimizdə yaşadacağıq. Heydər Əliyevin simvolu olduğu bu münasibətlər çoxəsrlik ənənələrə və ortaq tarixə əsaslanır. O, ölkələrimiz və xalqlarımız üçün böyük birləşdirici rol oynayıb".

Tədbirdə TASS İnformasiya Agentliyi baş direktorunun birinci müavini, Rusiyanın Əməkdar jurnalisti Mixail Qusmanın lentə aldığı "Liderin ürəyi" sənədli filmi nümayiş etdirilib.

Filmin ərsəyə gəlməsindən bəhs edən Mixail Qusman qeyd edib: "Biz dahi insan haqqında olan bu filmi böyük sevgi ilə yaratdıq. Həmin vaxtlar Azərbaycanda yaşamış və mənim yaşıdlarım olan insanlar üçün bizim nəslin formalaşmasında Heydər Əlirza oğlunun obrazı, onun liderliyi çox mühüm idi, çünki bizim sosial cəhətdən təşəkkül tapmağımız onun vaxtında baş verib".

M.Qusman sonra tədbirdə iştirak edən Azərbaycanın Xalq artisti, Rusiyanın Böyük Teatrının solisti Elçin Əzizovdan filmdə səslənən mahnını ifa etməsini xahiş edib. Polad Bülbüloğlu royalın arxasına keçib, iştirakçıların gurultulu alqışları altında "Liderin ürəyi" mahnısını səsləndirib.

# Azərbaycan xalqının Ümummilli Liderinin xatirəsi Ankarada da anılıb

Ümummilli Lider Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə bağlı Ankarada da anım tədbiri təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Türkiyədəki səfirliyinin təşkilatçılığı ilə Bilkənd Universitetində keçirilən tədbirdə Azərbaycan və Türkiyədən çox sayda deputat, Türkiyənin dövlət rəsmiləri, hərbçilər, ziyalılar, tələbələr və mətbuat nümayəndələri iştirak ediblər.

Əvvəlcə Ulu Öndərin xatirəsi ehtiramla yad edilib, Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Sonra Ümummilli Liderin Azərbaycan dövlətçiliyinin qurulması və inkişafına göstərdiyi əvəzsiz xidmətlərindən bəhs edən qısa film nümayiş etdirilib.

Tədbirdə Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov çıxış edərək, həyatını xalqına həsr etmiş Ulu Öndərin müstəqil Azərbaycan dövlətinin qurucusu kimi rolundan danışıb.

Bilkənd Universitetinin rektoru professor Kürşad Aydoğan Heydər Əliyevin Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına verdiyi misilsiz töhfədən danışıb, rəhbərlik etdiyi bu ali təhsil müəssisəsində Ümummilli Liderin xatirəsinin əziz tutulduğunu vurğulayıb.

Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan və Türkiyə arasında parlamentlərarası əməkdaşlıq üzrə işçi qrupunun rəhbəri, deputat Əhliman Əmiraslanov çıxışında Ulu Öndərin Türk dünyası ölkələri arasında əməkdaşlığın genişləndirilməsinə verdiyi töhfəni vurğulayıb.

O, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin liderliyində əldə edilən şanlı Zəfərlə







Ümummilli Liderimizin ən böyük arzusu olan Azərbaycan torpaqlarının işğaldan azad edildiyini, Ulu Öndərin ruhunun şad olduğunu qeyd edib.

Türkiyə Böyük Millət Məclisinin Azərbaycanla dostluq qrupunun rəhbəri Şamil Ayrım çıxış edərək hazırkı müstəqil və qüdrətli Azərbaycanın Ümummilli Liderin ən böyük əsəri olduğunu ifadə edib.

Çıxışlarda Ulu Öndərimizin Bilkənd Universitetinin qurucusu olan İhsan Doğramacı ilə yaxın dostluq münasibətlərinə toxunularaq, anım gününün məhz bu ali təhsil müəssisəsində təşkil olunmasının əhəmiyyəti qeyd edilib.

Tədbir bədii hissə ilə davam etdirilib. Azərbaycanın Xalq artisti Azərinin ifasında Ulu Öndər Heydər Əliyevin sevdiyi əsərlər və Bilkənd Simfonik Orkestrinin ifasında Azərbaycanın, eləcə də dünya bəstəkarlarının əsərlərindən ibarət klassik musiqi nümunələri səslənib.

# Zaqrebdə Ulu Öndər Heydər Əliyevin büstünün açılış mərasimi olub

Dekabrın 12-də Azərbaycanın Xorvatiyadakı səfirliyinin binasında Ümummilli Lider Heydər Əliyevin büstünün açılış mərasimi keçirilib. Ağ mərmərdən hazırlanmış büstün müəllifi tanınmış heykəltaraş Nurəli Şahbazovdur. Tədbir çərçivəsində AZƏRTAC tərəfindən səfirliyə təqdim olunmuş Ümummilli Liderin həyat və fəaliyyətini əks etdirən fotolardan ibarət sərgi nümayiş olunub.



Mərasimdə Xorvatiyanın sabiq prezidentləri Stepan Mesiç və İvo Yosipoviç, Xorvatiya Parlamentinin sədr müavini Davorko Vidoviç və parlament üzvləri, Zaqrebdə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, Xorvatiyanın dövlət və ictimaiyyət nümayəndələri, ali təhsil müəssisələrinin rəhbərləri, bu ölkədə yaşayan azərbaycanlılar, həmçinin KİV nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycanın Xorvatiyadakı səfiri Anar İmanov Ulu Öndər Heydər Əliyevin xalqımızın qarşısında misilsiz xidmətlərindən bəhs edərək, onun müdrik siyasəti və uzaqgörənliyi sayəsində ölkəmizdə milli dövlətçilik ideyasının formalaşdığını, müasir və güclü Azərbaycan dövlətinin yaradıldığını, xalqımızın müstəqillik arzusunun gerçəkləşdiyini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Diplomat Ulu Öndərin Azərbaycanın müstəqilliyinin bərpasında, gücləndirilməsində və dövlətçiliyin qorunub saxlanılmasındakı rolu haqqında danışaraq, onun dövlətçiliyimizin çətin məqamında hakimiyyətə gəldiyini, çoxsaylı daxili və xarici çağırış və təhdidlərə baxmayaraq, müstəqilliyimizi xilas etdiyini, Ulu Öndərin tutduğu qətiyyətli mövqe, apardığı uğurlu siyasəti nəticəsində bu gün Azərbaycanın dünya miqyasında güclü dövlətə çevrildiyini və beynəlxalq aləmdə layiqli yer tutduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, ölkəmizin həqiqətən müstəqil və güclü bir dövlətə çevrilməsi, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası, ölkənin bugünkü sürətli iqtisadi inkişafı məhz Ulu Öndər tərəfindən zamanında atılmış addımların və verilmiş müdrik qərarların nəticəsində mümkün olub.

Səfir Ulu Öndər Heydər Əliyevin siyasi kursunun bu gün onun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayaraq, ölkəmizin müasir dövrdə əldə etdiyi çoxsaylı uğurlar və nailiyyətlər haqqında tədbir iştirakçılarına geniş məlumat verib.

Tədbirdə çıxış edən Xorvatiyanın sabiq Prezidenti Stepan Mesiç Heydər Əliyevi dünyaşöhrətli siyasi xadim kimi xarakterizə edərək, onun Azərbaycana rəhbərlik etdiyi dövrdə, milli və mənəvi dəyərlərə, adət-ənənələrə xüsusi önəm verdiyini, müasir Azərbaycanın indiki vəziyyətə gəlib çatmasında Heydər Əliyevin misilsiz xidmətləri olduğunu, Xorvatiya ilə Azərbaycan arasında diplomatik əlaqələrin məhz 1995-ci ilin yanvar ayında Prezident Heydər Əliyevin dövründə qurulduğunu vurğulayıb. Stepan Mesiç Ulu Öndərin müdrik və uzaqgörən idarəçiliyi sayəsində Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlətin qurulduğunu və bu gün beynəlxalq birliyin nüfuzlu və etibarlı tərəfdaşına çevrildiyini diqqətə çatdırıb.



# Yalnız Azərbaycanın qanunları ilə…

## Ermənistana üz tutmaqdan peşman olan ermənilərin ölkəmizə dönüşü üçün bundan başqa yolları yoxdur

Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən ardıcıl və məqsədyönlü siyasətin nəticəsidir ki, milli maraqlarımız təmin edilib, torpaqlarımız işğaldan azad olunub, bütün ərazilərimizdə bayrağımız dalğalandırılıb.

Ölkəmizin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində suverenliyini təmin edərək Qarabağın Azərbaycanın ərazisi olması həqiqətini bütün dünyaya, eləcə də Ermənistana etiraf etdirməsi qətiyyətimizin ən parlaq təzahürlərindəndir.

Bir zamanlar "Qarabağ Ermənistandır və nöqtə" deyən Ermənistan rəhbərləri indi "Qarabağ Azərbaycandır!" deyirlər, dünya ictimaiyyəti bu gerçəkliyi qəbul edir, beynəlxalq hüquq bu reallığı təsdiqləyir. Antiterror tədbirlərindən sonra ölkəmizdən könüllü şəkildə gedən erməniəsilli sakinlərin qayıtması da yalnız beynəlxalq hüququn tələb etdiyi normalarla mümkündür.

Dekabrın 9-da "Euronews"da yayımlanan müsahibəsində Prezident İlham Əliyev geri qayıtmaq üçün həmin insanların müəyyən qaydalara əməl etməli olduğunu vurğuladı: "Mən antiterror əməliyyatının keçirilməsindən bir neçə ay əvvəl demişdim ki, qalmaq istəyənlər Azərbaycan vətəndaşlığı üçün müraciət etməlidirlər. Çünki insanlar başqa ölkənin vətəndaşı olmaqla Azərbaycanda necə yaşaya bilərlər? Ya vətəndaşlıq, ya iş icazəsi, ya da yaşayış icazəsi olmalıdır".

### Humanizmdən doğan həssaslıq

Azərbaycan tolerant, multikultural ölkədir və yüz, min illiklərdir ölkəmizdə müxtəlif xalqlar, etnik azlıqlar, fərqli dillərə, dinlərə məxsus insanlar dostluq, mehribanlıq, sülh içərisində yaşayırlar. O da danılmaz gerçəklikdir ki, humanizm ünvanı Azərbaycanda 30 illik işğal dönəmində, eləcə də ondan sonrakı müddətdə ölkəmizdə yaşayan ermənilərə, sözün əsl mənasında, gözün üstündə qaşın var deyilməyib. Monoetnik Ermənistandan fərqli olaraq, dövlətimiz bütün xalqlara, dinlərə məxsus abidələri olduğu kimi, o cümlədən ermənilərin də dini, mədəni abidələrini qoruyur.

44 günlük müharibədən dərhal sonra Ermənistana sülh təklif edən Azərbaycan Qarabağda yaşayan erməni sakinlərin reinteqrasiyası istiqamətində praktik addımlar atıb və bu məsələdə qərarlı olduğunu əyani nümayiş etdirib.

Xüsusi vurğulayaq ki, 44 günlük müharibədə, eyni zamanda bu ilin sentyabrında keçirilən antiterror tədbirləri zamanı, nə mülki əhaliyə, nə də mülki obyektlərə heç bir zərər, ziyan vurulmayıb. Bu məsələdə dünyaya örnək olacaq humanizmdən doğan xüsusi həssaslıq nümayiş etdirilib.

Azərbaycan hökuməti antiterror tədbirlərindən sonra erməniəsilli sakinlərə çağırış edərək onları ölkəmizi tərk etməməyə çağırdı. Lakin separatçıların təzyiq və təhdidləri, eyni zamanda Ermənistanın və xarici qərəzli ölkələrin yalanlarına uymaları həmin sakinlərin əksəriyyətinin zamanında doğru qərar verə bilməməsinə və Qarabağdan getməsinə gətirib çıxardı.

### Qarabağ erməniləri qurbanlıq seçildilər

Azərbaycan hökumətinin onlara vəd etdiyi və həyata keçirdiyi təhlükəsiz, layiqli həyat şəraitindən imtina edərək Ermənistana üz tutan Qarabağ erməniləri böyük peşmançılıq içərisindədirlər. Onların şirnikləndirilərək ölkəmizi tərk etməyə sövq edilməsi sadəcə Ermənistana xarici ölkələrdən, donor təşkilatlardan pul almaq üçün, riyakar Qərb ölkələrinə isə Cənubi Qafqaza yerləşmələri üçün bir təzyiq vasitəsi kimi lazım idi. Və bu məkrli oyunda Qarabağ erməniləri qurban kimi seçildilər.

"Euronews"a müsahibəsində dövlət başçısı İlham Əliyev söylədi ki, ölkəmizi tərk etmək qərarı onların öz qərarı idi və indi əldə etdiyimiz məlumata əsasən, bu, dırnaqarası "dağlıq qarabağ respublikası"nın dırnaqarası "sabiq rəhbərləri"nin qəsdən etdiyi hərəkət idi: "Onlara oranı tərk etməyə ehtiyac yox idi, lakin onlar tərk etmək qərarını verdikdə biz onları dayandıra bilməzdik. Biz onlar oranı sülh şəraitində tərk etsinlər deyə, onlara maksimum dərəcədə rahat şərait yaratdıq".

Müsahibəsində azərbaycanlılara qarşı tam əksinin edildiyini, onların otuz il bundan əvvəl ya qətlə yetirildiyini, ya da deportasiya olunduğunu, işgəncələrə məruz qaldığını, həbs edildiyini və onların bəzilərinin yüksək dağlıq əraziləri aşmaq məcburiyyətində qalaraq həmin ərazilərdə donub öldüyünü diqqətə çatdıran dövlətimizin başçısı qeyd etdi ki, bütün bunlar sənədlərlə təsdiq edilib: "Qarabağ bölgəsinin ermənilərinin Ermənistana daxil olmaları da sənədləşdirilmişdir və hər şey humanitar standartlara əsasən edilmişdir. Lakin yenə də sizin suala gəldikdə deyə bilərəm ki, onlar qayıda bilərlər".

Ökəmizi könüllü tərk etmiş Qarabağ bölgəsinin ermənilərinin qayıdışı üçün hökumətimiz beynəlxalq hüquqa əsaslanan şərtlər irəli sürüb. Onlar mövcud elektron portalda qeydiyyatdan keçərək geri qayıtmaq, Azərbaycan vətəndaşlığını qəbul etmək istədiklərini bildirməlidirlər. Göründüyü kimi, bu hüquqi proses beynəlxalq norma və standartlara uyğun həyata keçirilir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Füzulililərin yurda dönüşü davam edir

Düşmən tapdağından azad edilən torpaqlarımızda bərpa-quruculuq işləri aparılır, kəndlər və şəhərlər yenidən qurulur.







Böyük qayıdış çərçivəsində ağalılılar, füzulililər, laçınlılar və talışlılar mərhələli olaraq əzəli torpaqlarına qovuşurlar. Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir.

İşğaldan azad edilmiş ərazilərimizə qayıdan ailələrin sayı gündən-günə artır. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, respublikanın müxtəlif ərazilərində yerləşən yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı dünən Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 25 ailə - 112 nəfər köçürülüb.

Oktyabrın 17-də Prezident İlham Əliyev Füzuli Şəhəri Günündə şəhərə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxış edərək Füzulinin indi tamamilə yenidən qurulduğunu, yaşayış məhəlləsinin salındığını, bir neçə önəmli obyektin təməlinin qoyulduğunu, burada yaşayan sakinlərin sayının da, təbii ki, getdikcə artacağını bildirib. Dövlət başçısı eyni zamanda ilin sonuna qədər Füzulidə, təqribən, 2 minə yaxın insanın yaşayacağı, 2026-cı ilin sonunda - Böyük Qayıdış Proqramının birinci mərhələsinin yekununda isə 22 min insanın bu şəhərdə məskunlaşacağının nəzərdə tutulduğunu vurğulayıb.

Bu günədək Füzuli şəhərində 358 ailənin, yəni 1298 nəfərin daimi məskunlaşması təmin edilib.

Doğma elinə qovuşduğu üçün sevinci çöhrəsindən oxunan keçmiş məcburi köçkün Cəmilə Quliyeva deyir ki, bu günün gələcəyinə həmişə inanıb. 30 il əvvəl doğma Füzuli rayonundan erməni hərbçiləri tərəfindən zorla çıxarılan həmvətənimiz qeyd edirb: "Bizə bu şərəfli günləri yaşadan Ali Baş Komandan İlham Əliyevə öz minnətdarlığımı bildirirəm. Qəhrəman şəhidlərimizə Allahdan rəhmət, məğrur qazilərimizə isə səbir və şəfa diləyirəm. Allaha çox şükürlər olsun ki, haqq-ədalət yerini tapdı, doğma yurd həsrətimiz sona yetdi. O vaxt ata-anamla Bakıya köçsəm də, indi öz ailəmlə doğma ata ocağıma qayıdıram. Sevincimizin həddi-hüdudu yoxdur".

Özü 1991-1995-ci illərdə Füzuli, Qubadlı, Zəngilan, Tərtər istiqamətində gedən döyüşlərdə, oğlu isə İkinci Qarabağ müharibəsində iştirak edən Füzuli sakini Rövşən Quliyev söyləyir ki, uzun illərdir Sumqayıt şəhərində yaşayır. Nəhayət ki, yurduna qovuşmağın sevincini yaşayır. Bütün məcburi köçkünlərin də onlar kimi doğma el-obalarına qayıtmağını səbirsizliklə gözləyir.

Ötən gün Füzuliyə qayıdan keçmiş məcburi köçkünlərdən biri də Güldəstə Nəsirovadır. Gənclik illərini Füzulidə keçirən, lakin erməni işğalı nəticəsində məcburən oradan çıxıb Bakıda məskunlaşan G.Nəsirova da doğma el-obasına qovuşmağın sevincini bölüşüb: "Bundan böyük sevinc hissi ola bilməz. Azərbaycanın hər diyarı bir sərvətdir, gözəl guşədir. Lakin Füzuli şəhəri mənim üçün hər yerdən əzizdir. Şəhidlərimizin qəhrəmanlıqları və qazilərimizin şücaəti sayəsində bu gün biz öz doğma elimizə, obamıza qayıdırıq".

Böyük qayıdış sürətlə davam edir, keçmiş məcburi köçkünlər yüksək sevinclə mərhələli şəkildə doğma yurdlarına qayıdırlar. Vətəndaşlarımızın xoşbəxtliyinin, qürurunun və güvəninin əsas səbəbkarı isə Müzəffər Ali Baş Komandanın iradəsi və rəşadətli Azərbaycan Ordusunun şücaətidir. Bu gün dövlətimizin başçısı bölgəmizdə düşmənçiliyə son qoyulması, qarşılıqlı etimada əsaslanan davamlı sülhə, dincliyə və əmin-amanlığa nail olunması uğrunda çalışır.

Xatırladaq ki, indiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 363 ailə (1389 nəfər) Laçın şəhərinə, 358 ailə (1298 nəfər) Füzuli şəhərinə, 121 ailə (475 nəfər) Laçın rayonunun Zabux kəndinə köçüb. Ümumilikdə 1037 ailə (4123 nəfər) keçmiş məcburi köçkün dədə-baba yurduna qovuşub.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# AYİB COP-29-un təşkil olunmasında Azərbaycana dəstək verməyə hazırdır

Avropa Yenidənqurma və İnkişaf Bankında (AYİB) Azərbaycandan müdir, iqtisadiyyat naziri Mikayıl Cabbarov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına səfəri çərçivəsində Londonda AYİB-in birinci vitse-prezidenti Yurgen Riqterink ilə görüşüb.



İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, iqtisadiyyat naziri Azərbaycanın bankla əlaqələrin inkişafına önəm verdiyini, AYİB-ə ölkəmizin iqtisadi inkişafına uzunmüddətli və davamlı dəstəyinə görə təşəkkürünü ifadə edib. Nazir ölkəmizin sosial-iqtisadi inkişaf prioritetlərinin qlobal məqsədlərə uyğunluğunu vurğulayaraq, qarşıya qoyulmuş hədəflərin reallaşdırılması üçün səylərin birləşdirilməsinin önəmini qeyd edib. Bildirilib ki, bu kontekstdə bankla "yaşıl" iqtisadiyyat, enerji, xüsusilə bərpaolunan və alternativ enerji, özəl sektorun inkişafı, infrastruktur və digər istiqamətlər üzrə prioritet layihələrin icrası məqsədilə atılacaq praktiki addımların müzakirəsi vacibdir.

Birinci vitse-prezident Yurgen Riqterink ikitərəfli əməkdaşlıq portfelinin mühüm məsələləri əhatə etdiyini və Azərbaycanın qlobal əhəmiyyətli təşəbbüslərinin tərəfdaşlığı stimullaşdırdığını diqqətə çatdırıb. Yurgen Riqterink BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP-29-un gələn il Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırıb, AYİB-in bu istiqamətdə Azərbaycana dəstək verməyə hazır olduğunu bildirib. Tərəflər bankla tərəfdaşlıq perspektivləri, bərpaolunan enerji, özəl sektorun dəstəklənməsi və informasiya texnologiyaları ekosisteminin təkmilləşdirilməsi sahəsində birgə fəaliyyətin genişləndirilməsi imkanlarını nəzərdən keçiriblər.

# Qərbi Azərbaycan İcması Avropa İttifaqını etnik ayrı-seçkilik siyasətinə son verməyə çağırıb

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel "Azadlıq" radiosunda 2023-cü il dekabrın 12-də yayımlanmış müsahibəsində etnik və dini əsasda ayrı-seçkiliyə yol verib. Azərbaycan və Ermənistan arasında münasibətlərdə milli azlıqlar məsələsi barədə danışan cənab Mişel etnik ermənilərin Azərbaycana qayıtmasından geniş danışdığı halda, Ermənistandan qovulmuş azərbaycanlıların qayıtması haqqında heç bir kəlmə deməyib.

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.

Qərbi Azərbaycan İcması xatırladıb ki, Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüququna dəstək vermək, onların orada qalmış evlərini, qəbiristanlıqlarını və mədəni abidələrini ziyarət etmələrinə yardım etmək xahişi ilə Avropa İttifaqına, o cümlədən şəxsən Şarl Mişelə dəfələrlə müraciətlər edib. Avropa İttifaqı qovulmuş azərbaycanlıların bu müraciətlərinə etinasız yanaşıb.

"Avropa İttifaqının bu cür ayrı-seçkili mövqeyi insan hüquqlarına zidd olmaqla bərabər, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesinə mənfi təsir göstərir.

Qərbi Azərbaycan İcması Avropa İttifaqını Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüququna dəstək ifadə etməyə, ikili standartlarına, etnik ayrı-seçkilik siyasətinə və Azərbaycanla Ermənistan arasında sülhün bərqərar olunmasına mane olan cəhdlərinə son verməyə çağırır", - deyə bəyanatda vurğulanıb.

# Azərbaycan və Ermənistan tərəfində saxlanılan hərbçilər qarşılıqlı şəkildə azad ediliblər

Azərbaycan və Ermənistan tərəfində saxlanılan hərbçilər qarşılıqlı şəkildə azad ediliblər.






Bu barədə Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından məlumat verilib.

Bildirilib ki, Azərbaycan tərəfində saxlanılan erməni hərbçilərinin Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən sağlamlıq durumları yoxlanılaraq qənaətbəxş hesab edildikdən sonra müvafiq razılaşmaya əsasən, dünən - 2023-cü il dekabrın 13-də Azərbaycan-Ermənistan sərhədinin Qazax rayonundan keçən hissəsində hərbi qulluqçuların qarşılıqlı şəkildə təhvil verilməsi həyata keçirilib.

Təhvilvermə prosesində hər hansı insident baş verməyib.

Xatırladaq ki, 2023-cü il dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında aparılmış danışıqların nəticəsində humanizm prinsipləri rəhbər tutularaq və qarşılıqlı etimad tədbiri kimi Azərbaycan tərəfindən 32 erməni hərbçinin, Ermənistan tərəfindən 2 azərbaycanlı hərbçinin azad edilməsi barədə razılıq əldə olunub.

# "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı qapılarını daha iki müəssisənin üzünə açıb

## Həmin müəssisələrdə minatəmizləyən texnikalar və tikinti materialları istehsal olunacaq



İşğaldan azad edilmiş ərazilərin dirçəldilməsi, Qarabağın və Şərqi Zəngəzurun sənaye potensialının işə salınması, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkili və əhalinin məşğulluğunun artırılması məqsədi ilə iki il əvvəl Cəbrayıl rayonu ərazisində "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb.

Ötən iki ildə ölkədə fəaliyyət göstərən digər sənaye parklarında olduğu kimi, burada da sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşıb.

Parkın əvvəlcədən müəyyən edilmiş prioritet istiqamətləri var. Bu istiqamətlər çərçivəsində logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması və icrası mərhələli şəkildə aparılır. Artıq topoqrafik planlama və mühəndis-geoloji tədqiqat işləri yekunlaşıb. Sahibkarların və işçilərin rahatlığının təmin edilməsi üçün sənaye parkında mobil şəhərciyin salınması işləri də başa çatıb. Şəhərcikdə yataqxana, yeməkxana, ofis, tibb məntəqəsi və aptek, market, qarışıq mallar mağazası, anbar, camaşırxana, bərbərxana, nəzarət-buraxılış məntəqəsi istifadəyə verilib, əraziyə asfalt yol çəkilib, abadlıq işləri görülüb, 630 kilovoltluq transformator məntəqəsi quraşdırılıb. Yeri gəlmişkən qeyd edək ki, parkın işıqlandırılmasında günəş enerjisindən qidalanan panellərdən istifadə edilir.

İndiyə kimi "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında 5 rezident və 1 qeyri-rezident olmaqla bir müəssisə - "Avto Lizinq Azərbaycan" MMC fəaliyyət göstərir. Digər rezidentlər tərəfindən hazırda sənaye parkında tikinti-quraşdırma işləri aparılır. Bir neçə müəssisənin də 2024-2025-ci illərdə istifadəyə verilməsi planlaşdırılmışdır.

İqtisadi Zonaların İnkişafı Agentliyindən verilən məlumata görə, parkda 2024-cü ildə 2 müəssisə fəaliyyətə başlayacaq. "İmprotex Qarabağ Sənaye Kompleksi" MMC parkın 5 hektar ərazisində minatəmizləyən, xüsusi təyinatlı texnika və metal məmulatların istehsalını həyata keçirəcək müəssisənin qurulması istiqamətində artıq işlərə başlayıb. Hazırda ərazidə planlama, qazma işləri görülür. Müəssisənin gələn ilin oktyabrında fəaliyyətə başlayacağı planlaşdırılır.

Xatırladaq ki, 32 ildir fəaliyyət göstərən "İmprotex" Şirkətlər Qrupu Azərbaycanda biznesin müxtəlif seqmentlərində uğurla fəaliyyət göstərir. İşğaldan azad olunmuş ərazilərin dirçəlişinə öz töhfəsini vermək məqsədi ilə şirkətlər qrupu "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında bu ilin may ayında "İmprotex Qarabağ Sənaye Kompleksi" MMC-nin təməlini qoyub. İnvestisiya həcmi 7,4 milyon manat olan sözügedən müəssisədə 124 nəfərin işlə təmin edilməsi nəzərdə tutulur. Burada 2 model minatəmizləyən texnika (piyada əleyhinə minatəmizləyən "Revival P" və Revival T" tank əleyhinə minatəmizləyən texnikalar) istehsal ediləcək. Üstəlik zavodda həmin texnikalara xidmət göstəriləcək. Nəzərdə tutulub ki, müəssisədə ildə 100 minatəmizləyən texnika istehsal olunsun. Texnikalar işğaldan azad olunmuş ərazilərdə istifadə edilməklə yanaşı, ixrac da ediləcək.

Sənaye Parkında gələn il fəaliyyət göstərəcək ikinci müəssisə "Holcim Azerbaijan" ASC-yə məxsus olacaq. ASC tərəfindən birinci mərhələdə həcmi 2 min ton olan sement terminalının istifadəyə verilməsi planlaşdırılır. İkinci mərhələdə isə şirkət tərəfindən əmtəə beton və quru yapışdırıcı istehsalını həyata keçirəcək zavod inşa ediləcək. İnvestisiya dəyəri 3,4 milyon manat olan müəssisədə 20-dən çox daimi iş yeri açılacaq. İstehsal ediləcək məhsullar daxili bazarda satılacaq.

Onu da qeyd edək ki, sənaye parkında ilk dəfə olaraq "Holcim Azerbaijan" ASC tərəfindən geobrick kərpiclərdən istifadəyə başlanılıb. Hazırda şirkət tərəfindən inzibati binanın tikintisində bu kərpiclərdən istifadə edilir. Növbəti mərhələdə sözügedən kərpiclərdən işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma işlərində geniş istifadə olunması nəzərdə tutulur. Yeri gəlmişkən, Azərbaycanda bu cür kərpic istehsal edən ilk müəssisə elə "Holcim Azerbaijan" ASC-yə məxsusdur.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Dünyanın əksər dövlətləri Azərbaycan həqiqətlərinə inanır

Çoxillik Qarabağ münaqişəsi zamanı Ermənistan işğal etdiyi ərazilərdə yalnız mülki evləri, infrastrukturu məhv etməklə kifayətlənməyib. Azərbaycanlılara aid tarixi-mədəni irsi məhv etmək də işğalçıların əsas hədəfi olub.





Erməni vandalizminin qurbanları siyahısında Xocalıdakı dolmenlər, Xankəndidəki kromlexlər, qədim albanlara məxsus abidələr - Qanzasar, Amaras məbədləri, islama aid abidələr - Ağdam Cümə məscidi, Hacı Ələsgər məscidi və digər ölkə, dünya əhəmiyyətli, tarixin müvafiq dövrlərinin ideologiyasını, mənəvi düşüncəsini əks etdirən abidələrin, maddi-mədəniyyət nişanələrinin adlarını çəkmək olar.

Azərbaycanın mədəni sərvətlərinin dağıdılması və mənimsənilməsi haqqında Milli Məclisin bəyanatında işğal edilmiş ərazilərdə 500 tarixi və 100-dən çox arxeoloji abidənin, 100 mindən çox eksponatın toplandığı 22 muzey və muzey filialının dağıdılması haqqında fakt var. Ərazilərimiz işğalda olduğu müddətdə 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 4 rəsm qalereyası, 4 teatr, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı erməni vandalizminin qurbanı olub.

2020-ci ilin payızında baş verən, Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə nəticələnən Vətən müharibəsi bitdikdən dərhal sonra Azərbaycan dünyada Mədəni və Təbii İrsin Qorunması vəzifəsini üzərinə götürən UNESCO-ya müraciət edərək işğaldan azad olunmuş ərazilərdə erməni vandalizminin qurbanı olmuş tarixi-mədəni irs abidələrinin monitorinqinin aparılmasını dəfələrlə və israrla xahiş etmişdir. Ölkəmizin çoxsaylı müraciətlərinə hər dəfə bu beynəlxalq təşkilat tərəfindən müxtəlif bəhanələrlə "yox" cavabı verilmişdir.

Ermənistan işğal etdiyi Qarabağ ərazisindəki Azərbaycana məxsus mədəni irs obyektlərinə qarşı qeyri-hüquqi hərəkətləri ilə müharibə aparılmasının adət və qaydalarını müəyyən edən Haaqa Konvensiyası (xüsusilə 1907-ci il Konvensiyası və Əlavə Protokol), silahlı münaqişə qurbanlarının hüquqi müdafiəsinə aid 1949-cu il Cenevrə Konvensiyaları və ona edilən 1977-ci il I və II Əlavə Protokolları, Silahlı münaqişə zamanı mədəni irsin qorunmasına aid 1954-cü il Haaqa Konvensiyası və ona edilən I və II Əlavə Protokolları və sairə ilə müəyyən edilən öhdəliklərini pozub. Quru müharibəsinin qanun və adətləri haqqında 1907-ci il Haaqa Konvensiyasına Əlavənin 27-ci maddəsinə əsasən, mümkün olduğu həddə dini məbədlərin, elm, incəsənət məqsədlərinə xidmət edən binaların, tarixi abidələrin zərər görməməsi üçün bütün zəruri tədbirlər həyata keçirilməlidir. 1949-cu il Cenevrə Konvensiyalarına əlavə olunan Beynəlxalq silahlı münaqişə qurbanlarının himayəsinə həsr edilən 1977-ci il Protokolunun (I Protokol) 53-cü maddəsinə [3, s. 300] əsasən, aşağıdakılar birmənalı olaraq qadağan edilir: a) xalqların mədəni və ya dini irsini təşkil edən tarixi abidələrə, incəsənət əsərlərinə və ya ibadətgahlara qarşı hər hansı düşmənçilik hərəkəti; b) belə obyektlərdən hərbi səyləri dəstəkləmək məqsədilə istifadə olunması; c) belə obyektlərin qisas obyektinə çevrilməsi. Eyni müddəa Beynəlxalq xarakter daşımayan silahlı münaqişə qurbanlarının himayəsinə həsr edilən 1977-ci il Protokolunun (II Protokol) 16-cı maddəsində də təsbit edilir. Silahlı münaqişə zamanı mədəni irsin beynəlxalq hüquqi qorunması sisteminin mərkəzində 1954-cü il Haaqa Konvensiyası və ona əlavə edilən I və II saylı Protokollar durur. Xatırladaq ki, Azərbaycan və Ermənistan 1954-cü il Konvensiyasında və protokollarda iştirak edən dövlətlərdir.

Silahlı münaqişə dövründə Ermənstan işğal etdiyi Azərbaycan ərazilərinə bir milyona yaxın mina basdırıb.

Azərbaycan Respublikasının torpaqlarımız işğaldan azad edildikdən dərhal sonra gördüyü təxirəsalınmaz tədbirlər nəticəsində 90 min hektara yaxın ərazi minalardan təmizlənib. Bu illərdə 88260 mina və partlama təhlükəsi olan digər qalıqlar, o cümlədən 28259 piyada əleyhinə mina, 15303 tank əleyhinə mina və 44698 partlamamış hərbi sursat aşkar edilib və zərərsizləşdirilib. Əldə edilmiş irəliləyişlərə baxmayaraq, mina təhlükəsi hələ də qalır. Son üç ildə mina partlamasının qurbanı olan 340 Azərbaycan vətəndaşının 65 nəfəri ölüb, 275 nəfəri isə yaralanıb.

Dekabrın 11-də UNESCO-nun mənzil-qərargahında silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması üzrə 1954-cü il Haaqa Konvensiyasına Tərəf Ölkələrin 15-ci görüşü keçirilib. Görüşün gündəliyinə Azərbaycan tərəfindən daxil edilmiş "Minaların mədəni irsə təsiri" mövzusunda qətnamə layihəsi Konvensiyaya 135 Tərəf Ölkənin yekdil qərarı ilə qəbul edilib.

Qətnamədə silahlı münaqişələr və postmünaqişə dövrlərində mədəni mülkiyyətin (mədəni irsin) qorunması və mühafizəsi məqsədilə üzv dövlətlərin göstərdiyi səylər təqdir edilir, minaların və digər partlayıcı qurğuların beynəlxalq humanitar hüquqa zidd olaraq istifadəsinin mədəni mülkiyyətə əhəmiyyətli dərəcədə ziyan vura biləcəyi qeyd olunur.

Eyni zamanda qətnamədə minalar və digər partlayıcı qurğuların istifadəsinin mədəni mülkiyyətə qarşı ciddi təhlükə yaratması ilə bağlı narahatlıq ifadə olunur.

Son günlər siyasi mühitdə baş verən hadisələrin nəticələri deməyə əsas verir ki, Azərbaycan haqlı və qətiyyətli mövqeyi ilə bütün qapıları aça bilir. Hərb meydanında qazanılan zəfərimiz diplomatik masalarda da uğurla təsdiq olunur.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Qaranlıq otaqdakı qara pişik

Qlobal siyasət özünün çətin dövrünü yaşayır. Dünyanın yenidən nüfuz dairələrinə bölünməsi prosesi gedir. Əks qütblər arasında başlanan bu mübarizə özünün pik həddinə çatıb. Hər an dünya müharibəsi başlana bilər. Bunu dünyanın tanınmış siyasətçiləri və hərbi ekspertləri dönə-dönə təkrar edirlər.

Heç kəsə sirr deyil ki, SSRİ-nin süqutundan sonra dünyanın taleyini Qərb müəyyənləşdirir. Ona görə də dünya birqütblüdür. Bu isə həmin iddiada olan digər güclər tərəfindən ciddi narazılıqla qarşılanır.

Azərbaycan xalqı özünə qarşı olan ədalətsizlikdən yaxşı xəbərdardır. İşğala məruz qalanla işğalçının bir tərəziyə qoyulmasından 30 il əziyyət çəkdik. Deyirdilər, məsələnin hərbi yolla həlli yoxdur, sülh danışıqları ilə bu problemi həll etmək olar. Uzun sürən danışıqların nəticə vermədiyini görəndə isə bizi işğal faktı ilə barışmağa çağırdılar.

Buna görə də ölkəmiz bütün beynəlxalq qanunlar və konvensiyalar çərçivəsində torpaqları Ermənistanın işğalından qurtarmaq üçün hərbi əməliyyatlara başlamalı oldu. Belə halda gözlənilən o idi ki, Qərb bizim ədalətli mövqeyimizi müdafiə edəcək. Əvəzində başqa mənzərənin şahidi olduq. Fransa prezidenti E.Makron bəyanat verdi ki, biz "Dağlıq Qarabağ"ın ikinci dəfə Azərbaycan tərəfindən işğal edilməsinə icazə verə bilmərik. Halbuki Fransa Azərbaycanın ərazi bütövlüyünü tanıyan ölkədir. Kim fikirləşirsə ki, E.Makron sadəcə bu barədə məlumatsızdır, yanılır. Özü də təkcə ona görə yox ki, dövlət başçısı ölkəsinin ərazi bütövlüyü kimi siyasi qərarından xəbərsizdir, həm də onun üçün ki, Fransa özü separatizmlə üzləşəndə onu beşiyində boğub. İndi bunu necə başa düşək - Fransa separatçıları quldur, Azərbaycandakı erməni separatçıları "mələk"dir? Təbii ki, yox! Bu, sadəcə, eyni problemə münasibətdə ədalətsizlik və ikili standartdır. Uzaq tarixə getməyib, təkcə bu əsrdə həmin səbəbdən nə qədər ölkələrin dağıdıldığını, milyonlarla günahsız insanın həlak olmasını yada salaq. Belə olmasaydı, Fələstin-İsrail, Suriya, İraq, Əfqanıstan, Ukraynada əbəs yerə qan axıdılmazdı. Əgər Azərbaycan Ordusu dünya tarixində misli-bərabəri olmayan müharibəni 44 gündə başa çatdıra bilməsəydi, bölgəmiz də sonu görünməyən bir müharibəyə sürüklənəcəkdi.

Qərbin ikili standartla müşahidə olunan siyasətini torpaqlarımız işğal olunanda da, öz tarixi torpaqlarında yaşayan azərbaycanlılar etnik təmizləməyə məruz qalanda da aydın gördük. Həmişə insan haqlarından, demokratiyadan, ədalətdən danışan Qərb siyasətçiləri susdular və görməzdən gəldilər. Ən dəhşətlisi, XX əsrdə bütün dünyanın gözü qarşısında törədilən Xocalı soyqırımına ədalətli münasibət göstərmədilər.

Ermənistandan 300 min azərbaycanlı vəhşicəsinə qovuldu. Bu deportasiya zamanı uşaqlar, qadınlar, qocalar, bir sözlə, dinc əhali qətlə yetiriləndə özlərini "mədəni" hesab edən Qərb siyasətçiləri və mətbuatı susdu. Düzdür, arada vicdanını itirməyib həqiqəti dilə gətirən siyasətçilər və həqiqəti yazan KİV-lər də oldu. Ancaq onların sayı nəyi isə dəyişməyə imkan vermədi.

30 il aparılan danışıqlar zamanı da Ermənistandan qovulan azərbaycanlıların hüquqlarının müzakirə mövzusu olmasına imkan vermədilər. Üstəlik Qarabağ və Şərqi Zəngəzurdan qovulan azərbaycanlıların təhlükəsizliyinin və hüquqlarının qorunmasına etinasız yanaşıldı. İndi bütün bunlardan sonra istəyirlər ki, Azərbaycan dövləti hər bir erməninin "burnunun qanamaması" barədə öhdəlik götürsün.

Bu azmış kimi Qərb danışıqlar prosesində Qarabağdan könüllü köçən ermənilərin təhlükəsizliklərinin təmin olunması şərti ilə geri qayıtmalarını tələb edir. Əvəzində Azərbaycan dövləti də ədalətin bərpa olunması üçün ötən əsrin sonlarında Ermənistandan qovulan azərbaycanlılara münasibətdə belə bir hüququn tanınmasını tələb edir, özü də qətiyyətlə. Yetər artıq bizi qaranlıq otaqda qara pişik axtarmağa məcbur etdiniz. İndi biz "qara pişiy"i də, onun sahibini də yaxşı tanıyırıq. Odur ki, Qarabağdan könüllü köç etmiş erməniləri geri qaytarmaq istəyənlər indiki Ermənistan ərazisindəki dədə-baba yurdlarından qovulmuş azərbaycanlıların da vətənlərinə dönüş haqlarını tanımalıdırlar.

Prezident İlham Əliyev "Euronews" kanalına verdiyi müsahibəsində bu barədə demişdir: "Danışıqlar prosesinin təxminən üç ili ərzində Ermənistan hər zaman sülh sazişinə Qarabağın erməni azlığına dair müddəanı salmaq istəyirdi. Bizim mövqeyimiz ondan ibarət idi ki, bu bizim daxili işimizdir. Əgər onlar Azərbaycanda erməni azlığı məsələsini əks etdirmək istəyirlərsə, onda biz də otuz il əvvəl Ermənistandan qovulmuş azərbaycanlı azlığı məsələsini daxil etmək istərdik. Özü də Ermənistanda azərbaycanlıların sayı ermənilərin Azərbaycandakı sayından daha çoxdur və təxminən 300 min insan təşkil edir. Bir sözlə, mövqeyimiz belədir ki, həmin məsələ qarşılıqlı olmalıdır. Biz iki milli azlığın məsələsini, onların hüquqları və təhlükəsizliyini, o cümlədən qayıtmaq hüququnu qeyd edək. Yəni təkcə ermənilərin Azərbaycana qayıtması deyil, o cümlədən azərbaycanlıların Ermənistana qayıtması məsələsini qoyuruq".

1.1. 1.0.1-ci maddəyə "bitkilərdir" sözündən sonra "(onların hissələridir)" sözləri əlavə edilsin;

1.2. 1.0.6-cı maddədə ", yetişdirilməsi və ya onların (onların hissələrinin) toplanmasıdır" sözləri "və ya yetişdirilməsidir" sözləri ilə əvəz edilsin.

2. 21-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 21. Narkotik vasitələrin (o cümlədən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) və psixotrop maddələrin, habelə onların prekursorlarının miqdarı**

21.1. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının miqdarı təmiz və qarışıq vəziyyətində ayrılıqda müəyyənləşdirilir.

21.2. Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə əsas verən narkotik vasitələrin (o cümlədən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) və psixotrop maddələrin, habelə onların prekursorlarının xeyli, külli və xüsusilə külli miqdarları müvafiq qanunlarla müəyyən olunur.

21.3. Narkotik vasitələrin (o cümlədən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) və psixotrop maddələrin, habelə onların prekursorlarının müvafiq qanunlarla müəyyən edilmiş xeyli miqdarından aşağı olan miqdarı şəxsin inzibati məsuliyyətə cəlb edilməsinə əsas verən az miqdardır.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli, "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli və "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 620-VIQD nömrəli və "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 783-VIQD nömrəli qanunlarının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101, № 12, maddələr 1407, 1423; 2022, № 1, maddə 28, № 2, maddə 111, № 4, maddələr 313, 323, № 5, maddə 473, № 8, maddələr 837, 861, 897, № 12, maddə 1462; 2023, № 1, maddələr 52, 66, 97, № 2, maddələr 220, 226, 231, № 3, maddələr 350, 360, 375, № 4, maddə 505, № 6, maddə 795, № 7, maddələr 946, 953, 976, № 8 (I kitab), maddələr 1139, 1166, 1168, 1179, 1180) 5.12-ci bəndində "480 - 505" rəqəmləri "480 - 482, 483 - 505" rəqəmləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; 2020, № 3, maddələr 238, 240, № 4, maddə 404, № 7, maddələr 864, 885, № 8, maddə 1041, № 9, maddə 1153; 2021, № 6 (I kitab), maddə 566, № 7, maddələr 724, 728, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 313, 323, № 8, maddə 896, № 10, maddə 1146, № 11, maddələr 1267, 1269, № 12, maddələr 1414, 1462, 1464; 2023, № 1, maddə 97, № 2, maddə 226, № 3, maddə 375, № 4, maddələr 472, 505, № 5, maddə 653, № 7, maddələr 946, 953, № 8 (I kitab), maddə 1139) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 6.0-cı bənddə "Muxtar Respublikası Dövlət Vergi Xidmətinin şəhər (rayon) vergilər idarələrinin rəisləri, onların müavinləri, Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rayon vergilər şöbələrinin" sözləri "Şəhər Vergilər İdarəsinin rəisi, onun müavini, Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin strukturuna daxil olan ərazi vergilər idarələrinin" sözləri ilə əvəz edilsin;

2.2. 7.1-ci bənddə "480 - 505" rəqəmləri "480 - 482, 483 - 505" rəqəmləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 305, 306, 323, 329, № 7, maddə 728, № 10, maddə 1146, № 11, maddələr 1251, 1267, 1269; 2023, № 1, maddələr 66, 97, № 3, maddələr 346, 375, № 4, maddələr 472, 483, 505, № 6, maddə 795, № 7, maddələr 946, 953, № 8 (I kitab), maddələr 1139, 1166, 1172, 1179, 1180, № 9, maddə 1284) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 32.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"32.1. dövlət qeydiyyatına (vergi uçotuna) alınmadan və ya sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya tələb olunduğu hallarda belə lisenziya almadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından - Xidmətin rəisi, onun müavinləri, Xidmət rəisinin müşavirləri, Aparatın rəhbəri, onun müavinləri, Aparatın baş idarələrinin (idarələrinin, şöbələrinin, bölmələrinin) rəisləri, onların müavinləri, onların tərkibindəki idarələrin (şöbələrin, bölmələrin) rəisləri, onların müavinləri, baş dövlət vergi müfəttişləri (baş hüquqşünaslar, baş təhqiqatçılar, baş əməliyyat müvəkkilləri, baş iqtisadçılar, baş mütəxəssislər), böyük dövlət vergi müfəttişləri (böyük hüquqşünaslar, böyük təhqiqatçılar, böyük əməliyyat müvəkkilləri, böyük iqtisadçılar, böyük mütəxəssislər), aparıcı mütəxəssislər, dövlət vergi müfəttişləri (hüquqşünaslar, təhqiqatçılar, əməliyyat müvəkkilləri, iqtisadçılar, mütəxəssislər), Xidmətin strukturuna daxil olan qurumların rəisləri, onların müavinləri, onların tərkibindəki idarələrin (şöbələrin, bölmələrin) rəisləri, onların müavinləri, baş dövlət vergi müfəttişləri (baş hüquqşünaslar, xüsusilə mühüm işlər üzrə böyük müstəntiqlər, baş təhqiqatçılar, baş əməliyyat müvəkkilləri, baş müvəkkillər, baş iqtisadçılar, baş mütəxəssislər), böyük dövlət vergi müfəttişləri (böyük hüquqşünaslar, xüsusilə mühüm işlər üzrə müstəntiqlər, böyük təhqiqatçılar, böyük əməliyyat müvəkkilləri, böyük müvəkkillər, böyük iqtisadçılar, böyük mütəxəssislər), aparıcı mütəxəssislər, dövlət vergi müfəttişləri (hüquqşünaslar, müstəntiqlər, təhqiqatçılar, əməliyyat müvəkkilləri, müvəkkillər, iqtisadçılar, mütəxəssislər), Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəisi, onun müavinləri, Aparatın rəhbəri, Aparatın idarə rəisləri, onların müavinləri, şöbə (bölmə) rəisləri, baş dövlət vergi müfəttişləri (baş hüquqşünaslar, xüsusilə mühüm işlər üzrə böyük müstəntiqlər, baş əməliyyat müvəkkilləri, baş iqtisadçılar, baş mütəxəssislər), böyük dövlət vergi müfəttişləri (böyük hüquqşünaslar, böyük müstəntiqlər, böyük təhqiqatçılar, böyük əməliyyat müvəkkilləri, böyük mütəxəssislər), aparıcı mütəxəssislər, dövlət vergi müfəttişləri (müstəntiqlər, təhqiqatçılar, əməliyyat müvəkkilləri, iqtisadçılar, mütəxəssislər), Naxçıvan Şəhər Vergilər İdarəsinin rəisi, onun müavini, İdarənin tərkibindəki şöbələrin rəisləri, bölmə rəisi - baş mühasib, baş dövlət vergi müfəttişləri (baş hüquqşünaslar), böyük dövlət vergi müfəttişləri (böyük hüquqşünaslar), dövlət vergi müfəttişləri, Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin strukturuna daxil olan ərazi vergilər idarələrinin rəisləri, onların müavinləri, onların tərkibindəki şöbələrin rəisləri, bölmə rəisləri - baş mühasiblər, baş dövlət vergi müfəttişləri (baş hüquqşünaslar), böyük dövlət vergi müfəttişləri (böyük hüquqşünaslar), dövlət vergi müfəttişləri;";

3.2. 34.2-ci bənddən "Azərbaycan Respublikasının Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında" sözləri çıxarılsın;

3.3. 34-1.3-cü və 34-2.2-ci bəndlərdən "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında" sözləri çıxarılsın;

3.4. 35-ci hissədə, 36.1-ci, 37.1-ci, 38.1-ci, 41.3-cü və 48.3-cü bəndlərdə "Azərbaycan Respublikasının Vergilər" sözləri "Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat" sözləri ilə əvəz edilsin;

3.5. aşağıdakı məzmunda 52-1-ci hissə əlavə edilsin:

"52-1. Məcəllənin 482-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

52-1.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti adından - bu Siyahının 28-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

52-1.2. vergi nəzarəti zamanı aşkar edildiyi hallarda Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından - bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2023-cü il*

# İnsan hüquqlarının müdafiəsini şərtləndirən əsaslar: *hədəflər və çağırışlar*

**İnsan hüquqları insan sivilizasiyası qədər qədim tarixə malikdir və hər bir insanın ləyaqətindən irəli gələn mənəvi tələbatıdır. Bu hüquqlar bütün insanlara xasdır, onların təbii istəklərinin nəticəsi olmaqla bərabər, həm də ləyaqətli həyat yaşamağa istiqamətlənmişdir.**

> ***Əgər hər hansı ölkənin xalqı öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.***
>
> ***Heydər ƏLİYEV***

İnsan hüquqlarının müdafiəsinin təmin edilməsi ölkədə qanunun aliliyinin əsas göstəricilərindən biridir və onların qorunmasına həyatın bütün sahələrində ehtiyac var. İnsan hüquqlarının mövcudluğu hər bir fərdin öz həyatını azad, bərabər və insan ləyaqətinə hörmət mühitində qurmaq imkanı verir.

Hər bir dövlətin insan hüquqlarına hörmətlə yanaşmaq, onları qorumaq və zəruri təminatlar yaratmaq öhdəliyi var. Bu hüquqların minimum standartları dövlətlərin konstitusiyalarında, beynəlxalq hüquq normaları və digər qanunvericilik aktlarında öz əksini tapır. İnsan hüquqları universal, ayrılmaz və bir-biri ilə əlaqəli olmaqla, onların müdafiəsi üçün xüsusi alət və mexanizmlərin mövcudluğu zəruridir.

Yaşamaq, bərabərlik, şəxsi həyatın toxunulmazlığı, təhsil, ədalətli məhkəmə araşdırması və digər hüquqlar insanların demokratik cəmiyyətdə yaşamaları üçün əsas şərtlərdən biridir.

## Siyasi iradə

XX əsrin sonlarında Azərbaycan Respublikası yenidən öz müstəqilliyini əldə etməsinə baxmayaraq, ilk illərdə şəxsi mənafelər və qeyri-peşəkar idarəetmə nəticəsində insanların fundamental hüquqlarının pozulması, sui-istifadə, özbaşınalıq halları geniş vüsət almışdı.

Yalnız xalqın təkidli xahişi ilə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə demokratik quruluşa malik dünyəvi dövlət quruculuğu, insan hüquqlarının qorunması və müdafiəsi sahəsində mühüm addımlar atıldı. Müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edilməklə, milli dövlətçilik ənənələrinin inkişafı, insan hüquqlarının müdafiəsinin təməli qoyuldu, demokratik hüquqi dövlətin bütün prinsipləri təsbit olundu, insan və vətəndaş hüquq və azadlıqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edildi.

Ulu Öndərin möhkəm təməllər üzərində əsasını qoyduğu humanizm siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev insanların həyat şəraitinin və rifah səviyyəsinin artırılması üçün hüquqi dövlət quruculuğu yolunda mütərəqqi islahatlar aparmış, insan meyarı əsas götürülməklə onların hüquqlarının təmin edilməsi prosesi keyfiyyətcə yeni müstəviyə keçirilmişdir. Ölkədə normativ-hüquqi bazanın formalaşdırılması təmin edilmiş, hüquq mədəniyyətinin inkişaf etdirilməsi, hüquq müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir.

Müasir dövrdə insan hüquqlarının minimum standartları BMT-nin "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi", "İnsan Hüquqları üzrə Vyana Bəyannaməsi" və "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasında öz əksini tapmışdır. Həmin beynəlxalq sənədlərin hər biri özündə yaşamaq, azadlıq, bərabərlik, ləyaqət, həmrəylik və ədalət prinsiplərini ehtiva edir. Bu beynəlxalq normalar ideal ictimai münasibətləri nəzərdə tutsa da, təəssüf ki, çağdaş dövrdə biz bunun real tətbiq edilmədiyinin işğal altında olmuş torpaqlarımızdan məcburi köçkün düşən vətəndaşlarımızın timsalında uzun illər şahidi olmuşuq.

Biz hamımız erməni təcavüzü nəticəsində beynəlxalq hüquq normalarının kobudcasına pozulduğunun, uzun illər ərzində Qarabağ münaqişəsinin "ikili standartlar" siyasəti səbəbindən həll olunmadığının, qaçqın və məcburi köçkünlərimizin yaşamaq, azad hərəkət etmək, təhsil, mülkiyyət və sair fundamental hüquqlarının pozulduğunu görmüşük.

Qürurla deyə bilərik ki, 44 günlük Vətən müharibəsi zamanı cənab Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli ordumuz vətəndaşlarımıza qarşı törədilən bu hüquq pozuntularına son qoymağa nail oldu. İşğal edilmiş torpaqlarımız düşmən tapdağından azad olundu.

Habelə işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizlik hüququnun təmin olunması məqsədilə bölgədə aparılan lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının konstitusiya quruluşu və suverenliyi tam bərpa edildi. Hazırda vurulmuş ziyanın aradan qaldırılması, vətəndaşlarımızın pozulmuş hüquqlarının bərpası, öz yaşayış yerlərinə qaytarılması istiqamətində cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə misilsiz quruculuq işləri həyata keçirilir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın elm, təhsil, səhiyyə, sosial, mədəni irsin qorunması və digər sahələrdə vətəndaşlarımızın hüquqlarının təmini, qadın və uşaq hüquqlarının qorunması, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu istiqamətində gördüyü işlər və əldə olunan nailiyyətlər hüquqi dövlətin möhkəmlənməsinə xidmət edir.

## Normativ-hüquqi baza

İnsanların layiqli həyat şəraiti və fundamental hüquqlarının müdafiəsi, sosial ədalətin bərqərar olması, cəmiyyətdə iqtisadi inkişaf, əmin-amanlığın təmin edilməsi demokratik cəmiyyətin təməl prinsiplərini təşkil edir. Bu hədəflərə çatmaq üçün dövlətimiz tərəfindən aparılmış uğurlu siyasət nəticəsində qəbul edilən qanunvericilik aktları, milli fəaliyyət planları və proqramları uğurla icra edilir. Vətəndaş cəmiyyətinin inkişafı, dövlət orqanları ilə vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlığın təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Bu gün Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması istiqamətində həyata keçirilən dövlət siyasətinin üstünlüklərindən bəhs edərkən iki sənədin əhəmiyyəti xüsusilə qeyd olunmalıdır. Bunlar ölkə Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2006-cı il tarixdə imzaladığı "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" və 2011-ci il dekabrın 27-də imzalanmış "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"dır.

Əgər Milli Fəaliyyət Planı insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət edirdisə, Milli Fəaliyyət Proqramı müasir dövrün çağırışları və cəmiyyətin inkişafından irəli gələn tələblər nəzərə alınmaqla insan hüquqlarının təmin olunması üzrə görülən tədbirlərin genişləndirilməsinə, hüquq müdafiə mexanizmlərinin təkmilləşdirilməsinə, əhalinin müxtəlif qruplarının hüquqlarının qorunmasının gücləndirilməsinə mühüm töhfə olmuşdur.

Bundan başqa, dövlətimiz "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına və ona əlavə edilmiş protokollara qoşulmaqla insan hüquq və azadlıqlarının səmərəli beynəlxalq hüquq müdafiəsi mexanizminin yurisdiksiyasını qəbul etmiş, Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi sayəsində insan hüquq və azadlıqlarının müdafiəsini gücləndirmişdir.

## Şəffaf cinayət mühakimə icraatı

İnsan hüquqlarının müdafiə olunmasını şərtləndirən əsas amillərdən biri də insanların şəxsi təhlükəsizlik hüququnun və ədalət mühakiməsinə əlçatanlığının təmin edilməsi, bu sahədə fəaliyyət göstərən dövlət orqanlarının qanunvericiliyin tələblərinə uyğun, səmərəli və şəffaf fəaliyyət göstərməsidir. Bu baxımdan həmin sahədə ixtisaslaşan qurumların fəaliyyətinin təkmilləşdirilməsi, şəffaflığın təmin edilməsi, korrupsiya ilə mübarizənin gücləndirilməsi, elektron xidmətlərin artırılması və digər tədbirlərin görülməsi nailiyyətlər qazanılması üçün əsas hədəflərdən biri olmuşdur.

Habelə tutulmuş, həbs edilmiş şəxslərin qanun qarşısında bərabərlik, əsassız həbsə məruz qalmamaq, ədalətli məhkəmə araşdırması və sairə hüquqlarının müdafiəsi də dövlətimizin daim prioritet vəzifələrindən biri olmuşdur.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən əfv institutunun tətbiqi nəticəsində bu günədək 69 əfv, habelə 12 amnistiya aktı nəticəsində 10 minlərlə insanın azadlığa qovuşması təmin edilmişdir.

Təkcə Azərbaycan Respublikası Prezidentinin "Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında" 8 may 2023-cü il tarixli sərəncamı ilə ümumilikdə 801 məhkum əfv edilmişdir.

Bu gün qeyd olunan məqsədlərə çatmaq üçün Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunları ilə prokurorluq orqanlarının üzərinə mühüm vəzifələr qoyulmuşdur. Cinayət təqibinin həyata keçirilməsi, qanunların icrasına nəzarət, məhkəmələrdə dövlət ittihamının müdafiəsi, insan hüquq və azadlıqlarının qorunması sahəsində önəmli vəzifələr daşıyan prokurorluq uzun illərdir qanunçuluğun təmin edilməsi, hər kəsin qanun qarşısında bərabərlik hüququnun qorunması, insanların hüquq və azadlıqlarına hörmət edilməsi istiqamətində öz fəaliyyətini uğurla davam etdirir.

## Prokurorluğun insan hüquqlarının müdafiəsində rolu

Prokurorluq orqanlarının insan hüquqlarının müdafiəsinin əsas təminatlarından biri kimi funksionallığı ondan ibarətdir ki, o, həm məhkəməyə qədər aparılan cinayət təqibi zamanı insan hüquqlarının qorunmasını təmin etmək, həm də məhkəmə baxışı zamanı dövlətin adından ittihamı müdafiə etməklə vətəndaşların, eləcə də dövlətin və cəmiyyətin mənafeyini müdafiə etmək öhdəliyi daşıyır.

Nəzərə almaq lazımdır ki, hüquq və vəzifələr bir qəpiyin iki üzüdür. Hüquqa dəyər verən amil insanların öhdəlikləri, eləcə də başqalarının hüququna dözümlülüklə yanaşmalarıdır. Bir insanın öz hüquqlarından məmnun qalması üçün mütləq şəkildə başqalarının, o cümlədən dövlətin və cəmiyyətin ondan tələb etdiyi vəzifələri yerinə yetirmək məcburiyyəti vardır. Əks halda, hər hansı cinayət törətmiş şəxsin törətdiyi cinayət əməlinin qarşılığında bir çox hüququ - azadlıq, təhsil, əmək, sosial və sairə hüquqları məhdudlaşdırılacaqdır.

Bu baxımdan prokurorluq orqanları cinayət törədərək başqalarının yaşamaq, sağlamlıq, mülkiyyət və digər hüquqlarını pozmuş şəxslərin hüquqlarını məhdudlaşdırmaqla, yaxud azadlıq kimi ən ali hüququndan məhrum edilməsini təmin etməklə cinayətdən zərərçəkmiş şəxslərin hüquqlarını bərpa etmək öhdəliyi daşıyır.

Müəyyən olunmuş birgəyaşayış qaydalarını pozan şəxsə tətbiq edilən cəza onun üçün məhrumiyyətlər yaratmaq və ya onun hüquq və azadlıqlarını məhdudlaşdırmaqla yanaşı, sosial ədalətin bərpası, onun islah edilməsi və yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədi daşımaqla digər insanların hüquqlarını müdafiə edir.

Qeyd olunmalıdır ki, 2023-cü ilin birinci yarım ili ərzində ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorlar tərəfindən ittiham aktı təsdiq edilmiş 6867 cinayət işi üzrə məhkəmələrdə dövlət ittihamı müdafiə edilməklə 7548 şəxs barəsində ittiham hökmü çıxarılmışdır.

Prokurorluq cinayət törətmiş şəxsin cəmiyyətdən təcrid edilməsi, yaxud hüquqlarının məhdudlaşdırılması sayəsində digər şəxslərin hüquqlarını qorumaqla yanaşı, cinayət törətməkdə təqsirli şəxslərin özlərinin də hüququnu müdafiə etmək öhdəliyi daşıyır.

Ədalətli məhkəmə araşdırması, qanun qarşısında bərabərlik, işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaya məruz qalmamaq və sairə hüquqların müdafiəsi prokurorluğun üzərinə düşən ən əsas vəzifələrdən biridir. Prokurorluq ibtidai istintaq apararaq ağır cinayət törətmiş şəxsləri ifşa etməklə yanaşı, ibtidai istintaqa prosessual rəhbərlik, qanunların icrasına nəzarət funksiyasını həyata keçirməklə digər təhqiqat və ibtidai istintaq orqanları ilə məhkəmə orqanları arasında körpü rolunu oynayır. Eləcə də, məhkəmələrdə dövlət ittihamının müdafiəsi və təyin edilmiş cəzaların məqsədinə çatmasında iştirak etməklə mühüm vəzifələr daşıyır. Bu yolda prokurorluğun ali məqsədi insan hüquqlarının müdafiəsi, cinayət mühakimə sisteminin effektiv işləməsi, vətəndaşların yeni cinayətlərdən mühafizəsi, dövlətin və cəmiyyətin maraqlarının təmin edilməsindən ibarətdir. Məhz bu baxımdan prokurorluq orqanlarının əməkdaşları daim öz bilik və peşəkarlıqları ilə seçiliblər.

## Müasir yanaşma

Xüsusən də, son illərdə Baş Prokurorluğun yeni rəhbərliyi tərəfindən aparılmış geniş islahatlar nəticəsində prokurorluq orqanları insan hüquqlarının müdafiəsi sahəsində öz fəaliyyətini müasir çağırışlara uyğun, çevik və dinamik şərtlər əsasında quraraq uğurla həyata keçirir.

Belə ki, prokurorluq orqanlarının fəaliyyətində çevikliyin və səmərəliliyin artırılması, şəffaflığın təmin edilməsi, peşəkar kadr korpusunun formalaşdırılması məqsədilə cənab Prezidentin 2020-ci il 10 iyun tarixli sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni strukturu təsdiq edilmiş, Baş Prokurorluğun strukturu mahiyyətcə tamamilə yenidən formalaşdırılaraq daha çevik, mobil və dinamik idarəetməyə malik idarələr yaradılmış, idarə və şöbələrin sayı 15-dən 18-ə çatdırılmışdır.

Bundan başqa, idarəçilik, icra və əmək intizamı, kadrlarla iş, sənədlərin dövriyyəsi, prosessual rəhbərlik və nəzarət fəaliyyətinin təşkili, eləcə də struktur qurumlar və tabe prokurorluqlar arasında münasibətləri tənzimləyən Baş Prokurorluğun İşin Təşkili Qaydaları təsdiq edilməklə ayrı-ayrı sahələrin vahid normativ sənəddə tənzimlənməsi təmin olunmuşdur.

İşin Təşkili Qaydalarında qanunla müəyyən edilmiş əsas prinsiplərlə yanaşı, prokurorluq orqanlarının fəaliyyətində qanunçuluq, kollegiallıq, ədalət, qərəzsizlik və obyektivlik prinsipləri rəhbər tutulmaqla, Baş Prokurorluqda ilk dəfə olaraq İntizam Komissiyası, Etik Davranış Komissiyası, Əmək Məsələləri Komissiyası kimi qurumlar təsis edilərək fəaliyyət göstərməkdədir.

Yenidən təşkil olunan Hüquqi təminat və insan hüquqları məsələləri idarəsi müstəqil struktur qurum kimi fəaliyyət göstərməklə idarənin əsas vəzifə və funksiyalarına, həmçinin Azərbaycan Respublikasının insan hüquqlarının müdafiəsi sahəsində qanunvericiliyin tələblərinə və bu sahədə beynəlxalq standartlara riayət olunmasına nəzarətin gücləndirilməsi, hüquq tətbiqetmə prosesində Avropa İnsan Hüquqları Məhkəməsinin hüquqi prinsipləri, mövqe və standartlarına istinad olunması təcrübəsinin prokurorluq orqanlarında təşviq edilməsi, eləcə də İnsan Hüquqları üzrə Müvəkkildən (Ombudsman) daxil olan müraciət və sorğuların icrası məqsədilə prokurorluğun sisteminə daxil olan qurumların fəaliyyətinin əlaqələndirilməsi kimi funksiyalar daxil edilmişdir.

Bundan başqa, vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə prokurorluğun media ilə birgə əməkdaşlığı müasir tələblər və dinamik şərtlər əsasında qurulmuş, mətbuat xidməti vasitəsilə prokurorluğun fəaliyyəti ilə bağlı məlumatlar ictimaiyyətə çatdırılmaqla aşkarlıq və hesabatlılıq prinsipləri təmin edilmiş, maarifləndirmə, media vasitəsilə vətəndaş müraciətlərinin operativ araşdırılması təşkil edilmişdir.

Habelə, prokurorluq işçiləri tərəfindən "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası, Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ, insan hüquq və əsas azadlıqlarının müdafiəsinə dair Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələr və onlarla əlaqəli olan beynəlxalq hüquqi sənədlər, elmi-metodiki, informativ ədəbiyyatlar, hüquqtətbiqetmə prosesində tövsiyələr və digər beynəlxalq təcrübə, nəzəri məsələlər üzrə faydalı məlumatların asanlıqla əldə edilməsi və təcrübədə tətbiqi məqsədilə Baş Prokurorluqda İnsan Hüquqları üzrə Sənədlərin Axtarış Portalı (İHSAP) yaradılmaqla, portalda 2975 sayda materialın yerləşdirilməsi təmin edilmişdir. Eyni zamanda hazırda insan hüquqlarına dair beynəlxalq prinsipləri, eləcə də Avropa Məhkəməsinin presedent hüququnu təsbit edən informativ məlumatların hazırlanaraq "#İnsanhüquqları" həştəqi ilə prokurorluğun daxili poçt şəbəkəsi vasitəsilə prokurorluğun bütün struktur qurumlarına göndərilməsi təmin edilir.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın, "Mülki və siyasi hüquqlar haqqında", "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktların müddəalarına, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququna və xarici ölkələrin konstitusiya nəzarəti orqanlarının məhkəmə təcrübəsinə istinad edilməklə, vahid istintaq və məhkəmə təcrübəsinin yaradılması məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə çoxsaylı sorğu və rəylərin verilməsi təmin edilməklə Konstitusiya Məhkəmə icraatında iştirak edilmişdir.

Prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin təmin olunması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may tarixli fərmanı ilə yaradılmış "Elektron Prokurorluq" informasiya sistemi eyni zamanda insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə, prokurorluğa müraciət imkanlarının genişlənməsinə, prokurorluğun fəaliyyətinin səmərəliliyinin və şəffaflığının artırılmasına, süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, aşkarlığın və operativliyin təmin edilməsinə, prokurorluq işçilərinin fəaliyyətinə nəzarətin effektivliyinin artırılmasına, elektron kargüzarlığın və elektron sənəd dövriyyəsinin təmin olunmasına xidmət edir.

Bir faktı da qeyd etmək lazımdır ki, dövlət başçısı cənab İlham Əliyevin təşəbbüsü ilə böyük qələbənin ilk ildönümü ərəfəsində humanizm ənənələrinə sadiqliyin növbəti əyani təcəssümü olmuş Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 5 noyabr 2021-ci il tarixində qəbul edilmiş "8 Noyabr Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" qərarın icrası ilə əlaqədar Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin prokurorlarının iştirakı ilə məhkəmələrdə baxılmış təqdimatlar üzrə məhkumların cəzası azaldılmışdır.

2023-cü ilin birinci yarım ili ərzində vətəndaş məmnunluğunun təmini istiqamətində minlərlə vətəndaş qəbul edilərək bir sıra məsələlərlə bağlı edilən müraciətlər yerində həll olunmuş, eyni zamanda vətəndaşın şikayəti əsasında cinayət işinə xitam verilməsi haqqında 10, cinayət işi üzrə icraatın dayandırılması haqqında 4 qərarın ləğv edilməsi təmin edilmişdir.

Təkcə onu demək kifayətdir ki, bu dövr ərzində ötən illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş 35 qəsdən adam öldürmə cinayətinin Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Penitensiar Xidməti ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə açılması təmin edilməklə təqsirli şəxslər ifşa edilmişdir.

Qeyd edilməlidir ki, cari ilin ilk 10 ayı ərzində prokurorluq orqanlarında aparılmış istintaq tədbirləri ilə istintaqı tamamlanmış cinayət işləri üzrə xüsusi mülkiyyətə dəymiş 54 milyon 63 min manat məbləğində vurulmuş maddi ziyandan 20 milyon manatdan artıq vəsaitin dövlət büdcəsinə ödənilməsinə nail olunmuşdur.

Bu gün prokurorluq orqanlarının əməkdaşları digər hüquq-mühafizə orqanları ilə birlikdə antiterror tədbirləri nəticəsində işğaldan azad olunmuş ərazilərdə müəyyən edilmiş faktların araşdırılması, sülh və insanlıq əleyhinə, müharibə cinayətləri törətmiş şəxslərin ifşa edilərək Azərbaycan Respublikasının qanunvericiliyi və beynəlxalq hüquq normalarına əsasən cinayət məsuliyyətinə cəlb edilərək layiqli cəzalarını almaları istiqamətində qürurla öz xidmətlərini həyata keçirirlər.

Əminliklə deyə bilərik ki, bu illər ərzində şərəfli inkişaf yolu keçmiş prokurorluq orqanlarının işçiləri bundan sonra da Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəyyən etdiyi və cənab Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kursa, milli dövlətçilik ideyalarına sadiq qalaraq, fəal vətəndaşlıq mövqeyində dayanmaqla qanunçuluq prinsipini rəhbər tutaraq cinayətkarlığa, korrupsiyaya və kriminal xarakterli bütün mənfi təzahürlərə qarşı mübarizənin səmərəliliyinin artırılmasına, insan hüquq və azadlıqlarının müdafiəsində, ictimai-siyasi sabitliyin və dövlətçiliyimizin qorunmasında və möhkəmləndirilməsində öz fəaliyyətlərini davam etdirəcəklər.

*Heydər MƏMMƏDOV,*
*Azərbaycan Respublikası*
*Baş prokurorunun müavini,*
*II dərəcəli dövlət ədliyyə müşaviri*

# Azərbaycan Cenevrədə yüksəksəviyyəli beynəlxalq tədbirdə təmsil olunub

**Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul olunmasının 75-ci ildönümü münasibətilə "İnsan Hüquqları-75" təşəbbüsü çərçivəsində Cenevrədə beynəlxalq konfrans keçirilib.**

Azərbaycanın Cenevrədəki BMT bölməsi yanındakı daimi nümayəndəliyindən AZƏRTAC-a bildirilib ki, dünyanın 150-dən çox ölkəsinin yüksəksəviyyəli şəxslərinin, o cümlədən dövlət və hökumət başçılarının, vitse-prezidentlərin, parlament üzvlərinin, xarici işlər, ədliyyə və məhkəmə orqanları, elm və təhsil müəssisələri rəhbərlərinin, Avropa Şurası Baş katibinin və digər beynəlxalq təşkilatların məsul nümayəndələrinin, hüquq müdafiəçilərinin iştirak etdiyi tədbirdə ölkəmizi ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Mirsaleh Seyidovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Nümayəndə heyətində Ədliyyə Nazirliyinin, Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA), Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məsul rəhbər işçiləri təmsil olunublar.

Tədbirin açılışında BMT-nin İnsan hüquqları üzrə Ali Komissarı Volker Türk giriş nitqi ilə çıxış edib. Konfransda Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbulundan ötən dövrdə bu sahədə öhdəliklərin icrası və əldə olunan nailiyyətlər, insan hüquqlarına bərabər və ədalətli yanaşmanın tətbiqi və digər aktual məsələlər müzakirə olunub, iştirakçı dövlətlər bu sahədə görülən tədbirlər və insan hüquqlarının universallığına və bölünməzliyinə dair yenilənmiş öhdəliklər barədə məlumat veriblər.

Azərbaycan tərəfi "İnsan Hüquqları-75" təşəbbüsü çərçivəsində götürdüyü öhdəlikləri - məcburi köçkünlərin Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki doğma yerlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıdışı, həmin ərazilərin minalardan və digər partlayıcı qalıqlardan təmizlənməsi, Ermənistanın hərbi təcavüzü nəticəsində itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması məsələlərini diqqətə çatdırıb, bununla bağlı beynəlxalq ictimaiyyəti dəstək göstərməyə çağırıb.

Sonra tədbir panel sessiyalarla davam edib. "İnsan hüquqlarının gələcəyi, inkişaf və iqtisadiyyat" adlı sessiyada çıxış edən ədliyyə nazirinin müavini M.Seyidov Azərbaycanın bəyannamədə təsbit edilən fundamental insan hüquqlarının müdafiəsinə sadiqliyini, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin icrası və İnsan Hüquqları Şurasının inkişaf hüququnun təşviqi və müdafiəsi ilə bağlı görülən tədbirləri, Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində insan hüquqlarının təşviqini və qlobal pandemiya ilə bağlı digər dövlətlərə humanitar dəstəyini vurğulayıb.

Vətən müharibəsində azad edilmiş ərazilərimizin işğal dövründə Ermənistan tərəfindən büsbütün dağıdılaraq minalanması faktı diqqətə çatdırılaraq müharibədən sonra 340 insanın mina terrorunun qurbanı olduğu, bunun yenidənqurma prosesini və keçmiş məcburi köçkünlərin təhlükəsiz qayıdışını ləngitdiyi qeyd olunub.

Bununla belə, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin öz iqtisadi gücü hesabına torpaqlarımızın sürətli bərpası, "Böyük Qayıdış" Proqramına uyğun "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyasına əsaslanan ən müasir şəhərsalma prinsiplərinin tətbiqi, öz doğma yurdlarına qayıdan soydaşlarımız üçün ən yüksək insan hüquqları standartlarının təminatı barədə tədbir iştirakçıları məlumatlandırılıb. Azərbaycanın vətəndaşlara xidmət sahəsində innovasiyaları, o cümlədən BMT-nin bir sıra təltiflərinə, habelə cari ildə 10-cu Dünya Hökuməti Sammitində "Dünyanın ən yaxşı hökumət xidməti" mükafatına layiq görülmüş "ASAN xidmət" brendi və digər təcrübələri maraqla qarşılanıb.

İki gün davam edən yüksəksəviyyəli beynəlxalq konfrans bağlanış mərasimi ilə başa çatıb. Çıxış edən dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların təmsilçiləri konfransın Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75 illiyinə mühüm töhfə olmaqla insan hüquqlarının inkişafına xidmət etdiyini vurğulayıblar.

Tədbirdə Azərbaycanın BMT-nin Cenevrə şəhərindəki bölməsində daimi nümayəndəsi Qalib İsrafilov iştirak edib.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## 11 ayda ölkə üzrə 110,2 milyard manatlıq ÜDM istehsal olunub

**Cari ilin yanvar-noyabr aylarında ölkədə 110,2 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,8 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.**

Dövlət Statistika Komitəsi (DSK) bildirir ki, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,6 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 3,2 faiz artmışdır.

ÜDM istehsalının 41,2 faizi sənaye, 9,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,0 faizi tikinti, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə sahələrinin, 18,0 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,4 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 10856,0 manata bərabər olmuşdur.

## Qeyri-neft-qaz sektorunda sənaye məhsulları istehsalı 7,8 faiz artmışdır

**2023-cü ilin yanvar-noyabr aylarında Azərbaycanda 60,8 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir. DSK xəbər verir ki, neft-qaz sektorunda məhsul istehsalı 1,9 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 7,8 faiz artmışdır.**

Sənaye məhsullarının 67,9 faizi mədənçıxarma, 26,8 faizi emal, 4,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 7,5 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 4,3 faiz artmışdır. Emal sektorunda isə ağacın emalı və ağacdan məmulatların istehsalı 82,7, kompüter, elektron və optik məhsulların istehsalı 74,3, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 52,1, maşın və avadanlıqların istehsalı 37,4, tikinti materiallarının istehsalı 29,8, içkilərin istehsalı 27,5, poliqrafiya məhsullarının istehsalı 26,7 rezin və plastik kütlə məmulatlarının istehsalı 20,4, hazır metal məmulatlarının istehsalı 19,2, kağız və karton istehsalı 18,9, toxuculuq sənayesi məhsullarının istehsalı 12,7, elektrik avadanlıqlarının istehsalı 10,3, qida məhsullarının istehsalı 9,8, tütün məmulatlarının istehsalı 9,6, neft məhsullarının istehsalı 8,4, kimya sənayesi məhsullarının istehsalı 8,3 , mebel istehsalı 5,7, əczaçılıq məhsullarının istehsalı 1,1 faiz artmış, sair nəqliyyat vasitələrinin istehsalı 9,9, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 11,4, sair sənaye məhsullarının istehsalı 12,0, geyim istehsalı 13,3, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 17,6, metallurgiya sənayesi məhsullarının istehsalı 22,2 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 1,4, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 16 faiz artmışdır.



## Azərbaycan qazının ixrac marşrutları şaxələnir

### Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun fəaliyyətə başlaması bu istiqamətdə atılan mühüm addımdır

**Azərbaycanın iqtisadi inkişafının təməlində dövlətin apardığı islahatlar dayanır. İndi ölkə iqtisadiyyatının qarşısında duran əsas məsələlərdən biri şaxələndirmə, neftdən və qazdan asılılığı azaltmaqdır. Lakin neft-qaz sektoru yenə də iqtisadiyyatın əsas hissəsi kimi qalır.**

Həm də ölkədə enerji sahəsinin inkişafı neft hasilatından təbii qaz istehsalına keçid edib. Bununla belə, Azərbaycanın neft hasilatı və ixracı bir çox ölkələrin enerji təhlükəsizliyinə mühüm töhfə verir. Üç ildir tam sistem kimi fəaliyyət göstərən 3500 kilometrlik inteqrasiya edilmiş boru kəmərlərindən ibarət "Cənub qaz dəhlizi" isə ölkəmizin mavi yanacaq ixracı coğrafiyasını genişləndirmək üçün böyük imkanlar yaradıb.

Eyni zamanda Avropada Azərbaycan qazına tələbat çoxalmaqdadır və biz ixracın artırılması ilə bağlı Avropa Komissiyasının müraciətinə müsbət cavab vermişik. Təsadüfi deyil ki, Prezident İlham Əliyev bu il noyabrın 23-də "Euronews" televiziyasına müsahibəsində həmin mövzuya bir daha toxunaraq dedi: "Bu gün biz Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya və Rumıniyaya qaz ixrac edirik. Həmçinin biz Macarıstan və Serbiya ilə müqavilələr imzalamışıq. Bununla yanaşı, Albaniya da bizim qazın paylanılmasına dair planlarımıza daxildir".

Bir neçə gün əvvəl isə artıq Serbiya da Azərbaycandan qaz idxal edən ölkələr sırasına qoşuldu. Bu, yeni açılan Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun sayəsində mümkün oldu.

Məlumdur ki, qazın nəqli üçün infrastrukturun olması vacib şərtdir. Bunu dövlətimizin başçısı dəfələrlə qeyd edib. Məsələn, bu il mayın 31-də 28-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin açılışında Prezidentimiz bir daha vurğuladı ki, TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP (Trans-Adriatik Qaz Boru Kəməri) genişlənməlidir: "Bizim digər Avropa boru kəmərlərinə də çıxışımız olmalıdır və Balkanlarda belə bir çıxışımız olmalıdır. Avropada interkonnektorların sayı mütləq artırılmalıdır. Bütün bu məsələlər əlaqələndirilmiş şəkildə həyata keçirilməlidir. Çünki biz burada böyük sərmayə qoymalıyıq. Ona görə biz əmin olmalıyıq ki, hasil etdiyimiz əlavə qazın, planlaşdırmadığımız həcmlərin - biz ancaq artan tələbatı nəzərə alaraq bunu hasil edirik - real alıcısı olacaqdır. Ona görə də biz bu komanda işini davam etdirməliyik".

Cari il dekabrın 10-da Serbiyanın Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun fəaliyyətə başlaması göstərdi ki, nəzərdə tutulan işlər uğurla gerçəkləşir. İki ölkə arasında bu yeni xəttin tikintisinə cari il fevralın 1-də başlanmışdı və tamamlanması da məhz planlaşdırıldığı vaxt - ilin sonunda baş verdi. Bu kəmər Serbiyanın Niş, Dimitrovqrad, Bela Palanka və Pirot kimi mühüm şəhərlərinin enerji təhlükəsizliyini möhkəmləndirəcək. Serbiyanın gələcəkdə 6 və ya 7 LNG terminalından qaz almaq imkanı da olacaq ki, bu da ölkənin ümumi enerji təhlükəsizliyində mühüm rol oynayacaq.

İnterkonnektoru Azərbaycan Prezidenti İlham Əliyev, Serbiya Prezidenti Aleksandar Vuçiç, Bolqarıstan Prezidenti Rumen Radev və Avropa İttifaqının daimi nümayəndəliyinin rəhbəri Emmanuel Jofrenin işə salması ölkəmizin Avropanın enerji təchizatındakı rolunu, etibarlı tərəfdaş kimi qazandığı hörməti və ümumən Prezidentimizin və dövlətimizin nüfuzunu aydın göstərən daha bir önəmli faktdır.

Xatırladaq ki, Prezident İlham Əliyev 2022-ci il oktyabrın 1-də Sofiyada Azərbaycan təbii qazını Bolqarıstana nəql edən Yunanıstan-Bolqarıstan İnterkonnektorunun (IGB) açılışında da iştirak etmişdi. IGB-nin reallaşması TAP-ın inkişafında mühüm bir mərhələnin başlanğıcı, "Cənub qaz dəhlizi"nin yeni qollarla şaxələnməsinin göstəricisi kimi dəyərləndirilir. Bu interkonnektorun Bolqarıstanın, ümumən Cənub-Şərqi Avropanın şaxələndirilmiş enerji təchizatında, istehlakçıların sərfəli və təmiz enerjiyə çıxışında strateji əhəmiyyət daşıdığı şəksizdir. IGB həm də "Cənub qaz dəhlizi"nin genişləndirilməsinə yol açan yeni layihələrin birincisidir. Bu istiqamətdə növbəti uğur isə Serbiya-Bolqarıstan Qaz İnterkonnektorudur.

Niş şəhərində xəttin açılışındakı çıxışında dövlətimizin başçısı bu hadisənin önəmini vurğulayaraq dedi: "Əminəm ki, bugünkü tədbir və açılışdan sonra interkonnektorun fəaliyyəti Serbiyanın sənaye inkişafına böyük töhfə verəcəkdir. Mən bilirəm ki, Prezident Vuçiçin ölkəsinin sənaye potensialının inkişafı ilə bağlı çox genişmiqyaslı planları var. O planların böyük hissəsi həyata keçirilib. Gələcək planların həyata keçirilməsi üçün əlbəttə, enerji resursları lazımdır və şaxələndirilmiş təchizat şəbəkəsi də təbii ki, qurulmalıdır. Eyni sözləri dostum, Prezident Radev haqqında da deyə bilərəm. Bolqarıstanla da bizi strateji tərəfdaşlıq sazişi bağlayır. Bu il mən Bolqarıstana və Prezident Radev Azərbaycana səfərlər etmişik. Bu da onu göstərir ki, münasibətlərimiz çox dinamikdir, dostluq və strateji tərəfdaşlıq üzərində qurulub. Yəni deyə bilərəm ki, bugünkü mərasim dostluq mərasimidir, strateji tərəfdaşlıq mərasimidir. Əlbəttə ki, hər iki prezidenti bugünkü açılış münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu, Serbiya və Bolqarıstanın enerji təhlükəsizliyinə böyük töhfə verə biləcək layihədir. Eyni zamanda Azərbaycan xalqını təbrik etmək istəyirəm. Çünki Azərbaycanın qaz ixracı coğrafiyası daha da genişlənir".

Serbiyada da Azərbaycanı etibarlı tərəfdaş kimi yaxşı tanıyır və sevirlər. Bunu Serbiyanın mədən və energetika naziri xanım Dubravka Djedoviç Handanoviç interkonnektorun açılış mərasimindəki çıxışında dedikləri bir daha təsdiqlədi: "Bu layihə uzun illər bundan əvvəl planlaşdırılırdı. Onun həyata keçirilməsi çox uzun çəkdi və biz cəmi bir ildə işi tamamlamağa müvəffəq olduq. Biz qaz nəqli ilə bağlı Azərbaycandan olan dostlarımızla qısa zamanda razılığa gəldik. Əməkdaşlığa görə Azərbaycana, ilk növbədə, minnətdarlığımı bildirmək istəyirəm. Mən, eyni zamanda Prezident Əliyevə, Azərbaycandan olan həmkarlarımıza və bizimlə birgə gərgin çalışmış hər kəsə minnətdarlığımı bildirmək istərdim.Mən qonşularımızla, eləcə də Azərbaycanla daha yaxşı əlaqələrin qurulması istiqamətində göstərdiyi səylərə görə Serbiya Prezidentinə minnətdarlığımı bildirirəm. Azərbaycan sərhəd baxımından bizim qonşumuz olmasa da, sözsüz ki, o, bizim qəlbimizdə xüsusi yeri olan dostumuzdur".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## DOST 642 min vətəndaşa xidmət edib

**Bu ilin yanvar-noyabr aylarında DOST mərkəzlərində 642 min vətəndaşa xidmət göstərilib.**

DOST xidmətlərindən vətəndaşların məmnunluq səviyyəsi 97,7 faiz təşkil edib.

DOST mərkəzləri şəbəkəsinin genişləndirilməsi istiqamətində növbəti addım olaraq bu il avqustun 7-də Prezident İlham Əliyevin iştirakı ilə Bərdədə Qarabağ Regional DOST mərkəzinin açılışı olub. Beləliklə, DOST mərkəzlərinin sayı 7-yə çatıb.



Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası əsasında 159 sosial xidmət "bir pəncərə"dən, müasir və çevik, şəffaf mexanizmlərlə, vətəndaş rahatlığı və məmnunluğuna uyğun təqdim olunur.

"Könüllü DOST" proqramına isə bu ilin 11 ayında 22,7 minə yaxın müraciət olub və proqrama daha 1352 nəfər cəlb edilib.

## Tezliklə apteklərdə yerli dərmanların çeşidi artacaq

**Xəbər verildiyi kimi, Pirallahı Sənaye Parkında "Gen Pharma Caucasus Manufacturing Operations" MMC-nin dərman vasitələrinin istehsalı müəssisəsinin təməlqoyma mərasimi keçirilib. Bu, Azərbaycanda qeyir-neft sektorunda atılmış növbəti uğurlu addımlardan biridir.**

Ölkəmizdə müasir, yüksəkkeyfiyyətli və rəqabətqabiliyyətli məhsullar istehsal edən sənaye zonaları fəaliyyət göstərir ki, bu da aparılan sənayeləşmə siyasəti çərçivəsində qeyri-neft iqtisadiyyatının inkişafına xidmət edir. Bu baxımdan "Gen Pharma Caucasus Manufacturing Operations" MMC dərman istehsalında uğur əldə etməyə iddialı olan müəssisədir.

Məlumdur ki, tibbin bu sahəsi hər bir ölkənin strateji məsələlərindən biridir. Bu məsələdə ölkəmiz də istisna deyil. Amma Azərbaycanda dərman istehsalı üçün hər cür şərait olmasına baxmayaraq, 30 illik müharibə vəziyyəti bu işi həyata keçirməyə imkan verməyib. Bununla belə, yerli dərman istehsalına başlamaq məsələsi əlaqədar qurumlar və ayrı-ayrı şəxslər tərəfindən ara-sıra gündəmə çıxarılıb. İrəli sürülən təkliflərdə əsasən müştərək müəssisə yaradaraq dərman istehsalına başlamağa üstünlük verilib. Bir çox hallarda tanınmış, adlı-sanlı dərman şirkətlərinin bir neçəsi ilə birlikdə zavod açmağın üstünlüyü barədə fikirlər səslənib. Və səslənən təkliflər, irəli sürülən digər fikirlər Pirallahı Sənaye Parkının fəaliyyətə başlaması üçün zəmin yaradıb.




Ümumiyyətlə, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2016-cı ildə yaradılmış Pirallahı Sənaye Parkının fəaliyyəti əczaçılıq sənayesinin inkişafına, əhalinin dərman vasitələrinə olan tələbatının ödənilməsinə, istehsalın lokallaşdırılmasına və məşğulluğun artırılmasına xidmət edir. Parkda ümumi investisiyalarının həcmi təqribən 115 milyon manatdan çox 6 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək sənaye parkına rezidentlər tərəfindən 37 milyon manata yaxın investisiya qoyulub, 120-dən çox daimi iş yeri yaradılıb. Artıq qeydiyyata alınmış 6 rezidentdən 2-si fəaliyyət göstərir.

Pirallahı Sənaye Parkında fəaliyyətə başlamaq üçün təməli qoyulan "Gen Pharma Caucasus Manufacturing Operations" MMC Türkiyə ilə Azərbaycanın birgə yaratdığı şirkətdir. "Şirkət yaradılanda qarşıya qoyulan məqsədlərdən biri də digər istehsal sahələrinə nümunə olmaq idi". Bunu Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı deyib. Onu da qeyd edib ki, müəssisənin Azərbaycan İnvestisiya Şirkəti ilə birgə əməkdaşlığı nəticəsində yaradılması bir başqa əhəmiyyət kəsb edir: "Ümumilikdə türkiyəli investorların Azərbaycan İnvestisiya Şirkəti ilə birgə görüşlərini təşkil edirik. Şirkətlərin nümayəndələrinə Azərbaycan İnvestisiya Şirkəti ilə birlikdə investisiya yatırmalarına dair tövsiyələrimizi veririk".

Təməlqoyma mərasimində o da bildirilib ki, 2023-cü il iyulun 31-də Azərbaycan İnvestisiya Şirkəti, Türkiyənin "GEN İlaç ve Sağlık Ürünleri Sanayi ve Ticaret A.Ş" şirkəti və "SİA Pharmaceutical" MMC arasında Pirallahı Sənaye Parkında əczaçılıq zavodunun yaradılması üzrə Tərəfdaşlıq və Birgə İştirak Müqaviləsi imzalanıb. Sənədə əsasən, görülən işlər nəticəsində bu gün "Gen Pharma Caucasus Manufacturing Operations" MMC tərəfindən Pirallahı Sənaye Parkının 7,8 hektar ərazisində dərman istehsalı zavodunun təməli qoyulub. Azərbaycan İnvestiya Şirkəti "Gen Pharma Caucasus Manufacturing Operations" MMC-də 29 faizlik paya sahibdir.

Qeyd edək ki, Pirallahı Sənaye Parkı 20 və 10 hektarlıq iki hissədən ibarətdir və "Gen Pharma Caucasus Manufacturing Operations" MMC fəaliyyətə başladağı üçün burada birinci faza çərçivəsində boş yer qalmayıb.

Yeni yaradılmış bu müəssisədə Türkiyənin qabaqcıl texnologiyalarının tətbiqi ilə yüksəkkeyfiyyətli 42 adda müxtəlif doza və qablaşdırmada dərman məhsulları istehsal olunacaq. İnşa ediləcək zavodun investisiya dəyəri 59,3 milyon manatdır. Müəssisədə 165 nəfər daimi işlə təmin ediləcək. Pirallahı Sənaye Parkı əczaçılıq müəssisələri üzrə ixtisaslaşır, Tibb Universitetinin Əczaçılıq fakültəsi, eləcə də Səhiyyə Nazirliyi və tibb müəssisələri ilə sıx əməkdaşlıq edir.

Zavodun fəaliyyətə başlamasından sonra ölkədə bir sıra əczaçılıq məhsullarına tələbat yerli istehsal hesabına ödəniləcək, idxaldan asılılıq azaldılacaq. İllik istehsal gücü 50 milyon qutu nəzərdə tutulan zavodda istehsal edilən məhsulların daxili bazarda satılması ilə yanaşı, region ölkələrinə ixracı da planlaşdırılır.

*Züleyxa ƏLİYEVA ,*
*"Azərbaycan"*

## Əsas kapitala 15,7 milyard manatdan çox vəsait yönəldilib

**2023-cü ilin yanvar-noyabr aylarında əsas kapitala 15 milyard 725,9 milyon manat məbləğində, yaxud 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 16,5 faiz çox vəsait yönəldilmişdir.**

DSK-nın məlumatına görə, neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 24,7, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 12,5 faiz artmışdır. İstifadə olunmuş vəsaitin 9 milyard 422,3 milyon manatı və ya 59,9 faizi məhsul istehsalı sahələrinə, 5 milyard 498,6 milyon manatı (35,0 faizi) xidmət sahələrinə, 805,0 milyon manatı (5,1 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 12 milyard 207,7 milyon manatını və ya 77,6 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 11 milyard 463,6 milyon manatı və ya 72,9 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların öz vəsaitləri 46,1, büdcə vəsaitləri 40,5, əhalinin şəxsi vəsaitləri 6,3, bank kreditləri 2,5, sair vəsaitlər isə 4,6 faiz təşkil etmişdir.

## İqtisadi sektorda orta aylıq nominal əməkhaqqı 921 manatdır

**Bu il noyabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1729,4 min nəfər olmuş, onlardan 896,9 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 832,5 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.**

DSK bildirir ki, muzdla işləyənlərin 19,1 faizi təhsil, 18,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,9 faizi sənaye, 8,4 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,5 faizi tikinti, 6,4 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,7 faizi peşə, elmi və texniki fəaliyyət, 3,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,1 faizi maliyyə və sığorta fəaliyyəti, 14,7 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2023-cü ilin yanvar-oktyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,3 faiz artaraq 921,1 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.






# Gənclik






Gənclər siyasəti

**Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tuturdu. Böyük tarixi şəxsiyyət gənclərə, sabahımızın qurucularına xüsusi önəm verirdi, onların gücünə, qüvvəsinə və bacarığına inanırdı.**



## Onlar bizim sabahımızdır

Sağlam düşüncəli, milli ruhlu gəncliyin ümidlərini doğruldub vətənin gələcəyinə sahib çıxa bilmələrindən ötrü onlara diqqət və qayğısını bir an belə əsirgəmirdi.

Azərbaycan dövlətinə rəhbərliyi dövründə böyük rəhbər özünəməxsus müdrikliklə təlqin edirdi ki, milli dövlətçiliyimizin möhkəmləndirilməsi, Azərbaycanın əbədi müstəqilliyinin təmin olunması gənclərə həssas münasibətdən, onlara vətəndaşlıq hissinin aşılanmasından, dövlətin öz gənclərinə sahib çıxmasından, cəmiyyət həyatının bütün sahələrində təmsil olunmasına şərait yaradılmasından, onların aparıcı qüvvəyə çevrilməsinə dəstəkdən və bu qüvvədən milli hədəflər uğrunda məqsədyönlü istifadədən çox asılıdır. Buna görə də hələ ötən əsrin 70-80-ci illərində ölkəyə rəhbərlik etdiyi zamanlarda Ümummilli Liderin göstərişi ilə yüzlərlə azərbaycanlı gənc keçmiş ittifaqın aparıcı ali məktəblərinə, müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərilirdi. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, 1970-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə 1500-dən artıq azərbaycanlı gənc bu qayğı ilə əhatə olunmuşdu. Bütün bunlar Ulu Öndərin sabahımız olan gənclərə sevgisindən, diqqət və qayğısından, ölkəmizin işıqlı gələcəyini düşünməsindən xəbər verirdi. Həmin zamanlarda başqa ölkələrə təhsil almağa göndərilən bu gənclər illər sonra Ümummilli Liderin rəhbərliyi altında müstəqil Azərbaycanın qurulmasında fəal iştirak etməyə başladılar.

Xalqın ən fəal təbəqəsi olan gəncliyə böyük dəyər verən Ümummilli Lider Heydər Əliyev deyirdi: "Hər bir xalq özünün xoşbəxt gələcəyi olan ümidlərini ilk növbədə gənc nəsillərə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır".

Ümummilli Lider gənclərlə keçirdiyi mütəmadi görüşlərlə onlara nə qədər böyük dəyər verdiyini, bu insanları maraqlandıran məsələləri daim diqqətdə saxladığını, böyüməkdə olan nəslin gələcəklə bağlı ideyalarının, hədəflərinin mühümlüyünü göstərirdi. Gənc nəslin mənəvi, fiziki sağlamlığının, vətənpərvərlik ruhunda tərbiyəsinin, milli dəyərlərimizə bağlılığının nə qədər vacib məsələ olduğunu nümayiş etdirir, öz yanaşmaları ilə gənclərə şəxsi nümunə olurdu.

Ölkədə gənclər siyasətinin düzgün qurulmasını çox vacib və önəmli hesab edən Ulu Öndər Heydər Əliyev deyirdi: "Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır".

1993-cü ildə Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra gənc nəslə göstərilən diqqət və qayğını dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirdi. Azərbaycanı gənclər ölkəsi, gəncləri isə gələcəyimiz adlandırdı. Ulu Öndər böyüməkdə olan gənc nəslə qayğını hər zaman önə çəkdi. Hüquqi və dünyəvi dövlət quruculuğu prosesində onların gücünə, enerjisinə, bilik və savadına ehtiyac duyulduğunu düzgün qiymətləndirdi və bu istiqamətlərdə zəruri addımlar atdı. Zamanında atılan bu addımlar cəmiyyətdə gənclərin fəallığına, inkişafına hərtərəfli şərait yaratdı. Onların aparıcı qüvvəyə çevrilməsinə təkan verdi.

Gənclərin cəmiyyətdə rolunu daha da artırmaq məqsədilə Ulu Öndərin rəhbərliyi altında olduqca mühüm qərarlar qəbul edildi. Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1994-cü il tarixli fərmanı ilə ölkəmizdə Gənclər və İdman Nazirliyi yaradıldı. 1995-ci ildə Gənclər Təşkilatlarının Milli Şurası fəaliyyətə başladı. Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və bir çox vacib problemlərin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək məqsədilə Ümummilli Lider Heydər Əliyev tərəfindən 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürüldü. Bir il sonra Ulu Öndərin təşəbbüsü reallaşdı. 2 fevral 1996-cı ildə gənclərin I Forumu keçirildi. İlk forum Azərbaycanda gənclər siyasətinin müəyyən olunmasında böyük rol oynadı. 1997-ci il fevralın 1-də forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Ulu Öndər 2 fevralın Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında sərəncam imzaladı.

Heydər Əliyev həmişə gənclərimizə böyük ümidlər bəsləyir və dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir. Ona görə də Azərbaycanda demokratik cəmiyyət, hüquqi dövlət quruculuğu prosesinin ilk dönəmindən gənclər siyasətinin başlıca istiqmaətlərini müəyyənləşdirdi və onun icrasına doğru uğurlu addımlar atdı. O illərin gəncliyi vətən sevgisini, qəhrəmanlıq əzmini, Azərbaycanın müstəqilliyi, ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdəki iştirakı, şəhidlik məqamına qədər yüksəlməsi ilə sübuta yetirdi. Heydər Əliyevin irəli sürdüyü milli dövlətçilik kursu Azərbaycan gəncliyinə imkan verdi ki, öz əzmkarlıqlarını, yüksək potensiallarını cəmiyyət həyatının bütün sahələrində reallığa çevirib ən böyük tarixi qələbələri Azərbaycan dövlətinin qüdrəti ilə qazansınlar.

Dahi rəhbərin müəyyənləşdirdiyi gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda gənclər siyasətini daha da inkişaf etdirmək, onların dövlət qulluğunda məsul vəzifələrdə iştirakını təmin etmək, aparıcı qüvvəyə çevirmək və sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə ölkə rəhbərliyi bütün lazımi tədbirləri həyata keçirdi, önəmli dövlət proqramları qəbul olundu. Gənclərin ailə-məişət vəziyyətinin yaxşılaşdırılmasını, çətinliklərinin həllini daim diqqətdə saxlayan Prezident İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi siyasət ölkə gəncləri tərəfindən hər zaman yüksək dəyərləndirilir. Prezident İlham Əliyevin gənclərlə keçirdiyi görüşlərdə irəli sürülən təklif və təşəbbüslərin cəmiyyətdə dəstəklənməsi, real həyatda həllini tapması gənclərə dövlət qayğısının bariz nümunəsidir.

Ümummilli Lider Heydər Əliyev hər zaman Azərbaycan gənclərinə inandığını, dövlətimizin gələcək inkişafında onların üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edirdi. Bu gün gənclərimizin ölkənin siyasi, sosial-iqtisadi sahələrində mühüm vəzifələrə təyin olunması, onlara böyük etimad göstərilməsi Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan siyasətin uğurlu davamıdır.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Tribuna

## Bizi xoşbəxt həyata aparan lider

**Dünyaya gözümü açandan, ağlım söz kəsəndən ən çox eşitdiyim "həyat bir mübarizə meydanıdır, yaşamaq üçün gərək çalışasan" sözləri oldu. Uşaq idim, niyə bizim yaşamaq uğrunda mübarizə apardığımızı anlamırdım. Ətrafımızdakı uşaqlar xoşbəxt və qayğısız görünürdülər. Yaşamaq üçün mübarizə aparmırdılar... Çox dərdsiz, qayğısız idilər...**



Məktəbdə sinif yoldaşlarımdan, dərsdə müəllimlərimdən tez-tez "qaçqın", "köçkün" ifadələrini eşidirdim. Evdə anamın ümidsiz halda göyə uzanan əllərini, yalvarışlarını görürdüm.

Hər dəfə anama "bizim nə zaman öz evimiz olacaq" sualını verəndə, "qızım, tezliklə torpaqlarımız azad olacaq, bizim də ev-eşiyimiz olar" cavabını alırdım. Hər bayramda dua edirdik ki, gələn ilin bu gününü öz torpaqlarımızda keçirək. Artıq uşaqlığımı bu dualarla başa vurmuşdum. Qaçqınlıq, köçkünlük həyatı mənim xoşbəxt, qayğısız yaşamalı olduğum uşaqlığımı məndən və mənim kimi minlərlə uşaqdan almışdı.

Qohum-əqrəbanın danışdıqlarından, anamın xatirələrindən tanıyırdım Ağdamı - valideynlərimin doğulduğu Yusifcanlı kəndini... Açığını deyim ki, o torpaqları görəcəyimə inanmırdım. İşğal altında olan torpaqların azad edilə biləcəyini ağlıma belə gətirmirdim. Hər dəfə anam dua edəndə, "yox ana, bizim duamız qəbul olunan duaya oxşamır", - deyirdim.

Bir gün səhər top səslərinin gurultusuna oyandıq. Televizoru açanda müharibənin başlanması xəbərini eşitdik. Prezidentimiz xalqa müraciət edəndə onun üzündə qəzəbi, qətiyyəti, özünə inamı gördüm. Düyünlənmiş yumruğa baxıb sevincimdən göz yaşı axıtdım. Anladım ki, bu yumruq bizi evimizə aparacaq. Bu yumruq itirilmiş torpaqlarımızı qaytaracaq. Bu yumruq bizi evli-eşikli edəcək. İnandım ki, bu yumruq illərdir düşmənin bizdən aldığı nə varsa geri qaytarmaq üçün düyünlənib.

Hər dəfə torpaqlarımızın işğaldan azad edilmə xəbərini eşidəndə, kəndlərimiz, şəhərlərimiz azad olanda xəyalım məni Ağdama, Yusifcanlıya aparırdı... Özümə ev qururdum. Düşünürdüm ki, bundan sonra mən də kəndimiz, doğma torpaqlarımız haqqında danışa biləcəyəm. Sevinirdim ki, bizim mübarizəmiz yalnız yaşamaq üçün yox, vətən üçündür, torpaq üçündür, işğal olunmuş yurdumuzun azadlığı üçündur...

Artıq 3 ildir düşmən işğalı altında olan torpaqlarımız azad edilib. Azad olunmuş torpaqlarımız əsl abadlıq, quruculuq meydanına çevrilib. Doğma kəndlərini, rayonlarını valideynlərinin danışdıqları hekayələrdən tanıyan yüzlərlə gənc öz evinə qayıdır. Öz evində yaşamaq xoşbəxtliyinin nə olduğunu hiss edirlər...

Bütün bunlara Azərbaycan Prezidenti İlham Əliyevin dəmir iradəsi, qətiyyəti, prinsipial mövqeyi və apardığı uzaqgörən siyasəti nəticəsində nail olduğumuzu bilməyən, dərk etməyən tapılmaz. Prezident İlham Əliyev bizim xəyallarımızı gerçəkləşdirən, arzularımızı reallaşdıran, Qarabağı xilas edən, xarabazara çevrilmiş yeri cənnətə döndərib, yenidən Vətən edən tarixi şəxsiyyət, güclü liderdir.

Mən indi yalnız yaşamaq uğrunda yox, daha böyük işlər görmək üçün çalışan bir gəncəm. Prezidentimiz bizə təkcə torpaqlarımıza dönməyi deyil, həm də həyata, haqqa, ədalətə olan inamımızı qaytardı. Mən indi Ağcabədidə sahibkarlıq fəaliyyəti ilə məşğul oluram. Həyatda uğur qazanacağıma əminəm. Hesab edirəm ki, qazandığım uğurların əsl səbəbkarı, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevdir.

Qarşıdan növbədənkənar prezident seçkiləri gəlir. Bizə inam, yaşam həvəsi verən, Azərbaycan Ordusunu quran, xalqımıza qələbə sevinci yaşadan cənab İlham Əliyev Azərbaycan gəncliyinin ən uğurlu və inamlı namizədidir. Mən cənab İlham Əliyevə müraciət edirəm: "Cənab Prezident, Sizin Azərbaycana yenidən rəhbərlik etməniz bizim xoşbəxt, qayğısız, qürurlu həyatımız deməkdir".

*Zeynəb SEYİDOVA,*
*Ağcabədi rayonu*

Xəbərlər

## "Bakı Gənclər Debat Forumu: 2023" layihəsinin final və mükafatlandırma mərasimi keçirilib

**Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi və "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyinin təşkilatçılığı ilə "Bakı Gənclər Debat Forumu: 2023" layihəsinin final və mükafatlandırma mərasimi keçirilib.**



Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Debat forumunun məqsədi gənclər arasında "Heydər Əliyev İli"nin təbliğ olunması, natiqlik mədəniyyətinin inkişaf etdirilməsi vasitəsilə onların qərar vermə proseslərində, ictimai aktuallıq kəsb edən məsələlərdə, dövlət gənclər siyasətinin həyata keçirilməsində iştirakını təmin etməkdir. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunan Forumda 16 ali təhsil müəssisəsini və gənclər evlərinin üzvlərini təmsil edən 50 komanda mübarizə aparıb, 1000-dən çox gənc iştirak edib.

Açılış mərasimində çıxış edən Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov debat forumunun əhəmiyyətindən danışıb. Bildirib ki, forum gənclərin bacarıqlarının inkişafı üçün nadir platformadır.

## BDU-nun 8 tələbəsi "Heydər Əliyev adına təqaüd"ə layiq görülüb

**Bakı Dövlət Universitetinin (BDU) təhsildə yüksək nailiyyətləri olan 8 tələbəsi "Heydər Əliyev adına təqaüd"ə layiq görülüb.**




Verilən məlumata görə, BDU-nun tələbələri - Siyavuş Bağırov, Günay Abbasova (hüquqşünaslıq ixtisası), Rübabə Aslanova (riyaziyyat müəllimliyi ixtisası), Həbibə Cəfərova (iqtisadiyyat ixtisası), Mehrəngiz Qurbanova (Azərbaycan dili və ədəbiyyatı ixtisası), Hüseyn Quliyev (tarix ixtisası), Sibel Əsgərova (kompüter elmləri ixtisası) və Şəhanə Babazadə (coğrafiya müəllimliyi ixtisası) "Heydər Əliyev adına təqaüd"ə layiq görülüblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il 24 iyun tarixli sərəncamına əsasən, bakalavriat səviyyəsində əyani formada təhsil alan və təhsildə yüksək nailiyyətləri olan 100 nəfər tələbə üçün "Heydər Əliyev adına təqaüd" təsis edilib. Təqaüd dövlət büdcəsinin vəsaiti hesabına 3000 manat məbləğində birdəfəlik ödənilir.

Uğura imza atanlar

## Ağ xalatın ağ işığında...

**"Həkimlik fərqli sənətdir, ilahi peşədir... Ağ xalat mənim üçün ağ işıq deməkdir. Sənə dikilən gözlərdə ümid, təsəlli, öləzimiş baxışlarda işıq olmaq əsl həkim üçün bir stimuldur. Düşünürəm ki, özünə həkim deyən, əyninə ağ xalat geyən şəxsi "xəstədən nə alacağı" yox, xəstəni necə sağaldacağı düşündürməlidir.**



Kiçik yaşlarımdan bu arzu ilə böyümüşəm: yetişim, həkim olum... İndi arzuma çatsam da, hər dəfə xalatımı geyəndə, bir cərrahi əməliyyata girəndə elə zənn edirəm ki, imtahana gedirəm. Əməliyyatdan çıxanda, xəstəmi gülümsər gözlə, minnətdar baxışlarla mənə baxan görəndə "imtahandan uğurlu" çıxdığıma sevinirəm. Həkimliyin fəlsəfəsi də elə budur: xəstələrin gözündə ümid çırağı yandırmaq, şəfa vermək, onların ömrünün uzanmasına səbəb olmaq... Bir həkim kimi məni düşündürən budur. İstəyimə nail olduğumu hiss edəndə həyatda çox şey qazandığımı anlayıram..."

Redaksiyamızın budəfəki qonağı gənc həkim Fərid Mikayılov oldu. Birlikdə onun ömür hekayəsini vərəqlədik.

Fərid 1990-ci il fevralın 23-də Ucar rayonunda anadan olub. 2007-ci ildə Ucar şəhər 1 saylı orta məktəbi bitirib, elə həmin ili də yüksək nəticə ilə Azərbaycan Tibb Universitetinin 1-ci Mualicə işi fakültəsinə qəbul olunub.

2013-cü ildə Tibb Universitetini bitirən Fərid Mikayılov həkimlik fəaliyyətinə M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanada həkim-rezident olaraq başlayıb.

2016-cı ildə tibbdə uzmanlıq imtahanından uğurlu nəticə əldə edən gənc uroloq Türkiyənin Çukurova Universiteti Tibb fakültəsinin Urologiya şöbəsində təhsilini davam etdirib.

Universiteti bitirən gənc həkim Fərid Mikayılov 2021-2022-ci illərdə Türkiyədə özəl klinikada uzman uroloq olaraq fəaliyyət gostərib.

Fərid deyir ki, hələ tələbə ikən dostlarının çoxunun arzusu və məqsədi xaricdə təhsil almaq, dünyada tanınan məşhur klinikalarda fəaliyyət göstərmək idi. Qeyd etdiyim kimi, uşaqlıqdan hədəfimdə həkim olmaq arzusu var idi. Məqsədim isə dogma respublikamızda, vətənimizdə çalışmaq, xalqımıza xidmət etmək olub. Türkiyə bizim üçün çox doğma yerdir. Amma təbii ki, Azərbaycan deyil. Orada uzmanlıq təhsili aldım və bir müddət əmək fəaliyyətimi Türkiyədə davam etdirdim. Məqsədim doğma Azərbaycana gəlmək, burada çalışmaq idi. Orada olanda ölkəmizdə gedən prosesləri də izləmək imkanımız olurdu. Burada işləyən tələbə yoldaşlarımız, dostlarımız dövlətimizin səhiyyə sahəsinə diqqətindən, əhalinin sağlamlığına göstərilən dövlət qayğısından, səhiyyə sisteminin ən müasir texnologiyanın tətbiq edildiyi avadanlıqlarla təmin olunmasından bəhs edirdilər. Ölkəmizin səhiyyə sistemində baş verən dəyişiklikləri bir seyrçi olaraq izləmək yox, iştirakçısı olmaq arzusu ilə vətənə qayıtdım.

2022-ci ildə doğma Azərbaycana qayıdan Fərid bir müddət fəaliyyətini Bakıda Ege hospitalda davam etdirib. Elə həmin il respublika Klinik Xəstəxananın Urologiya şöbəsində iş təklifi alıb. Hazırda Urologiya şöbəsinin müdiri kimi fəaliyyətini davam etdirir.

Fərid həkim deyir ki, ölkəmizdə tibbi sığortanın tətbiqi xəstə-həkim münasibətlərində, bütövlükdə səhiyyə sistemində yeni mərhələnin başlanğıcı deməkdir. Xəstələr müayinə olunmaq, ən ciddi əməliyyatlara girmək üçün artıq "imkan düşməyi" gözləmirlər. Dövlətimizin yaratdığı şəraitdən kifayət qədər səmərəli istifadə edirlər. Bu gün xəstəxanalarda həkim qəbullarında yaranmış növbələri insanların pulsuz xidmətdən faydalanmaq əmsalının göstəricisi hesab etmək olar. İnanıram ki, yaxın gələcəkdə müalicə almaq üçün xarici ölkələrə gedən xəstələrin sayı azalacaq. Bunu gəlişigözəl söz kimi demirəm. Səhiyyəyə dövlət qayğısını, daha yaxşı həkim yetişdirmək üçün çəkilən zəhməti, alınan müasir avadanlıqlarını görüb deyirəm.

Peşəsini məftunluqla sevən Fərid həkimi dinlədikcə düşünürsən ki, nə qədər bu vətəni, bu xalqı canı qədər sevən insanlar var, yaşamağına dəyər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Jurnalist araşdırması

# Ölüm burulğanı

## Övladlarımızı narkomaniyadan necə qoruyaq?

*O elə bəladır ki, insanın ağlını, sağlamlığını, mənəvi keyfiyyətlərini məhv edib "sürünən ölü"yə çevirir...*

*O qədər qorxuludur ki, insan həyatında ən ağır fəsadlar yaradır, onu cəmiyyətdən təcrid edir, əzizlərinin əlindən alır...*

*Yenicə "işə" başlayanda təbəssüm, gümrahlıq, "enerji" bəxş edən bu bəla, zamanla gücünü, qüvvəsini, həyat eşqini əlindən almaqla, üzündəki təbəssümü donuq, kədərli, insanlıqdan çıxmış sifətlə əvəzləyir...*

*Bəzən tənhalıqdan, çarəsizlikdən, bəzən də problemlərdən, müəyyən psixoloji vəziyyətdən çıxış yolunu bu bəlada görərək onun girdabına düşənlərin əlindən tutan, düşdüyü bataqlıqdan dartıb çıxaran olmadığı üçün tədricən elə o burulğanda yox olurlar...*

*Taun kimi ən qorxulu xəstəliklərdən olan, irqindən, dinindən, yaşından asılı olmayaraq bütün bəşəriyyətə qənim kəsilən, sərhəd tanımayan narkomaniya bəlasının yaranma səbəbini, ondan qurtuluş, çarə yollarını araşdırmışıq...*

### "Ağ ölüm"ə qarşı valideyn məsuliyyəti

Narkotik maddələrdən istifadə edənlər çox yaşamır, bəzən gənc yaşlarında istifadə dozasının çoxluğundan dərhal ölür, bəzən isə aludəçiliyin qazandırdığı xəstəliklər nəticəsində həyatlarını itirirlər. Amma bu xəstələrin təcridi asılılıqdan xilas yolu sayılmır. Ən azından narkotik aludəçiləri üçün çarə bu deyil.

Pis vərdişlərə yiyələnmə həvəsi, daha doğrusu "fərqlənmək" istəyi əsasən gənc yaşlarda başlayır. Bu yolda ailə, ətrafdakı insanlar, şəxsi iradə, böyük rol oynayır.

Nə etməli, artıq "səndən adam olmaz deyib" atmalımı, yoxsa bu çirkabdan çıxmaq üçün əl uzatmalımı?

Çıxış yolu hər zaman var, təki insan bunu ürəkdən istəsin, ətrafdakılar kömək əlini uzatmaqdan, qınaqdan qorxmasınlar.

Hər il dünyada milyonlarla insan "ağ ölüm"ə doğru addım atır, minlərlə insan narkotikə qurşanmaq səbəbindən dünyasını dəyişir. Narkotikin vətəni Amerika, müəyyən dövrlərdə istifadəsinin geniş hal aldığı Avropa olsa da, artıq təhlükənin coğrafiyasında vəziyyət dəyişib.

Türkiyəli psixiatr, professor Kültegin Ögel narkotik aludəçilərinin müalicə və reabilitasiyasında tibbin ən son yeniliklərini tətbiq edərək onların yenidən cəmiyyətə inteqrasiyasında mühüm rol oynayan, müalicə metodları ilə Türkiyənin qabaqcıl klinikalarından olan Moodist Psixiatriya və Nevrologiya Klinikasının baş həkimidir. O deyir ki, dünyada narkotik istifadəçilərinin sayı getdikcə artsa da, Avropa və ABŞ-də bunun əksi müşahidə edilir. Çünki Qərb ölkələrində narkomaniyanın müalicə imkanları geniş olmaqla yanaşı, həm də xəstəliyin erkən diaqnostikası aparılır. Lakin bizim regionda, o cümlədən Türkiyə və Azərbaycanda narkotik istifadəçilərinin sayı ildən-ilə artır.

Professor bu sahədə davamlı araşdırmaların həyata keçirilməsinin vacibliyinə toxunaraq qeyd edir ki, hər il yeni növ narkotik maddələr yayıldığı üçün xüsusi tədqiqatlara ehtiyac var. İlkin mərhələdə isə narkomaniya ilə bağlı maarifləndirmə işi aparılmalıdır. Çünki narkotik istifadəsinə daha çox yeniyetmə dövründə başlanıldığı üçün ailələrin bu sahədə məlumatlı olması vacibdir. Övladının narkotik istifadə etməsindən şübhələnən valideynlər ona bildirmədən dəqiq məlumat toplamalı, daha sonra isə onu dinləməlidir. Çünki uşaqlar ailələrindən daha çox informasiyaya malik olduqlarına görə, valideynlər ayıq-sayıq davranmalıdırlar. Məsələn, heç vaxt narkotik maddənin özünü və şəklini görməyən ata-ana maddəni evdə görsə də, nə olduğunu bilməyəcək.

Araşdırmalar da göstərir ki, əksər pis vərdişlərə yiyələnmə yeniyetmə yaşlarında daha çox müşahidə edilir. Ailədaxili problemlər, yanlış tərbiyə, uşaqların çevrəsi buna səbəb olan amillərdəndir. Belə demək mümkündürsə, dostlarını düzgün seçə bilməyənlər "tora düşürlər". Təbii ki, bu, adətən, ailədən qaynaqlandığına görə, valideynlərin övladları ilə doğru münasibətindən, düşünülmüş davranışlarından, əlaqələrindən, tətbiq etdikləri qaydalardan çox şey asılıdır. Burada əsas məqam ata və ananın hər bir övladına fərdi yanaşmasıdır. Çünki hansı ailədə doğulmaqdan, böyüməkdən asılı olmayaraq, hər kəs fərqli xarakterə sahib olur.

Narkotik asılılığının səbəblərindən danışan professor Kültegin Ögel də bu məsələdə ailənin xüsusi rola malik olduğunu vurğulayır. Onun sözlərinə görə, narkotik istifadəsinin üç əsas səbəbi var, bu ailə, ətraf, genetik bioloji strukturdur: "Düzgün verilməyən ailə tərbiyəsi, ailədaxili münaqişələr, ata-ananın təşviqli olması belə problemlərə yol açır. Uşağın olduğu mühit də burada mühüm rol oynayır. Dostları arasında və ya ailəsində narkotik maddə və ya alkoqol istifadəçiləri olanlar, həmçinin zəif iradəlilər daha tez təsirə məruz qalırlar".

Psixiatr onu da qeyd edir ki, təkcə ailəsində və ya yaxın çevrəsində narkotik aludəçisi olan birinin gələcəkdə asılılıq qazanacağı mütləq deyil.

### Erkən müdaxilə ağır fəsadların qarşısını alır

Narkotikdən istifadəyə yeni başlayanları aşkarlamaq elə də asan deyil. Həkimin sözlərinə görə, ümumilikdə narkotik asılılığı çox yavaş inkişaf edir, yəni istifadəçinin üzünə, gözlərinə, davranış dəyişikliklərinə baxaraq bunu anlamaq olmur. Xüsusilə yeniyetmələrdə bunu müəyyənləşdirmək çətindir, çünki bu dövrdə onlarda əsəbilik, dost-tanışını dəyişmək hallarına çox rast gəlinir. Bu isə həmişə həmin uşağın narkotik istifadəçisi olduğunun göstəricisi ola bilməz.

Mütəxəssis bildirir ki, valideynlər və uşaqlar arasında yaxşı əlaqənin olması bu baxımdan çox önəmlidir: "Əslində, uşaqlar ata-analarının onlara acıqlanmadıqları halda səhvlərini etiraf etməyə meyilli olurlar. Lakin uşaq pis vərdişini "siqaret çəkdiyini eşitsəm ayaqlarını qıraram" deyən valideynindən gizlətməyə üstünlük verir. Yeniyetmələr anlayışlı valideynlərə isə səhvlərini deməkdə daha ürəkli olurlar".

Ümumiyyətlə, bir çox xəstəliklərdə olduğu kimi narkomaniyada da erkən müdaxilə ağır fəsadların qarşısını alır.

K.Ögel qeyd edir ki, xüsusilə yeniyetmə dövründə formalaşma getdiyi üçün narkotik vasitədən istifadənin daha tez aşkarlanması və erkən müdaxilə bəlanın qarşısını almaqda mühüm rol oynayır: "Alkoqollu içkilərə üstünlük verən məktəblilərin dərslərində müvəffəqiyyət göstəricisi aşağı düşür, nəticədə gələcək həyatı məhv olur. Lakin valideynlər bilməlidirlər ki, övladlarının bir dəfə narkotik maddədən istifadə etməsi dünyanın sonu demək deyil. Əsas olan 18-21 yaşına qədər bunu tərgitməsidir. Narkotik asılılığından tamamilə zərərsiz çıxmaq mümkün olmasa da, amma zərəri minimuma endirmək mümkündür. Narkotik istifadəsinə əsasən erkən yaşlarda başlanılsa da, bu dövrdə asılılıq halları çox müşahidə olunmur. Aşağı yaşlardan narkotik vasitələrdən istifadə edənlərin gələcəkdə aludəçi olma ehtimalı isə 80 faizdir. 35 yaşdan sonra istifadəyə başlayanlarda isə asılılıq o qədər də yaranmır. Bu baxımdan ən riskli dövr yeniyetməlikdir".

Həkimin dedikləri də göstərir ki, narkotik istifadəçilərinin ailə üzvləri və dostları tərəfindən kənarlaşdırılması, yaxınlarının çarəsizliyə düçar olmuş kimi aludəçidən əlini üzmələri çıxış yolu deyil. Hər çətinliyin mütləq bir həlli var, sadəcə bunu ürəkdən istəməli, istifadəçidə də bu istəyi yaratmaqla, onu gələcəyə inandırmaq lazımdır.

### Müalicədə tətbiq edilən yeniliklər

Moodist Psixiatriya və Nevrologiya Klinikasında fərdi, qrup və ailə terapiyasından birgə istifadə edilir. Kültegin Ögel bildirir ki, bu terapiyaların ayrı-ayrılıqda effekti olmur, çünki narkotik aludəçisinin özü ilə yanaşı, ailəsi və ətrafı da dəyişməlidir. Bu problemin ortaya çıxmasında, adətən, valideynlərin yol verdikləri səhvlər rol oynadığına görə, ilk növbədə, ailədaxili münasibətlərin dəyişməsi vacibdir. Qrup terapiyaları onlara bir çox bacarıqlar qazandırır. Bununla pasiyentlər səbirli olmağı, düzgün danışmağı, doğru münasibətlər qurmağı öyrənirlər. Fərdi terapiyalar isə psixoloji faktorları ortaya çıxarmaq üçün önəmlidir.

Professor qeyd edir ki, narkomaniyanın müalicə müddəti 12 aydır. "İlk bir ay orqanizmin təmizlənməsi üçün dərman müalicəsi tətbiq olunur. Üçüncü aya kimi xəstə müəyyən qədər özünü toparlaya bilir. 3-6 və ya 3-9 ayda isə reabilitasiya aparılır. Yeni həyata adaptasiya 12 ay çəkir. Hansı müddətdə narkotik istifadə etməsindən asılı olmayaraq, müalicə dövrü bir ildir", - deyə K.Ögel bildirir. Onun sözlərinə görə, son dövrlər müalicə məqsədilə narkotik maddə və alkoqol istəyini



azaldacaq dərmanlardan, eləcə də 3 aylıq təsirə malik iynələrdən istifadə olunur. Bu zaman narkotik istifadə etsələr belə, həzz almadıqları üçün onu dayandırırlar. Müalicədə istifadə olunan dərmanları yalnız 17 yaşdan başlayaraq tətbiq etmək mümkündür. Daha aşağı yaşlı istifadəçilərin müalicəsində isə psixoloji terapiyaya üstünlük verilir.

Baş həkim narkotik aludəçilərinin müalicəsi üçün çoxsaylı metodlar olduğunu qeyd edərək hər kəsə uyğun üsulun tətbiqinin vacibliyini bildirir: "Digər terapiyalar da dərman müalicəsi ilə yanaşı, aparılmalıdır. Müalicə bitdikdən sonra həmin şəxslərdə depressiv hallara çox rast gəlindiyinə görə onlarla vaxtaşırı görüşlər keçirilir. Əslində, narkotik aludəçilərinin 90 faizinin psixologiyasında müəyyən problemlər olduğundan asılılıq keçdikcə, bu yenidən ortaya çıxır".

Mütəxəssis deyir ki, gənclər müalicəyə daha gec uyğunlaşırlar və ya ümumiyyətlə, uyğunlaşmaq istəmirlər. Həkimin fikrincə, bu, yeniyetmələrin digər məsələlərə yanaşmasında da belədir. Buna görə də narkoloji müalicə yaş qruplarına uyğun aparılmalıdır. Moodist bunu tətbiq edən qabaqcıl klinikalardan biridir.

Həkim hətta "kaprizli" yeniyetmələrin xəstəxanadankənar müalicəsinin də mümkün olduğunu deyir: "Yeniyetmələr müalicə üçün klinikaya gəlmək istəməyəndə ailələri ilə görüşürük. Müalicəsini apardığım, lakin özlərini heç görmədiyim aludəçi gənclər var. Belə istifadəçilərin müalicəsi ailələri vasitəsilə aparılır, bəzən valideynlərə verilən tövsiyələr onların övladlarına münasibətini dəyişdirir, nəticədə isə narkotik asılılığına son qoyulur".

Yəni narkotik istifadəçisinin özü klinikaya getmədikdə müalicə dövrünün daha çətin olmasına baxmayaraq, inkişafda olan tibb bunu mümkünsüz etmir.

### Narkotik aludəçilərinin 75 faizi asılılıqdan xilas ola bilər

Təcrübələr göstərir ki, narkotik aludəçiliyindən xilas olmuş şəxslər bu yola yenidən üz tuta bilərlər. Bu, əsasən, həmin şəxsin ailəsində və ətrafında heç bir dəyişikliyin olmaması ilə bağlıdır.

Baş həkim qeyd edir ki, narkotik asılılığından xilas olmuş şəxslərin 70 faizi yenidən bu maddədən istifadə edə bilər. Orqanizm iki həftəyə narkotikdən təmizlənsə də, bu, həmin şəxsin bir də bu maddədən istifadə etməyəcəyi anlamına gəlmir. Ona görə də təkrar narkotik istifadəsinin qarşısını almaq üçün preventiv tədbirlər həyata keçirilməlidir. İstənilən halda dərman müalicəsi ilə psixoloji dəstək yanaşı aparılmalıdır.

Asılılıqdan xilas olmuş şəxsin boşbekar qalmaması da təkrar istifadənin qarşısının alınmasında mühüm faktordur: "Aludəçilikdən azad olmuş şəxs hansısa işlə məşğul olmalıdır. Ətrafını dəyişməli, özünə baxmalı, məsuliyyətini dərk etməlidir. Yalnız narkotik maddəni tərgitmək çıxış yolu deyil, həyat tərzini dəyişdirmək şərtdir".

K.Ögel onu da vurğulayır ki, aludəçiliyin sosial statusla birbaşa əlaqəsi yoxdur. Maddi vəziyyəti çox yaxşı olsa da, narkotik və ya alkoqol asılılığından əziyyət çəkənlərin çoxluq təşkil etməsi bunu sübut edir. Burada əsas faktor narkomaniyaya meyilli insanın boş qalmaması, özünə hansısa məşğuliyyət tapmasıdır. Səhərdən axşama kimi heç bir işi olmayanların, dostları ilə davamlı boş vaxt keçirənlərin aludəçi olma ehtimalı, təbii ki, yüksəkdir.

Həkim qeyd edir ki, narkotik aludəçilərinin 75 faizi asılılıqdan azad ola bilsə də, cəmiyyət 25 faizi daha çox görür. "Narkotik asılılığı müalicə oluna bilən xəstəlikdir" - elə əsas şüarın da bu olması sübut edir ki, mütləq ki, bir çıxış yolu, çarə var.

Mütəxəssislər ailədaxili münasibətlərin uşaqların psixologiyasına böyük təsiri olduğunu daim vurğulayırlar. Bununla yanaşı, valideyn və uşaq arasında bağlar, güvən, inam da uşağın pis vərdişlərə yiyələnməsinin qarşısının alınmasında mühüm rola malikdir.




Baş həkimin fikrincə, narkotik istifadəçilərinin ailələri ilə bağlı çoxlu araşdırma aparılıb. Narkotik asılılığından xilas olmada ailədaxili bağların möhkəm olması mühüm şərtdir: "Ailə üzvlərinin birlikdə vaxt keçirməsi - yemək yemək, gəzmək çox vacibdir. Bundan başqa, valideynlər və uşaqların əlaqələrinin yaxşı olması mühüm rol oynayır. Məsələn, birlikdə nələrisə müzakirə edə, söhbət edə bilirsizmi? Ata və ananın qaydaları tətbiq etmə bacarığı da bu xüsusda çox önəmlidir. Təcrübə göstərir ki, ən çox problemlər ailələrin qayda qoymağı bacarmaması ilə bağlıdır".

### Cəmiyyətdən təcrid asılılığı daha da artırır

Mütəxəssislər qeyd edirlər ki, cəmiyyətdən uzaqlaşdıqca zərərli vərdişlərə asılılıq artır. Narkotik asılılığında məktəb həyatının da mühüm rolu olduğunu qeyd edən həkim bildirir ki, uşaq narkotik istifadə etdiyinə görə məktəbdən atılarsa, bu zaman daha çox boş vaxtı olduğu üçün narkotik aludəçiləri ilə oturub-duracaq. Bu baxımdan, həmin uşaqlar tədrisdən uzaqlaşdırılmamalı, daim nəzarət altında saxlanılmalıdırlar. Məktəbdən kənarlaşdırmaq əvəzinə, ona əlavə dərs yükü verilməlidir. Belə olan halda narkotik istifadəçisi digər uşaqlara da pis təsir edə bilmir. Onun göstəriciləri yüksəldikcə narkotikdən istifadəsi də azalır.

Bununla bağlı Türkiyədə keçirilən layihənin nəticələri effektini verib. Belə ki, təcrübə müddətində məktəblilərə həftədə iki saat əlavə dərs verilib. Beləliklə, istifadəçilərin 60 faizi narkotik maddənin qəbulunu dayandırıb. Həkim əgər xəstə narkotiki tərgitmir deyə ona "bir də gəlmə" desə, asılılığı daha da artar. Narkotik istifadəçiləri müalicə ilə yanaşı, cəmiyyət arasında olduqları halda daha tez sağalırlar. Bəzi Avropa ölkələrində müəyyən narkotik maddələrin qanuni verilməsi də bununla bağlıdır. Həmin şəxsi cəmiyyətdən təcrid etməmək, qara bazardan daha ağır maddələr əldə etməməsi üçün belə addım atırlar.

Narkotik asılılığının qaydasızlıq xəstəliyi olduğunu qeyd edən K.Ögel bildirir ki, hədsiz qadağalar da, heç bir qadağa qoymamaq da qaydasızlıqdır: "Bir gəncə "saat 5-də evdə olacaqsan" demək mümkün deyil, çünki o yaşda birisini bu vaxt evə sala bilməzsən. Amma "axşam gec qalma" demək də qayda deyil. "Saat neçəyə kimi" sualı ortaya çıxır. Valideynlər bir qadağa qoyanda onu ən azı 3 ay tətbiq etməlidirlər. Bəzən ata və ya ana bir qayda qoyur, sabah onu tətbiq etmir, bu da yanlış addımdır".

Onun sözlərinə görə, narkotikə meyilli insanlar üzərlərinə heç bir məsuliyyət götürmürlər. "Sən bunu edə bilməzsən", "bacarmazsan", "dəymə" kimi sözlər ailənin övladına məsuliyyət yükləmədiyini göstərir. Bu baxımdan da professor illər ərzində bir dəfə olsun məsuliyyətini dərk edən narkotik istifadəçisi görmədiyini vurğulayır.

Qeyd etdiyimiz kimi, narkotik istifadəçisini bu yola düşdüyü üçün ailədən məhrum etmək doğru addım deyil. Hər şeydən öncə ailə dəyərdir. Bir insan ən dəyərlilərini itirdikdən sonra sabaha ümidi qala bilərmi? Əlbəttə ki, yox!

K.Ögel də vurğulayır ki, ümid olmadığı zaman insan eyni qalmağı seçir. Bu baxımdan çətin dönəmdə ailə üzvlərinin dəstəyi hər şeydən vacibdir.

Son illərdə boşanmaların sayının artdığı məlumdur. Boşanma səbəbləri arasında narkotik və alkoqol asılılığının üçüncü yerdə olması daha diqqətçəkən məqamdır. Burada iki səbəb ola bilər. Ya narkotik və alkoqol istifadəçilərinin sayının artması, ya da əvvəlki dövrlərdən fərqli olaraq kişi və qadının bir-birinə dözmək məcburiyyətinin olmamasını düşünməsidir. Amma qeyd edək ki, narkotik və alkoqol istifadəsinə görə qadın və ya kişinin evi tərk etməsi, boşanması, ailə institutunun dağılmasına gətirib çıxarmaqla yanaşı, bəzən həmin insanların "ağ ölüm"dən heç vaxt xilas olmayacağı ilə bağlı ümidsizlik sindromuna, bəlkə də bu yuxudan ayılmamaq istəyinə səbəb olur.

Mütəxəssis deyir ki, ailədə narkotik istifadəçisi olduqda həyat yoldaşı ilkin mərhələdə ona həkimə gedib müalicə almağını və narkotikdən istifadəni 3 ay ərzində dayandırmağını istəməlidir. Narkotik vasitədən istifadə edəcəyi halda evi tərk edəcəyini deyə bilər. Amma mütləq vaxt verilməlidir. Üç ay sonra aludəçidə dəyişiklik varsa, o zaman evliliyə davam edərək 12 aya qədər narkotik asılılığından xilas olması üçün şans verilir. Bu halda təkrar qəbul etdiyi halda evdən gedəcəyi barədə xəbərdarlıq edə bilər. Əgər şəxs narkotik istifadəsinə davam edərsə, o zaman evdən getmək olar, amma bu vaxt da boşanmaq üçün tələsmək lazım deyil. Yoldaşımızın narkotik maddə istifadəsinə davam etdiyi halda boşana bilərsiz. Mərhələli şəkildə şans vermək lazımdır, çünki asılılıqdan xilas olmaq zaman tələb edir.

### Gizlilik narkomaniyanı inkişaf etdirir

Bəzən narkotik, alkoqol və tütün asılılığından xilas olmaqda hipnoz texnikalarının müəyyən rol oynadığını deyirlər. Professor qeyd edir ki, hipnoz yalnız siqareti tərgitmək üçün effektlidir. Bu da əsasən inamla bağlıdır və qısa vaxt təsiri olur. Bu üsulun narkotik asılılığın müalicəsində tətbiqi fayda vermir.

K.Ögel sonda baş həkimi olduğu Moodist Psixiatriya və Nevrologiya Klinikasındakı yeniliklərdən söz açdı. Hazırda klinikada daha yaxşı və tez diaqnoz qoymaq üçün araşdırmalar davam edir: "Fərdiləşdirilmiş müalicə metodları üzərində işləyirik. Digəri isə aludəçinin asılılıq müddətində problemi ilə üzləşməsidir. Bu, psixoloji təlimdir. Üçüncüsü də asılılığın müalicəsinin necə davam etdiyinin müşahidə edilməsidir. Bununla bağlı elektron məlumat saytı yaradılıb və üzərində iş gedir".

Professor Kültegin Ögel qeyd edir ki, mədəniyyətləri eyni olan ölkələrlə bu sahədə çalışmaq, tərcrübələri bölüşmək mümkündür. Bu baxımdan Azərbaycan və Türkiyənin bu sahədəki əməkdaşlığı effektivdir.

Narkomaniya həm də oxşar mədəniyyətə malik ölkələrin birgə problemidir. Məsələn, Türkiyədə kiminsə narkotik istifadə etdiyini danışmamaq, gizlətmə hallarının olması Azərbaycanda da mövcuddur. Gizlilik isə asılılığı inkişaf etdirir.

*Bir sözlə, yeniyetməlik elə bir dövrdür ki, onlar çox səhvlərə yol verə, pis vərdişlərə təhrik edilə və maraq göstərə bilirlər. Amma hər kəsin həyatda ən azı bir şans haqqı var. Hələ də əsrin bəlasına çevrilən narkomaniyadan xilas olmağın yolu birlikdə mübarizədirsə, bunun üçün valideynlərin övladlarının etdiyi səhvləri ört-basdır etmədən onların sağlam gələcəyinə dəstəyi hər şeydən önəmlidir.*

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Polis əməkdaşları paytaxtda və müxtəlif rayonlarda avtomat, tapança və tüfəngləri təhvil götürüblər

Polis əməkdaşları qanunsuz saxlanılan odlu silahların könüllü təhvil verilməsi ilə bağlı profilaktiki tədbirləri davam etdirir.

Bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Dekabrın 12-də polis əməkdaşları paytaxt və respublikanın ayrı-ayrı rayonlarında 1 avtomat, 1 tapança, 2 patron darağı, 36 müxtəlif çaplı patron və 22 müxtəlif markalı tüfəng təhvil götürüblər.

Keçirilən əməliyyat tədbirləri ilə qanunsuz saxlanılan üç tüfəng aşkarlanaraq götürülüb.

## Gəncədə narkotik vasitənin təsiri altında avtomobil idarə edən sürücülər saxlanılıblar

Gəncə Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlər nəticəsində narkotik vasitənin təsiri altında avtomobil idarə edən "VAZ" və "KİA" markalı avtomobillərin sürücüləri saxlanılaraq barələrində qanunamüvafiq tədbir görülüb.



Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, keçirilən monitorinqlər nəticəsində şəhər ərazisində yol hərəkəti qaydalarını və ictimai asayişi nümayişkaranə şəkildə pozan "VAZ 2107" markalı avtomobilin istismarı dayandırılaraq sürücü barəsində protokol tərtib edilib. Araşdırmalar zamanı "Range Rover" markalı avtomobilin sürücünün qanunla qadağa edilmiş səs siqnalından istifadə etməsi də müəyyən olunub. Sürücü barəsində tərtib olunan protokol və səs siqnalı müsadirə edilməsi üçün məhkəməyə göndərilib.

Bundan başqa, keçirilən mütəmadi tədbirlər nəticəsində bir qrup gəncin özlərinə məxsus müxtəlif markalı avtomobillərlə qanunla qadağan edilməsinə baxmayaraq, avtomobilə konstruksiya dəyişikliyi edərək digər hərəkət iştirakçılarına təhlükə yaratdığı məlum olub. Həmin sürücülər saxlanılaraq profilaktiki söhbət aparılıb və barələrində qanunamüvafiq tədbir görülüb. Qanunsuz dəyişikliklər aradan qaldırıldıqdan sonra nəqliyyat vasitələri istismara buraxılıb.

## Cinayət törətməkdə şübhəli bilinən 45 nəfər saxlanılıb

Dekabrın 12-də ölkə ərazisində qeydə alınan 47, əvvəlki dövrlərdən bağlı qalan 15 cinayətin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.



Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, axtarışda olduğuna görə ümumilikdə 131, o cümlədən borclu şəxs qismində axtarışda olan 111 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Narkotiklərlə əlaqəli 25, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 29 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 45 nəfər saxlanılıb.

## Xeyli miqdarda pirotexniki vasitə və ratsiya aşkar edilib

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən verilən məlumata görə, daxil olmuş əməliyyat məlumatı əsasında Tovuz Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunda Gürcüstan Respublikasından ölkəmizə gələn yük nəqliyyat vasitəsinə gömrük baxışı keçirilib.

Baxış zamanı həmin nəqliyyat vasitəsinin yük yerində ölkəyə qaçaqmalçılıq yolu ilə gətirilən 32,472 ədəd müxtəlif adda pirotexniki vasitə və 70 ədəd ratsiya aşkar edilib.



*Təkrar*

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu *tender elan edir*

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu fondun Aparatında və digər struktur bölmələrində əmək pensiyalarının, sosial müavinətlərin, sosial yardımların, eləcə də ayrı-ayrı kateqoriyalı şəxslərə Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin edilmiş təqaüdlərin və kompensasiyaların ödəniş kartları, habelə zərurət olduğu halda digər ödəniş alətləri və üsulları vasitəsi ilə nağdsız qaydada ödənilməsini həyata keçirmək məqsədilə göstəriləcək bank xidmətlərinin satın alınması ilə əlaqədar tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi 80 (Əlaqə nömrəsi: (012) 434-52-59 e.poçt: **tender@sosial.gov.az)** ünvanında yerləşən fondun Aparatının inzibati binasından ala bilərlər.

**İştirak haqqı: 215,00 (iki yüz on beş) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
Büdcə gəlirlərinin təsnifat kodu: -142330
Büdcə səviyyəsinin kodu : - 4

**"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun (bundan sonra - Qanun) 29.4-cü maddəsinə əsasən, tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Tenderdə iştirak etmək üçün tələb olunan sənədlər:**

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə, bank lisenziyası (Sənədin əsli və ya notarial qaydada təsdiqlənmiş surəti) və rekvizitləri.*
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
3. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə məlumat* ***(uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin əsli təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); 01.11.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir.***
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2022-ci il üzrə); Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir.*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarına dair müstəqil auditorun hesabatı.*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd* ***(Malgöndərən (podratçı) tərəfindən hazırlanır. Maddi - texniki baza barədə ümumi məlumat, işçilər barədə məlumat, əmək müqaviləsi bildirişləri, təcrübəni təsdiq edən digər sənədlər).***
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması* ***(direktor/sədr təyin edilməsi barədə əmr, malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışı və vergi uçotunda olduğunu təsdiq edən sənəd (notarial təsdiq edilmiş).***
9. *İri sahibkarlıq meyarına uyğun olması barədə məlumat* ***(Dövlət Statistika Komitəsindən alınmalıdır); 10.05.2023 -cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir.***
10. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması* ***(Uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin əsli təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Eyni zamanda ASC və ya QSC olduğu halda Milli Depozit Mərkəzindən arayışın alınması mütləqdir); 01.11.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir.***
11. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat (Malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən (məhkumluq ilə bağlı arayış) alır. 01.11.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (notarial qaydada təsdiq olunmuş surətləri) tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 09.01.2024-cü il saat 11:00-a qədər, tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 17.01.2024-cü il saat 17:00-a qədər Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi 80 ünvanında yerləşən fondun Aparatının inzibati binasına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı 18.01.2024-cü il saat 11:00 -da Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi 80 ünvanında yerləşən fondun Aparatının inzibati binasında Tender komissiyasının iştirakı ilə aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu *tender elan edir*

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu fondun Aparatında əməkhaqlarının, dövlət icbari şəxsi sığortası üzrə sığorta ödənişlərinin və digər struktur bölmələrində əməkhaqlarının, əmək pensiyalarının, sosial müavinətlərin, sosial yardımların, eləcə də ayrı-ayrı kateqoriyalı şəxslərə Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin edilmiş təqaüdlərin və kompensasiyaların ödəniş kartları, habelə zərurət olduğu halda digər ödəniş alətləri və üsulları vasitəsi ilə nağdsız qaydada ödənilməsini həyata keçirmək məqsədilə göstəriləcək bank xidmətlərinin satın alınması ilə əlaqədar tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu Həsən Bəy Zərdabi 80 (Əlaqə nömrəsi: (012) 434-52-59 e.poçt: **tender@sosial.gov.az)** ünvanında yerləşən fondun Aparatının inzibati binasından ala bilərlər.

**İştirak haqqı: 215,00 (iki yüz on beş) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
Büdcə gəlirlərinin təsnifat kodu: -142330
Büdcə səviyyəsinin kodu : - 4

**"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun (bundan sonra - Qanun) 29.4-cü maddəsinə əsasən tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Tenderdə iştirak etmək üçün tələb olunan sənədlər:**

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə, bank lisenziyası (Sənədin əsli və ya notarial qaydada təsdiqlənmiş surəti) və rekvizitləri.*
2. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).
3. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə məlumat* ***(uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin əsli təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); 01.11.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir.***
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti* ***(2022-ci il üzrə); Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir.***
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarına dair müstəqil auditorun hesabatı.*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd* ***(Malgöndərən (podratçı) tərəfindən hazırlanır. Maddi - texniki baza barədə ümumi məlumat, işçilər barədə məlumat, əmək müqaviləsi bildirişləri, təcrübəni təsdiq edən digər sənədlər).***
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması* ***(direktor/sədr təyin edilməsi barədə əmr, malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışı və vergi uçotunda olduğunu təsdiq edən sənəd (notarial təsdiq edilmiş).***
9. *İri sahibkarlıq meyarına uyğun olması barədə məlumat* ***(Dövlət Statistika Komitəsindən alınmalıdır); 10.05.2023 -cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir.***
10. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması* ***((Uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin əsli təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Eyni zamanda ASC və ya QSC olduğu halda Milli Depozit Mərkəzindən arayışın alınması mütləqdir); 01.11.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir.***
11. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat* ***(Malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən (məhkumluq ilə bağlı arayış) alır. 01.11.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir.***

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (notarial qaydada təsdiq olunmuş surətləri) tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 09.01.2024-cü il saat 11:00-a qədər, tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 17.01.2024-cü il saat 17:00-a qədər Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi 80 ünvanında yerləşən fondun Aparatının inzibati binasına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı 18.01.2024-cü il saat 11:00 -da Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi 80 ünvanında yerləşən fondun Aparatının inzibati binasında Tender komissiyasının iştirakı ilə aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə* *2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**


AZƏRBAYCAN
Əbədi ehtiram nümunəsi
Prezident İlham Əliyev COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı paylaşım edib
Birinci vitse-prezident Mehriban Əliyeva Ulu Öndərin anım günü ilə əlaqədar paylaşım edib
Xalqın seçimi İlham Əliyevdir
Qlobal layihələr müəllifi
Ermənistan son sülh şansından bəhrələnə biləcəkmi?
Dünya ölkələrinin əksəriyyəti Azərbaycanı dəstəkləyirlər

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# Parisə ümid etmə, Bakısız mümkün deyil!

## Qərbə qucaq açan Paşinyan çətin sınaq qarşısındadır



Hayastanın müstəqilliyinin formal olduğu məlumdur və bunu bütün dünya bilir. Ölkədə indiyə qədər hakimiyyətdə olmuş bütün siyasi qüvvələr öz fəaliyyətlərini xarici diktələrin təsiri ilə həyata keçiriblər.

Hər sahədə yaranmış problemlərin altında əzilən ölkənin baş naziri Nikol Paşinyan çıxış yolunu Qərbə sığınmaqda görür, onun verdiyi vədlərə güvənir. Paşinyan hakimiyyətinin nümayiş etdirdiyi xarici siyasət bunu təsdiqləyir. O, Rusiyanın xeyrinə olmayan istiqamətdə israrlı davranmağa çalışır. Elə bunun nəticəsidir ki, artıq Qərb Hayastandan növbədənkənar parlament seçkiləri keçirməyi tələb edir.

Erməni politoloq Akop Badalyan deyib ki, Hayastanda növbədənkənar parlament seçkisinin keçirilməsi ehtimalı azdır. İstənilən halda burada ictimai əhvali-ruhiyyə əsasdır, lakin növbədənkənar seçkiyə ictimai tələb yoxdur. İnsanların əksəriyyəti hakimiyyətin dəyişməsini istəyir. Amma bu istək özlüyündə o demək deyil ki, belə addımlar atmaq olar. Təbii ki, aydın perspektiv olmalıdır. Hayastanda xarici təsir həmişə yüksək olub.

İrəvanda hakimiyyətdə qalmaq məsələsi xarici mühitdən asılı olacaq və bu gün yaranmış vəziyyət çoxları üçün faydalıdır. Bundan başqa, Hayastanda, doğrudan da, hakimiyyətə gəlib məsuliyyəti öz üzərinə götürmək istəyən siyasi qüvvə yoxdur. İndi Paşinyan Qərbi regiona cəlb etməyə çalışır, amma onların buna imkanı və istəyi yoxdur, hər şey söz üzərində qurulub, praktikada konkret addım görünmür.

Badalyan vurğulayıb ki, Hayastan KTMT əleyhinə bəyanatlarla Qərbi nəyəsə məcbur etməyə çalışır. Cənubi Qafqazda Rusiya olmasa belə, regiona gələn istənilən yeni oyunçu Türkiyə və Azərbaycanla razılığa gəlməlidir: "Yalnız bu halda təhlükəsizlik sahəsində yeni oyunçu meydana çıxa bilər. Söhbət Fransadan gedir. Ona görə də bizim xəyali məntiqimizlə bu ola bilməz. Rusiya yoxdursa, o zaman bu, Türkiyə, Azərbaycan və İranla müqaviləsi olan ölkə olmalıdır. Hazırda Hayastan hakimiyyəti öz bəyanatları ilə bizi illüziyalara qərq edir. İllüziyaların tələsinə düşməmək və fəlakətdən qaçmaq üçün vəziyyəti dəyərləndirməyi bacarmalıyıq".

Bu arada Hayastanda siyasi və iqtisadi problemlər daha da artmaqda davam edir. "Lragir" qəzeti yazır ki, ölkəni iqtisadi sahədə çətin günlər gözləyir: "Mərkəzi Bankın Hayastanda makroiqtisadi vəziyyətin sabit olduğuna dair əhalini arxayın etməsinə baxmayaraq, biz yenidən milli valyutamız olan dramın növbəti devalvasiyasının şahidinə çevriləcəyik. Mənbə bildirir ki, Mərkəzi Bank hətta tələb olduğu halda belə banklara dollar almağı qadağan edərək repressiv tədbirlər vasitəsilə dramın kursunu saxlamağa çalışır. Əgər əvvəllər Mərkəzi Bank valyuta müdaxilələri yolu ilə dramın kursuna təsir edirdisə, indi xarici rezervlərin pis vəziyyətdə olması üzündən bu maliyyə instrumentinin tətbiqi imkanları da xeyli məhdudlaşıb".

Erməni diasporu ilə Hayastan hakimiyyəti arasında fikir ayrılıqları, qarşılıqlı narazılıqlar da artıb. Diaspor yalnız hakim dairələrin, bir qrup məmurun faydalandığını əsas gətirərək yardımını azaldıb. Bu yardımların azalması, bəzən isə dayanması ölkədə iqtisadi vəziyyəti də pisləşdirir. Məlumatlara görə, Rusiya KİV-də Paşinyan əleyhinə yer alan məqalələrin sifarişçisi də elə erməni diasporudur. Diasporun dəstəyinin itirilməsi isə Paşinyanın hakimiyyətdəki mövqeyini sürətlə laxladır. Bu da Paşinyan iqtidarı üçün əsas zərbələrdən biri hesab olunur. Məhz bu səbəbdən müxalifət Paşinyan rejimini yıxmaq üçün əlavə imkanlar qazanır.

Bütün bunların fonunda hakimiyyətdaxili ziddiyyətlərin genişlənməsi Hayastanda siyasi böhranı daha da dərinləşdirir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi və Aparatın kollektivi

**İSMAYIL SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Memarlıq və İnşaat Universitetinin Mexanika kafedrasının müdiri, professor

**İSMAYIL SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorluğu, professor-müəllim heyəti və ictimai təşkilatları Mexanika kafedrasının müdiri, professor

**İSMAYIL SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsinin kollektivi Onkoloji Klinikanın müalicə işləri üzrə direktor müavini dosent Nigar Mehdiyevaya atası

**İSMAYIL SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi İlqar Abbasov və agentliyin kollektivi Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevaya atası

**YAŞAR ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Səbinə Əliyevaya atası

**YAŞAR TOFİQ OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Xaçmaz Rayon Veteranlar Təşkilatının sədri Abasyar Heydərov Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzova və Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevaya əzizləri

**YAŞAR ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*
contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 5270
Sifariş 3269
Qiyməti 40 qəpik